**MUSA QASIMOV**
**MAHİR ABDULLAYEV**

# Beynəlxalq münasibətlər tarixi
## (XX əsr. II hissə. 1946-1999-cu illər)

**tarix elmləri doktoru, professor Musa Qasımovun ümumi redaktəsi ilə**

**Dərslik**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-metodik şurası tarix bıolməsinin 1999-cu il ___________ tarixi _______ saylı iclas protokolu ilə təsdiq edilmişdir**

**1999**
**BAKI**

Q - 23

İxtisas redaktoru: - Mahir İslam oğlu Abdullayev, tarix elmləri namizədi, dosent

Rə'çilər: - İsmayıl Musayev, tarix elmləri doktoru, M.Ə.Rəsulzadə adına BDU-nun Beynəlxalq münasibətlər və Beynəlxalq jurnalistika kafedrasının professoru;
Həsən Əlibəyli, tarix elmləri doktoru, professor, Azərbaycan Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri;
Hikmət Rzayev, professor, Ali Diplomatiya Kollecinin Beynəlxalq münasibətlər kafedrasının müdiri.

Q - 23

Qasımov M., Abdullayev M., Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə 1946-1999-cu illər). Dərslik. Bakı, Bakı Universiteti nəşriyyatı, 1999. - 450 s.

Kitab Ali məktəb tələbələri, magistrlər, aspirantlar, müəllimlər və elmi işçilər üçün nəzərdə tutulmuşdur.

Dərslikdə 1946-1999-cu illərdə beynəlxalq münasibətlər tarixi xronoloji arldıcıllıqla və problemlər üzrə izah edilir. Tədris proqramına uyğun olaraq yazılmış dərs vəsaiti təkcə ali məktəblə bağlı olan şəxslər üçün deyil, eyni zamanda beynəlxalq münasibətlər tarixi ilə maraqlanan şəxslər üçün əhəmiyyətlidir.

Q ___________ 99

© Bakı Universiteti nəşriyyatı, 1999

**Musa Qasımov**
**Mahir Abdullayev**

# Beynəlxalq münasibətlər tarixi
**(XX əsr. II hissə.1946-1999-cu illər)**

**Bakı-1999**



## Mündəricat

Giriş ......................................................................................səh.

I bölüm. Müharibədən sonrakı ilk illərdə beynəlxalq aləmdə baş verən əsaslı dəyişikliklər. Soyuq müharibənin başlanması ........................................................... səh.

II bölüm. 50-ci illərdə beynəlxalq münasibətlərin başlıca inkişaf meylləri ............................................. səh.

III bölüm. 60 -cı illərdə beynəlxalq münasibətlərin ümumi səciyyəsi. .............................................................. səh.

IV bölüm. Gərginliyin zəiflədilməsi illərində beynəlxalq münasibətlər. ...................................................... səh.

V bölüm. 1980-1990-cı illərdə beynəlxalq münasibətlər. .....................................................səh.

VI bölüm. Soyuq müharibənin başa çatması. 1991-1999-cu illərdə beynəlxalq münasibətlərin əsas səciyyəsi. ........................................................... səh.

VII bölüm. 1946-1990-cı illərdə Azərbaycanın beynəlxalq münasibətlərdə iştirakı. ................................ səh.

VIII bölüm. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində ......................................................... səh.

## VII B Ö L Ü M

### 1946-1990-cı illərdə Azərbaycanın beynəlxalq münasibətlərdə iştirakı

Sovet dövründə Azərbaycan beynəlxalq huququn subyekti olmamış, yalnız mərkəz vasitəsi ilə vahid dövlət daxilində beynəlxalq əlaqələrdə iştirak etmişdir. Mərkəz Azərbaycanın xarici ölkələrlə birbaşa siyasi və ticarət-iqtisadi əlaqələrinə imkan verməmişdir, müharibədən sonrakı ilk onilliklərdə əsasən mədəni əlaqələr saxlamasına icazə vermişdir. Lakin bu əlaqələr Moskvanın ciddi nəzarətində və tabeliyində həyata keçirilmişdir. Siyasi əlaqələr əsasən sosialist və inkişaf etməkdə olan ölkələrin kommunist və sosialist partiyaları ilə saxlanılmışdır.

Azərbaycanın xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrinə Mərkəz əsasən 60-cı illərdən başlayaraq tədricən icazə verməyə başlamışdır. Respublikanın coğrafi-siyasi mövqeyi, iqtisadi, elmi-texniki potensialı və sərvətləri onun beynəlxalq iqtisadi əlaqalərinin maddi əsasını təşkil etmişdir.

Ayrı-ayrı dövlətlərin ərazisi çərçivəsindən kənara çıxan ictimai istehsal əlaqələrinin xüsusi sahəsi olan beynəlxalq iqtisadi münasibətlər Azərbaycanda təsərrüfatın formalaşmasına, strukturuna və inkişaf sürətinə fəal təsir göstərmişdir. Öz növbəsində bu iqtisadi potensialın mənafeyi həmişə xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrin inkişafını və təkmilləşdirilməsini tələb etmişdir.

Ümumittifaq əmək bölgüsü də Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin maddi bazasının formalaşmasında müəyyən rol oynamışdır. Azərbaycanın xarici ölkələrə ixracında xammal və yanacaq, xüsusilə neft məhsulları üstünlük təşkil etdiyindən, uzun müddət Azərbaycan köhnə neft avadanlıqları ilə quruda çıxartdığı neftin I tonunu 60, dənizdən çıxarılan neftin I tonunu isə 34 manata dövlətə satmışdır.

Neft çıxarılması tamamilə dövlət sifarişində olduğundan respublika öz neftini müstəqil surətdə dünya bazarına çıxarmaq imkanından məhrum olmuşdur. Digər sənaye sahələrinin



məhsullarının və hətta istehsal prosesinin tullantılarının xarici bazara çıxarılması üçün lisenziya və kvotalar ittifaq dövləti tərəfindən verildiyindən qazanılmış valyuta da mərkəzə qalmışdır. Məhz respublika iqtisadiyyatının strukturunun qeyri-kamil olması nəticəsində respublikada istehsal olunan pambığın 88, sulfanolun 86, neft məhsullarının 64, polad boruların 97, neft-mədən avdanlığının 75 faizi Azərbaycandan kənara göndərilmişdir. Halbuki, həmin xammal və avadanlıqları dünya bazarında respublika özü satsa idi, qazandığı valyuta vəsaiti ilə Azərbaycanı inkişaf etmiş dünya dövlətləri səviyyəsinə qaldırmaq, dünya standartlarına uyğun gələn mütərəqqi və güclü istehsal strukturu yaratmaq, iqtisadiyyatı həm daxili, həm də xarici tələbat əsasında yenidən qurmaq mümkün olardı. Azərbaycan öz hüquqlarından real surətdə istifadə etmədiyinə görə beynəlxalq hüququn, o cümlədən beynəlxalq iqtisadi hüququn formal subyekti olmuşdur. Əslsndə Moskva belə hüququdan istifadə etməyə icazə verməmişdir. 70-80-cı illərdə Azərbaycanın xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrinin əsas formasını xarici ticarət təşkil etmişdir.

Bu illərdə Azərbaycanın xarici ticarət əlaqəsi saxladığı ölkələrin sayı, xarici ölkələrə mal göndərən müəssisələrin sayı və göndərilən malların çeşidi xeyli artmışdır. Əməkdaşlıq ediləcək ölkələrin və göndəriləcək malların adını siyahısını Moskva müəyyənləşdirmişdir. Bu ölkələr əsasən sosialist və inkişaf etməkdə olan ölkələr olmuşdur. Məsələn: 1970-ci ildə respublikanın 70 müəssisəsi 56 ölkəyə 291 adda, 1975-ci ildə 100 müəssisəsi 64 ölkəyə 300 adda, 1980-cı ildə 110 müəssisə 85 ölkəyə 350 adda, 1990-cı ildə isə 236 müəssisəsi 100-dən çox ölkəyə 400 adda müxtəlif mühsullar ixrac etmişdir. İxracın miqdarı 1970-ci ildə 141,060 milyon manatlıq, 1975-ci ildə 244,299,1 milyon manatlıq, 1980-cı ildə 217,713,761 milyon manatlıq, 1985-ci ildə 278,831 milyon manatlıq, 1989-cu ildə isə 487,964,2 milyon manatlıq olmuşdur.

Azərbaycandan xaricə göndərilən məhsullar maşın və aqreqatlardan, neft mədən avadanlığından, elektrik mühərrikləri, yod, yastıqlar, borular, neft və neft məhsullarından, elektrotexnika və müxtəlif kənd təsərrüfatı məhsullarından ibarət olmuşdur.

Xarici ölkələrə ixracda ənənəvi olaraq yanacaq-energetika sənayesi və yüngül sənaye məhsulları, idxalda isə hazır məhsullar,

yüngül və yeyinti sənayesi məhsulları üstünlük təşkil etmişdir. Xarici ölkələrlə ticarətdə republika sənayesinin bütün əsas sahələri və bu sahələri təmsil edən müəssisələr iştirak etmişlər. Belə ki, Bakkondisioner EİB öz məhsullarını 74 ölkəyə, Soyuducular zavodu 30 ölkəyə, Bakı təcrübə-sınaq zavodu 19 ölkəyə, neftayırma zavodları 40 ölkəyə, Sumqayıtdakı kimya sənayesi EİB öz məhsullarını 41 ölkəyə, Sintezkauçuk İB 68 ölkəyə, Boru prokatı zavodu 20 ölkəyə, Azərelektroterm İB isə öz məhsullarını 16 ölkəyə ixrac etmişlər.

70-80-cı illərdə Azərbaycandan xarici ölkələrə müxtəlif kənd təsərrüfatı məhsulları da ixrac olunmuş və bu işlə respublika Dövlət Aqrar-Sənaye Komitəsi və Azərittifaq məşğul olmuşlar. Azərkoopxariciticarət Birliyinin xarici ticarət dövriyyəsinin həcmi 1980-cı ildə 1975-ci ilə nisbətən 1,7 dəfə, 1985-ci ildə isə 1980-cı ilə nisbətən 3,5 dəfə artmışdır. Azərbaycandan xarici ölkələrdə tikilən müəssisələr üçün xarici ticarət xətti ilə xammal, material və avdanlıqlar, plandankənar və yeni mallar da ixrac edilmişdir.

İxrac-idxal əməliyyatlarının əksəriyyəti ittifaq təşkilatları vasitəsilə aparılmışdır. Respublikanın xarici ticarət dövriyyəsində idxal ənənəvi olaraq ixracdan çox olduğuna görə xarici ticarətin ümumi balansı passiv, saldosu isə mənfi olmuşdur.

Respublikanın xarici ticarət dövriyyəsinin çox hissəsi Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinin payına düşmüşdür. Respublikanın 30 müəssisəsi Bolqarıstana 50 adda, Polşaya 50 adda, 20 müəssisəsi Çexoslavakiyaya 28 adda,30 müəssisəsi Macarıstana 50 adda, 25 müəssisəsi ADR-ə 50 adda, 20 müəssisəsi Yuqaslaviyaya 50 adda müxtəlif məhsullar ixrac etmişdir.

Azərbaycan Vyetnam, KXDR, Monqolustan və Kuba respublikası ilə də ticarət əlaqələri saxlamışdır. Azərbaycan həmin ölkələrdə müxtəlif xalq təsərrüfatı obyektlərinin tikilməsində öz xammal, material, avadanlıq və mütəxəssisləri ilə iştirak etmişdir. Öz növbəsində Azərbaycan həmin ölkələrdən sənaye məhsulları və xalq istehlakı malları idxal etmişdir. Bütövlükdə, 70-80-cı illərdə Azərbaycanın Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə ticarəti mərkəzin təqsiri ucbatından qeyri ekvivalent xarakter daşımışdır.

Azərbaycanın inkişaf etmiş kapitalist ölkələri ilə ticarət-iqtisadi əlaqələrinin həcmi SSRİ-nin həmin ölkələrlə siyasi münasibətlərindən asılı olmuşdur. Azərbaycan təxminən 25 inkişaf



etmiş kapitalist ölkəsi ilə əməkdaşlıq etmiş, onlara neft və neft məhsulları, neft-mədən avdanlığı, maşınqayırma məhsulları, müxtəlif kitablar, kənd təsərrüfatı məhsulları göndərmiş və respublikanın xarici ticarət dövriyyəsinin 20-25 faizi bu ölkələrin payına düşmüşdür. Azərbaycan öz məhsullarını ABŞ, İngiltərə, Fransa, Avstriya, Yaponiya, İsveç, İspaniya, Danimarka kimi ölkələrə göndərmişdir, özü isə kapitalist ölkələrindən maşın və avadanlıq, xalq istehlakı almışdır. Respublikanın yüngül və yeyinti sənayesi müəssisələrində, tibb ocaqlarında bu ölkələrdən alınmış müxtəlif avdanlıqlar tətbiq olunmuşdur. Məsələn: Bakkondisioner EİB 1975-ci ildə Yaponiyanın «Tosiba» firmasının lisenziyası, avdanlıqları və mütəxəssislərinin köməyi, Bakı dərin dəniz özülləri zavodu isə 1985-ci ildə Fransa mütəxəssislərinin köməyi ilə tikilmişdir.

Azərbaycan azad olmuş ölkələrlə də əlaqələr saxlamışdır. Bu əlaqələr də daha çox siyasi motivlərdən asılı olmuşdur. 70-80-cı illərdə Azərbaycan bütövlükdə 40-dan çox azad olmuş ölkə ilə ticarət əlaqələri saxlamışdır. Azərbaycanın Hindistan, Suriya, Əfqanıstan, İran və Türkiyə kimi ölkələrlə ticarəti daha geniş olmuşdur. İranla ticarət 1968-ci ildə yaradılmış «Şərqxariciticarət» Ümumittifaq birliyinin Bakı şöbəsi vasitəsilə aparılmışdır.

Afrika qitəsində Azərbaycanın əsas ticarət ortaqları Əlcəzair, Qvineya, Misir, Konqo, Liviya, Mali, Mərakeş, Nigeriya, Samoli, Sudan, Tanzaniya, Həbəşistan və Anqola, Latın Amerikasında isə Argentina, Boliviya, Peru, Venesuela və Braziliya olmuşdur. Azərbaycanın azad olmuş ölkələrlə ticarətinin 60 faizi Asiyanın, 35 faizi Afrikanın və 5 faizi Latın Amerikasındakı azad olmuş ölkələrin payına düşmüşdür.

70-80-cı illərdə Azərbaycan azad olmuş ölkələrdə iqtisadi və sosial həyatın inkişafına göstərilən yardımda iştirak etmiş, respublikanın ali və orta ixtisas məktəblərində həmin ölkələr üçün kadr hazırlanmışdır. Bu yardımlar sovet siyasəti çərçivəsindən kənara çıxmamış və əsasən Moskvanın məqsədlərinə xidmət etmişdir.

Azərbaycan Hindistanda, Əlcəzairdə, Pakistanda, Misirdə, Əfqanıstan, Mali, Banqladeş, Keniya, Anqola və Liviyada neft sənayesinin, Əfqanıstanda, Banqladeşdə, Həbəşistanda, Hindistanda, İndoneziyada və Kambocada energetika sənayesinin inkişafına, Hindistan, İran, İndoneziya, Əlcəzair və Misirdə metallurgiya və kimya zavodlarının tikilməsinə, YƏR-də, Birmada, Əfqanıstanda,

Kambocada, Tunis və Mərakeşdə suvarma qurğularının yaradılmasında iştirak etmişdir.

80-ci illərin ikinci yarısında iqtisadi əməkdaşlığın təkmilləşdirilməsi üçün görülən təşkilati tədbirlərin əsas məqsədi müəssisə və təşkilatların dünya bazarına birbaşa çıxmasını təmin etmək olmuşdur. Bu tədbirlərin içərisində xarici iqtisadi əlaqələrin inkişafına dair respublika hökumətinin qərarları, «Azərbaycanxarici-iticarət» Birliyinin, respublika xarici ticarət bankının, Azərbaycanın xarici ölkələrlə Yaradıcı və İşgüzar Əməkdaşlıq Birliyinin yaradılması və 1990-cı ilin oktyabrında Bakıda I beynəlxalq biznes konqresin keçirilməsi xüsusi yer tutmuşdur. Konqresin işində dünyanın 43 ölkəsinin 400 şirkətinin 700-ə qədər nümayəndəsi iştirak etmiş və konqresin işlədiyi günlərdə xarici firmalarla ümumi dəyəri 431 milyon dollarlıq 49 müqavilə, 112 təsis sənədi, saziş və niyyət protokolu qeydə alınmışdır.

Xarici ölkələrlə bağlanmış müqavilə və sazişlər Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə kömək etmişdir. Azərbaycanın müəssisə və təşkilatlarının xarici ölkələrin firmaları ilə birbaşa, istehsal kooperasiyası və barter əlaqələri, birgə müəssisələrin və xarici iqtisadi assosasiyalar yaradılmışdır. Azərbaycanın müəssisə və təşkilatları Macarıstan şirkətləri ilə 26 sahə üzrə əməkdaşlıq etmişdir. Sumqayıtdakı kimya müəssisələri, rayonlardakı pambıqtəmizləmə zavodları öz məhsullarını xarici ölkələrin firmaları ilə mal mübadiləsi və barter yolu ilə avadanlığa və xalq istehlakı mallarına dəyişirlər. Xarici firmalarda birbaşa əlaqələr sahəsində Bakkondisianer EİB, YBNZ, Azərittifaq kimi təşkilatlar xüsusi fəallıq göstərmişlər.

Birgə müəssisələrin və xarici iqtisadi assosiasiyaların yaradılması xarici ölkələrlə iqtisadi əməkdaşlığı genişləndirməyin, Azərbaycan iqtisadiyyatına xarici kapital cəlb edilməyin ən səmərəli yollarından biri oldu. Azərbaycanda xarici ölkələrin firma və müəssisələri ilə 60-dan çox birgə müəssisə yaradılmışdır. Lakin bunların əksəriyyəti istehsalla yox, kommersiya fəaliyyəti ilə məşğul olmuşdur. Azərbaycanda yaradılan birgə müəssisələrdən «İnkişaf» adlı Azərbaycan-Avstraliya, «Bakmil» adlı Azərbaycan-İtaliya, «Sovbulqarinjinirinq» adlı Azərbaycan-Bolqarıstan, «Adan» adlı Azərbaycan-Amerika, «Bakıinvest» adlı Azərbaycan-Almaniya, «Azita» adlı Azərbaycan-İtaliya, « Loxaus- Azərbaycan» adlı



Azərbaycan-Belçika, «Azinteroyl» adlı İsveç-Azərbaycan, «İnkromeks» adlı Azərbaycan-Avstriya və «Azərbaycan Korean ənterpraysis» adlı Azərbaycan-Cənubi Koreya birgə müəssisələrini və b. misal göstərmək olar.

Xarici ölkələrlə iqtisadi əməkdaşlığın genişlənməsinə kömək edən müəssisələrin biri də xarici iqtisadi assosasiyalar olmuşdur.

Azərbaycanın ticarət iqtisadi əlaqələrində sərgi və yarmarkalar özünəməxsus yer tutmuşdur. Bu, valyuta əldə etməyin, xarici ortaq tapmağın, xaricdən avadanlıq və texnologiya almağın və respublikanın imkanlarını nümayiş etdirməyin ən faydalı yolu hesab edilmişdir. Azərbaycan 1965-ci ildə Tehranda \İran\ keçirilən beynəlxalq sərgidə müstəqil stendlə, 1966-cı ildə Dəməşqdə \Suriya\ keçirilən 13-cü beynəlxalq yarmarkada müstəqil bölmə və 1970-ci ildə İzmirdə \Türkiyə\ keçirilən 39-cu beynəlxalq yarmarkada müstəqil pavilyonla təmsil olunmuşdur. Sərgi və yarmarkalarda respublikanın iştirakının təşkili ilə Azərbaycan Ticarət-Sənaye palatası məşğul olmuşdur. Azərbaycan Plovdivdə \Bolqarıstan\, Leyptsiqdə \ADR\, Praqada \Çexoslovakiya\, Bağdadda \İraq\, Qahirədə \Misir\, Dehlidə \Hindistan\ , Poznanda \Polşa\, Zaqrebdə \Yuqoslaviya\, Cakartada \İndoneziya\, Boqotada \Kolumbiya\, Osloda \Norveç\, Salonikdə \Yunanıstan\ və Hanoyda \Vyetnam\ keçirilmiş sərgi və yarmarkalarda iştirak etmişdir.

70-80-cı illərdə Bakıda xarici ölkə şirkətlərinin iştirakı ilə 50-dən çox beynəlxalq və ya ixtisaslaşdırılmış sərgi keçirilmişdir. Bu sərgi və yarmarkalarda Azərbaycan özünün neft maşınqayırması, elektrotexnika, neft-kimya, tikinti, yüngül və yeyinti sənaye sahələrinin məhsullarını nümayiş etdirmişdir. Azərbaycanın eksponatları dəfələrlə qızıl medallara və fəxri fərmanlara layiq görülmüşdür.

Beynəlxalq sərgi və yarmarkalarda Azərbaycan özünün neft maşınqayırması, elektrotexnika, neft-kimya, tikinti, yüngül və yeyinti sənaye sahələrinin məhsullarını nümayiş etdirmişdir. Respublikanın eksponatları dəfələrlə qızıl medallara və fəxri fərmanlara layiq görülmüşdür.

Beynəlxalq sərgi və yarmarkalarda Azərbaycan hər şeydən əvvəl, kommersiya məqsədi ilə iştirak etmişdir. Məsələn: Oslo yarmarkasında eksponatların satılmasından 12 min dollar, Salonik yarmarkasında 1200 dollar, Plovdivdə 4000 dollar, Lissabonda 25

min dollar, Hanoyda keçirilən sərgidə 12 min dollar, Tripolidə keçirilən yarmarkada isə 3 min dollar qazanc əldə edilmişdir. Lakin bu valyutanın çox hissəsi SSRİ TSP-nə qalmışdır. 80-cı illərin sonundan Azərbaycan sərgi və yarmarkalarda müstəqil surətdə iştirak etməyə, bu sahədə öz işini yenidənqurmağa və təkmilləşdirməyə başlamışdır.

Beləliklə Azərbaycan 1946-1990-cı illərdə öz imkanları daxilində beynəlxalq iqtisadi münasibətlərin iştirakçısı olmuşdur. Həmin illərdə respublika beynəlxalq iqtisadi münasibətlərdə SSRİ-nin xarici iqtisadi əlaqələri vasitəsilə iştirak etmişdir. Beynəlxalq gərginliyin zəifləməsi respublikanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə, ixracçı müəssisələrin və ixrac olunan məhsulların sayının artmasına kömək etmişdir. Dünya dövlətlərinin əksəriyyəti ilə əlaqələr saxlanılmışdır. Bu əlaqələr partnyorluq edən tərəflər üçün müəyyən əhəmiyyətə malik olmuşdur. Xarici ölkələrlə ticarət-iqtisadi əlaqələr Azərbaycanın xarici ticarət fəaliyyətinin mühüm tərkib hissəsi və əsas istiqamətlərindən biri olmuşdur.

Bütövlükdə Azərbaycanın xarici ölkələrlə ticarət -iqtisadi əlaqələrinin səviyyəsi və vəziyyəti respublikanın imkanlarına və tələbatına uyğun olmamışdır. Bu, Moskvanın təqsiri ucbatından Azərbaycanın dünya bazarına birbaşa çıxa bilməməsi, qazanılan valyutanın mərkəzdə qalması, xarici iqtisadi əlaqələrin elmi cəhətdən əsaslandırılmaması, bu sahə üzrə respublikada kifayət qədər mütəxəssisin olmaması, ixracda xammalın və yarımfabrikatların üstünlük təşkil etməsi, respublikada xarici iqtisadi əlaqələri maliyyələşdirən bankın olmaması ilə bağlı olmuşdur.

1946-1990-cı illərdə Azərbaycan Respublikası SSRİ tərkibində beynəlxalq qarşılıqlı mədəni əlaqələrin iştirakçısı olmuşdur. Bu, həm SSRİ Konstitusiyasının 80-ci maddəsinə-«müttəfiq respublika xarici dövlətlərlə münasibətlərə girmək, onlarla müqavilələr bağlamaq, diplomatik və konsul nümayəndələri göndərmək və qəbul etmək, beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququna malikdir» və həm də Azərbaycan Respublikası Konstitusiyasının 28-ci madəsinə-respublika «öz xarici siyasət məqsədləri, vəzifələri və prinsipləri rəhbər tutur» maddələrinə «əsasən» həyata keçirilmişdir. 1946-1990-cı illərdə Sovet İttifaqını təşkil edən müttəfiq respublikalardan biri kimi Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsinin hüquqi- siyasi əsasını



SSRİ-nin xarici ölkələrlə bu sahəyə aid bağladığı müqavilə, saziş və protokollar təşkil etmişdir. SSRİ 40-50-ci illərdə Monqolustan, Rumıniya, Bolqarıstan, Finlandiya, Macarıstanla, 60-cı illərdə İtaliya, Mali, ADR, Türkiyə, Polşa, İordaniya, Meksika, 70-80-ci illərdə Sudan, Lüksemburq, İtaliya, Çexoslovakiya, Norveç, İsveç, ABŞ, İran, Yaponiya, AFR, YXDR, İngiltərə, İslandiya, Qvineya-Bisau, Liviya, Belçika, Fransa, Portuqaliya, Küveyt, Türkiyə, Venesuela, Mozambik, Anqola, Tanzaniya, Tunis, Efiopiya, Yunanıstan, Hindistan, Kampuçiya, Nikaraqua, Kipr, Argentina, Uruqvay və çoxlu başqa dövlətlərlə mədəni əlaqələrə dair çoxlu sənədlər bağlamışdır. Həmin sənədlərdə mədəni əlaqələrin formaları, həyata keçirilməsi prinsipləri müəyyən edilmiş və əhəmiyyəti qeyd olunmuşdur.

Mədəni əməkdaşlıq məsələləri 1946-1990-cı illərdə Sovet İttifaqının xarici ölkələrlə münasibətlərində və həmçinin beynəlxalq münasibətlərdə mühüm hadisələrdən biri olmuşdur.

Beynəlxalq mədəni əlaqələr problemi eyni zamanda çoxtərəfli əsasda, o cümlədən Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair Helsinki müşavirəsinin (1975-ci il), Madrid (1983-cü il), Vyana (1989-cu il), Paris (1990-cı il) görüşlərinin yekun sənədlərində öz əksini tapmışdır. Bu sənədlərdə dövlətlərarası münasibətlərdə mədəni əlaqələrin yeri, formaları müəyyən edilir və əhəmiyyəti göstərilir.

Bu dövrdə beynəlxalq qarşılıqlı mədəni əlaqələrdə Azərbaycan Respublikasının iştirakını aşağıdakı mərhələlərə ayırmaq olar: 1946-cı ildən 50-ci illərin ortalarınadək; 50-ci illərin ortalarından-70-ci illərədək; 70-ci illər-80-ci illərin ortalarınadək; 80-ci illərin ortalarından-1990-cı ilədək. İlkin mərhələdə mədəni əlaqələr xeyli zəif idi və mərkəzin inzibati-amirlik metodu Azərbaycanan fəaliyyətini demək olar ki, tamamilə məhdudlaşdırırdı. Müharibənin sonuna yaxın, 1944-cü ildə Azərbaycan SSRİ XXİK bərpa olundu və 1946-cı ildə Xarici İşlər Nazirliyinə çevrildi. Bununla belə Nazirlik Mərkəzin təqsiri üzündən protokol idarəsi kimi qalırdı. Bu mərhələdə Azərbaycanın mədəni əlaqələrini əsasən İranla mədəni əlaqələr cəmiyyəti həyata keçirmişdir. Bu mərhələnin səciyyəvi cəhəti beynəlxalq aləmdə «soyuq müharibə»nin tüğyan etməsi, SSRİ daxilində isə şəxsiyyətə pərəstiş və inzibati-amirlik metodlarının

hökmranlığıdır. Dövrün siyasi ab-havası mədəni əlaqələrə ciddi mənfi təsir göstərmişdir.

50-ci ilin ortalarından başlayaraq bu əlaqələrin coğrafiyası genişlənmişdi və Avropa, Asiya və Amerikanın bir sıra ölkələrini əhatə etmişdir. Bu mərhələdə dünyada və ölkədə möhtəşəm dəyişikliklər baş verdi. SSRİ-də inzibati-amirlik idarə üsulu nisbətən yumşaldıldı, şəxsiyyətə pərəstişdən qismən imtina edildi, islahatçılığa doğru meyl başlandı. Dünyada müstəmləkə sistemi dağıldı və yeni müstəqil dövlətlər meydana gəldi. Bütün bu və digər amillər beynəlxalq mədəni əlaqələrin genişlənməsi üçün əlverişli şərait yaratdı.

70-ci illər-80-ci illərin ortalarınadək olan mərhələ həm də keyfiyyət baxımından özündən əvvəlki mərhələlərdən köklü şəkildə fərqlənir. Bu mərhələdə beynəlxalq həyatda iki xətt arasında kəskin mübarizə gedir: bir tərəfdən gərginliyin zəiflədilməsinə, «soyuq müharibə»nin ləğvinə doğru meyl; digər tərəfdən isə gərginliyin zəiflədilməsinin əleyhdarlarının xətti. Beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönələn xətt 70-ci illərin sonlarından bir sıra səbəblər üzündən ciddi müqavimətə rast gəldi. Bu mərhələdə mərkəzin bürokratik əngəllərinə baxmayaraq Azərbaycan mədəniyyəti beynəlxalq aləmdə özünə yol açdı, və hətta onun bədxahları tərəfindən də qəbul olundu. Azərbaycan dünyanın 120-dən çox ölkəsi ilə mədəni əlaqələr saxlamışdır. 1988-ci ildə xaricdə yaşayan həmvətənlərlə mədəni əlaqələr cəmiyyəti-«Vətən» cəmiyyətinin yaradılması Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği və xalqımız haqqında düzgün təsəvvür yaratmaq daşıyırdı.

80-ci illərin ortalarından başlayaraq Azərbaycan xarici ölkələrlə mədəni əlaqələrə dair birbaşa sazişlər bağlamışdır. 1990-cı ilin yanvarında Azərbaycanla Türkiyə Respublikası arasında mədəni və elmi əməkdaşlığa dair protokolun imzalanması diqqətəlayiqdir. Protokolda iki respublika arasında mədəni əməkdaşlığı genişləndirməyin yolları və formaları müəyyənləşdirilmişdir.

Bu mərhələdə ölkədə başlanmış olan yenidənqurma adlandırılan siyasət respublikaların hüquqlarının genişləndirilməsinə, beynəlxalq həyatda isə «soyuq müharibə»nin başa çatmasının elan edilməsinə, Şərqi Avropada sosializmdən, marksizm-leninizmdən imtina edilməsinə gətirib çıxardı. Digər tərəfdən, bu mərhələ ölkə



daxilində kəskin sosial, siyasi, iqtisadi, mənəvi, milli ziddiyyətlərlə, Azərbaycanda Ermənistanın əsassız ərazi iddiaları nəticəsində yaradılmış təcavüzünün yekunu olan Dağlıq Qarabağ böhranı ilə səciyyələnir. Bütün bu hadisələr respublikanın beynəlxalq mədəni əlaqələrinə eyni cür təsir göstərməmişdir.

Respublikanın beynəlxalq mədəni əlaqələrini 30-a yaxın nazirlik, idarə, təşkilat, cəmiyyət və s. həyata keçirtmişdir. Bunların içərisində Respublika Xarici İşlər Nazirliyini, Mədəniyyət Nazirliyini, Xarici ölkələrlə Dostluq və Mədəni əlaqələr cəmiyyətini və başqalarını göstərmək olar.

Azərbaycanın beynəlxalq mədəni əlaqələrdə iştirakı əsasən aşağıdakı formalarda həyata keçirilmişdir: ədəbi əlaqələr, kitab çapı, kitab mübadiləsi, kitab sərgi və yarmarkaları, yazıçı, şair və jurnalistlərin əməkdaşlığı, musiqi, teatr, kino, televiziya, radio sahəsində əməkdaşlıq, rəssamların sərgi və yarmarkalarda iştirakı, ictimaiyyətin əlaqələri, mədəniyyət günləri, qardaşlaşmış şəhərlər, idman, turizm Azərbaycan milli musiqisi, dramaturgiyası, opera və balet incəsənəti, kinosu, simfonik, vokal-instrumental ansamblları xaricdə məşhurdur. Əlbəttə, mədəni əlaqələrin bu formalarının hamısı eyni səviyyədə həyata keçirilməmişdir.

Mədəni əlaqələrin qurulmasında və həyata keçirilməsində xeyli nöqsanlar mövcud olmuşdur. Bunların bir qismi respublikanın, bir qismi isə mərkəzin müvafiq təşkilatlarının üzərinə düşür. 1980-1990-cı illərdə Azərbaycan dünyanın 120-i ölkəsində mövcud olan 860-dan çox təşkilatla mədəni əlaqə saxlamışdır. Azərbaycanın başqa sahələrdə olduğu kimi mədəniyyət sahəsində də sosialist, inkişaf etmiş kapitalist ölkələri və inkişaf etməkdə olan ölkələrlə beynəlxalq əlaqələri geniş xarakter almışdır. Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələri mənəvi həyatın müxtəlif sahələrini, o cümlədən təhsil, ədəbiyyat və incəsənət kimi sahələrini əhatə etmişdir. Hər il Azərbaycan mədəniyyətinin yüzlərlə minlərlə nümayəndəsi, onlarla bədii kollektivi, aktyor qrupları xaricə getmiş, təxminən qeyd olunan qədər də xarici dövlətlərin mədəniyyət işçisi Azərbaycana gəlmişdir.

Həmin illərdə xarici ölkələrə respublikanın yaxşı bədii və yaradıcı kollektivləri, yaradıcı birliklərinin məşhur üzvləri, yazıçılar, bəstəkarlar, rəssamlarının və yaradıcı ziyalılarının nümayəndələri göndərilmişdir. 1980-1990-cı illərdə bu yolla 2000-dən yuxarı mədəniyyət xadimi, yaradıcı birliklərin nümayəndələri, 90-dan yuxarı

yaradıcı kollektiv, ifaçı qrupları, 1000-dən yuxarı musiqiçi, xanəndə və aktyor xarici ölkələrdə olmuşlar. Təkcə 1985-ci ildə Azərbaycan incəsənətinin nümayəndələri Əfqanıstanda, İraqda, Monqolustanda, ABŞ-da, İsveçdə və digər ölkələrdə olmuşlar. Ümumiyyətlə, Azərbaycan incəsənətinin nümayəndələri 1980-1990-cı illərdç 160-dan çox ölkədə (ölkələrin bəziləri bir neçə dəfə təkrar olunmuşdur), eyni dövrdə isə 130-dan çox xarici ölkənin incəsənət nümayəndələri Azərbaycanda olmuşlar. Həmin dövrdə respublikanın incəsənət xadimləri xarici ölkələrin 800-dən yuxarı şəhərlərində olmuş, təxminən 2000-dən yuxarı konsert vermiş, 7500-ə qədər görüş keçirmişlər.

1980-1990-cı illərdə keçirilən 50-dən artıq SSRİ mədəniyyət günü Azərbaycan incəsənətinin iştirakı ilə olmuşdur. Bu tədbirlərin əhəmiyyəti ondan ibarət idi ki, külli miqdarda insanlar Azərbaycan incəsənətinin naliyyətləri ilə təmasda olmuş və Azərbaycan xalqının mənəvi dünyası ilə daha yaxından tanış olmuşlar.

Azərbaycan xarici ölkələr üçün mütəxəssislər də hazırlamışdır. 1986-cı ilin əvvəlində respublikada dünyanın 70 ölkəsi üçün 29 ixtisas üzrə 3000-ə qədər xarici tələbəyə ali təhsil diplomu verilmişdir. 1987-ci ilin əvvəlinə olan məlumata görə, respublikada 71 ölkənin 3022-i gənci təhsil almışdır.

1980-1990-cı illərdə 1000-ə qədər Azərbaycan alimi xarici ölkələrdə elmi s əfərdə olmuş, 4000-ə yaxın öz xarici həmkarlarını respublikamızda qəbul etmişlər. Təkcə Azərbaycan EA-nın alimləri hər il 51 ölkənin orta hesabla 570 elmi təşkilat və mərkəzi ilə əlaqə saxlamış və müxtəlif elm sahələrini əhatə edən 40 mövzu üzrə birgə tədqiqat işləri aparmışlar.

Azərbaycan alimləri 200-ə yaxın böyük beynəlxalq elmi tədbirlərdə, konqreslərdə, simpoziumlarda və digər elmi xarakterli tədbirlərdə iştirak etmişlər. Təkcə 1981-1985-ci illərdə Azərbaycan elminin müxtəlif istiqamətlərinin nümayəndələri 60-dan yuxarı beynəlxalq konqreslərin, konfransların, simpozium və müşavirələrin iştirakçısı olmuşlar. Alimlərimizin əsərləri 60-dan artıq xarici ölkədə 30 dildə çapdan çıxmışdır. 20 Azərbaycan alimi müxtəlif beynəlxalq elmi təşkilatların üzvü seçilmişlər.

1980-1990-cı illərdə Azərbaycan böyük beynəlxalq elmi tədbirlərin mərkəzinə çevrilmişdir. Bu dövrdə Bakıda 90-dan yuxarı beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi



xarakterli tədbirlər keçirilmişdir. 1980-1990-cı illərdə Azərbaycan EA-nın Böyük fundamental elmi kitabxanası 40-dan 53-ə qədər xarici ölkələrdə fəaliyyət göstərən 460-dan 580-ə qədər elmi mərkəzlərlə əməkdaşlıq etmişdir. Bu illərdə kitabxana beynəlxalq kitab mübadiləsi yolu ilə xarici ölkələrdən 110.000-dən artıq müxtəlif elmi ədəbiyyat almış, öz növbəsində isə 105.000 ədəd elmi ədəbiyyat yollamışdır. Təkcə 1981-1985-ci illərdə o, 43.532 ədəd ədəbiyyat yollamış, 52.834 ədəd ədəbiyyat almışdır. Həmin illərdə M.F Axundov adına Dövlət kitabxanası xarici həmkarlarına 10.000-ə qədər ədəbiyyat yollamış, 11.000-dən yuxarı ədəbiyyat almışdır.

Azərbaycanın beynəlxalq ictimai-siyasi əlaqələri müxtəlif formalarda, mümkün olan bütün istiqamətlərdə həyata keçirilmişdir. Lakin bu əlaqələr konkret siyasi məqsədlərə tabe etdirilmiş və ciddi nəzarət altında olmuşdur.

Göstərilən əlaqələrin möhkəmlənməsinə yönəldilən ən vacib formalardan biri ikitərəfli qaydada müxtəlif ixtisas və görüşlərə malik olan ictimai və siyasi xadimlərin nümayəndələrinin mübadiləsi olmuşdur. Əgər 1960-1970-ci illərdə Azərbaycanda dünyanın orta hesabla 110 ölkəsindən ictimaiyyətin müxtəlif sənət sahələrindən ibarət 600-dən yuxarı rəsmi nümayəndə heyəti səfərdə olmuşdursa, 1980-1990-cı illərdə dünyanın orta hesabla (hər iki nümayəndə heyətləri və ölkələrin sayı müxtəlif olmuş) 150-dən yuxarı ölkəsinin ictimaiyyətinin 3000-ə yaxın nümayəndə heyətləri Azərbaycanda olmuşlar. Təkcə 1980-ci ildə belə nümayəndə heyətlərinin sayı 250-dən yuxarı olmuşdur. Respublikaya gələn xarici dövlətlərin ictimaiyyətinin nümayəndə heyətlərinin səfərləri əməli və məqsədəuyğun işə xidmət etmişdir. Onların gəlişi geniş ictimai-siyasi kampaniyaların keçirilməsi ilə səciyyələnir. Belə ki, nümayəndə heyətinin üzvləri müxtəlif illərdə respublikamızda 100.000-dən çox iştirakçısı olan 30.000-dən yuxarı tədbirdə iştirak etmiş, 20.000-dən çox görüşlər keçirmiş, 10.000-dən artıq şəxsi əlaqə yaratmışlar. Onlar Azərbaycanın 12.000-dən artıq müəssisə və elm ocaqlarında, tarixi yerlərində olmuşlar. Bu da onlara Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi və mədəni, elmi və texniki potensialı haqqında geniş məlumatlar əldə etməyə, respublika əhalisinin həyat tərzi ilə yaxından tanış olmağa imkan vermişdir.

VIII BÖLÜM
AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ
MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## *Azərbaycan dövlətinin xarici siyasət prinsipləri, mahiyyəti, məqsəd və vəzifələri*

Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiyasının 10-cu maddəsində deyilir: "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur".

Beynəlxalq prinsiplər beynəlxalq münasibətlər sisteminin bütün subyektləri üçün yerinə yetirilməsi məcburi olan normadır. Onları ayrı-ayrı dövlətlər və dövlətlər qrupu dəyişdirə bilməzlər.Bu prinsiplər adi və müqavilə yolu ilə formalaşaraq əsasən iki funksiyanı yerinə yetirirlər: bir tərəfdən, beynəlxalq münasibətlərin sabitləşməsinə kömək edirlər, onları müəyyən normativ çərçivələrlə məhdudlaşdırırlar, digər tərəfdən isə, beynəlxalq münasibətlər praktikasında yeni yaranan nə varsa onu möhkəmləndirir və inkşafına kömək edirlər. Bu prinsiplərin səciyyəvi cəhəti onların universal olmasındadır. Onlardan birinin pozulması avtomatik olaraq beynəlxalq münasibətlər sisteminin digər iştirakçılarının mənafeyinə toxunur. Prinsiplərin fəaliyyəti subyektlərin hətta konkret normalarla tənzimlənməyən sahələrinə də yayılır. Bu prinsiplər beynəlxalq qayda-qanunların təməlini təşkil edirlər.

Beynəlxalq hüquq prinsipləri dövlətimizin də üzv olduğu BMT-nin nizamnaməsində əks olunmuşdur. Onları heç bir dövlət və ya dövlətlər qrupu öz aralarında imzaladıqları sənədlərlə ləğv edə bilməz. Bu prinsipləri ayrı-ayrılıqda şərh və tətbiq etmək düzgün deyildir.Çünki onlar bir-birləri ilə sıx çulğalaşmışlar. Və onlara bütün başqa prinsiplərin konteksində baxılmalıdır.

Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində əsaslandığı prinsiplər bunlardır: dövlətlərin suveren bərabərliyi; zor işlətmək və ya zorla hədələməmək; dövlət sərhədlərinin pozulmazlıqı; dövlətlərin ərazi bütövlüyü; beynəlxalq mübahisələrin dinc yollarla həlli; daxili



işlərə qarışmamaq; insan haqlarına hörmət; xalqların və millətlərin öz müqəddəratını təyin etmə; əməkdaşlıq; beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək.

*DÖVLƏTLƏRİN SUVEREN BƏRABƏRLİYİ.* Dünya qaydası onun bütün iştirakçıları arasında yalnız suveren bərabərlik əsasında qoruna bilər. Hər bir dövlət beynəlxalq münasibətlər sisteminin digər iştirakçılarının suverenliyinə, yəni öz ərazisində qanunvericilik, icraedicilik, idarəçilik və məhkəmə hakimiyyətini, həmçinin, xarici siyasətini kənardan müdaxilə olmadan həyata keçirməsinə hörmət etməlidir. Dövlətlərin suveren bərabərliyi müasir beynəlxalq münasibətlərin əsasını təşkil edir. O, BMT nizamnaməsində, digər beynəlxalq təşkilatların sənədlərində möhkəmləndirilmişdir. Bu prinsipə görə, sosial, iqtisadi inkişaf səviyəsindən, əhalisinin sayının çox və ya azlığından, ərazisinin böyük-kiçikliyindən asılı olmayaraq bütün dövlətlər bərabərdilər. Əlbəttə, dövlətlərin hüquq bərabərliyi, heç də onların faktiki bərabərliyi demək deyildir. Bu, özünü BMT Təhlükəsizlik Şurasının təcrübəsində aydın şəkildə göstərir. Yəni BMT-də bütün dövlətlər bərabərdirlərsə də, dünyada sülh və təhlükəsizliyin taleyini daha çox Təhlükəsizlik Şurasının beş daimi üzvü - ABŞ, İngiltərə, Fransa, Çin və Rusiya həll edirlər. Onlar beynəlxalq məsələlərin həllində öz mövqelərini diqtə edə bilirlər və bu məqsədlə də veto hüququnda istifadə edirlər. Əslində veto hüququ beynəlxalq münasibətlər sisteminin sağlamlığı üçün zəruri şərtlərdən biri sayılan bərabərlik prinsipi ilə bir araya sığmır. Suverenlik dövlətin özünü təcrid etməsi demək deyildir. Çünki o, dünya birliyinin başqa üzvləri ilə birlikdə mövcuddur, qarşılıqlı əlaqədədir və qarşılıqlı asılıdır. Həm də dövlətin daxilində elə problemlər yarana bilər ki, o, beynəlxalq sülh və təhlükəsizlik üçün qorxu törədər. Buna görə də beynəlxalq birlik həmin problemləri dövlətin suverenliyi və daxili iş kimi qiymətləndirmədən ona qarışa bilər. Azərbaycan dövləti özünün beynəlxalq fəaliyatində bütün digər dövlətlərin suverenliyinə hörmət edir və əməli fəaliyyətində buna ciddi surətdə əməl edir.

*ZOR İŞLƏTMƏMƏK VƏ YA ZORLA HƏDƏLƏMƏMƏK.* Beynəlxalq münasibətlərin demokratikləşdirilməsi təbii olaraq zor işlətməyi və zorla hədələməyi minimuma endirməyi zəruri edir. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cu bəndində təsbit edilmişdir. Burada deyilir ki, BMP-nin bütün üzvləri beynəlxalq

münasibətlərdə hər hansı dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı zor işlətməkdən və ya onu tətbiq etməkdən imtina edirlər. Bu prinsip həmçinin BMT-nin beynəlxalq hüququn prinsipləri haqqında (1970-ci il), təcavüzkarın müəyyən edilməsi haqqında (1974-ci il) bəyannamələrində, ATƏT-in yekun sənədində (1 avqust 1975-ci il), Beynəlxalq münasibətlərdə zor işlətməkdən və ya zorla hədələməkdən imtina edilməsinin səmərəliliyini artırmaq haqqında bəyannamədə (1987-ci il) əks olunmuşdur. Zor işlətməmək prinsipi ilk növbədə tacavüzkarlıq müharibələrinin qadağan edilməsini nəzərdə tutur. O, beynəlxalq normaları pozaraq başqa dövlətin ərazisini işğal etməyi, öz ərazisini başqa dövlətə qarşı təcavüzkarın istifadəsinə verməyi, başqa dövlətdə terrorçu hərəkətlərə və vətəndaş müharibəsində iştirak edən tərəflərə kömək etməyi, başqa dövlətin ərazisinə muzdlular göndərməyi, qızışdırıcılıq fəaliyyətini və s. qadağan edir. Bununla belə, dövlətin üzərinə silahlı basqın olarsa, o, müdafiə məqsədləri üçün silahlı qüvvə tətbiq edə bilər.

*DÖVLƏT SƏRHƏDLƏRİNİN POZULMAZLIĞI* Bu prinsip Avropa dövlətlərinin təhlükəsizliyini təmin etməyin ən mühüm əsaslarından biridir. Sərhədlərin pozulmazlığı bir sıra beynəlxalq və ikitərəfli sənədlərdə öz əksini tapmışdır. Onun əsas məzmunu üç mühüm elementdə cəmlənmişdir: mövcud sərhədlərin beynəlxalq hüquqa uyğun qurulduğunu qəbul etmək; indi və gələcəkdə hər hansı ərazi iddialarındandan imtana etmək; sərhədlərin pozulması və ya zorla dəyişdirilməsi cəhdlərindən imtina etmək. ATƏT-in 1975-ci il avqustun 1-də imzalanmış yekun sənədində 33 Avropa dövləti, ABŞ və Kanada onu təsdiqlədir. Bu prinsip eyni zamanda, hər hansı suveren dövlətin öz sərhədlərinə nəzarət etməsini və onun pozulmasına qarşı tədbirlər görməsini də nəzərdə tutur. Sərhədlərin pozulmazlığı və toxunuzmazlığı bütün qitələrə və dövlətlərə aiddir.

*DAXİLİ İŞLƏRƏ QARIŞMAMAQ*

Dövlətlərarası münasibətlərin ümumi prinsipi kimi daxili işlərə qarışmamaq millətlərin öz dövlətçiliyi uğrunda mübarizəsi prosesində formalaşmışdır. Lakin əvvəlki vaxtlarda bu prinsip məhdud olmuşdur. Çünki bir sıra dövlətlər bir-birlərinin daxili işlərinə kobudcasına qarışırdılar. Müasir anlamda daxili işlərə qarışmamaq BMT nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndində,



1970-ci ildə qəbul edilmiş beynəlxalq hüquq prinsipləri haqqında bəyannamədə, ATƏT-in yekun sənədində və b. əks olunmuşdur. Azərbaycan dövləti bu prinsipə ciddi surətdə əməl edərək heç bir dövlətin daxili işlərinə birbaşa və ya dolayısı yolla qətiyyən qarışmır.

*DÖVLƏTİN ƏRAZİ BÜTÖVLÜYÜ.* Bu prinsip BMT nizamnaməsinin qəbul edilməsi ilə təsbit olunmuş və sonralar inkişaf etdirilmişdir. O, hər hansı dövlətin ərazisini mümkün ola biləcək təcavüzlərdən qorumalıdır. Bu prinsipə görə, dövlətin ərazisi zor tətbiq etməklə hərbi təcavüz obyekti ola bilməz və başqa dövlət tərəfindən tutula bilməz. Zorla tutulan hər hansı ərazi dünya birliyi tərəfindən qəbul oluna bilməz. BMT nizamnaməsinə və ATƏT prinsiplərinə görə, iştirakçı dövlətlər bir-birlərinin ərazi bütövlüyünü hörmət etməlidirlər. Azərbaycan dövləti bütün dövlətlərin ərazi bütövlüyünə hörmət edir.

*İNSAN HAQLARINA ÜMUMİ HÖRMƏT.* Bu prinsip Avropa burjua inqlabları dövründə siyasi-hüquqi terminologiyaya daxil olmuşdur. Lakin beynəlxalq hüququn prinsipi kimi, o, BMT Nizamnaməsinin qəbul edilməsi ilə bilavasitə bağlıdır. Nizamnamənin 55-ci maddəsində göstərilir ki, təşkilat əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, tam məşğulluğuna, iqtisadi və sosial tərəqqisinə və və inkşafına kömək edir. Burada problem ümumi formada göstərilir. Lakin müharibədən sonrakı illərdə dövlətlər buprinsipi konkretləşdirməyə çalışdılar. 1948-ci ildə insan hüquqlarının ümumi bəyannaməsi, 1966-cı ildə vətəndaş və siyasi hüquqlar haqqında və iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktlar qəbul edildi.İnsan haqlarının qorunması universal normadır. Dövlətlər irqindən, cinsindən, dinindən, dilindən asılı olmayaraq insanların hüquq və azadlıqlarını qorumalıdırlar. Bu öhdəlik ümumi məcburi xarakter daşıyır.

Azərbaycan Respublikası 1992-ci il iyulun 21-də «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» beynəlxalq pakta, BMT-nin qaçqınların statusuna dair konvensiyasına,1995-ci il iyulun 30-da BMT-nin «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» konvensiyasına və b. qoşulmuşdur.

MİLLƏTLƏRİN ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏSİ. Beynəlxalq münasibətlərin prinsipial əsaslarından biri kimi bu prinsipə görə, hər bir xalq sərbəst suətdə öz inkişafının yol və formasını müəyyənləşdirə bilər. Bu prinsip BMT nizamnaməsinin 1-

ci maddəsinin 2-ci bəndində, 1960-cı ildə qəbul edilmiş müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında bəyannamədə, 1966-cı ildə qəbul edilmiş «İnsan hüquqları haqqında» paktda, 1970-ci ildə qəbul edilmiş «Beynəlxalq hüququn prinsipləri haqqında» bəyannamədə, ATƏT-in yekun sənədində və b. ifadə olunmuşdur. Beynəlxalq normalara görə, öz müqəddəratını təyin etmənin subyekti dövlət deyil, xalq və millətdir. Öz müqəddəratını təyin etmək millətlər arasındakı normal münasibətlərə xələl gətirməməlidir.

ATƏT-in 1995-ci il iyulun 4-8-də Vyanada keçirilmiş sesiyasında qəbul edilmiş sənədlərdə göstərlir ki, öz müqəddəratını təyin etmək məqsəd deyil, vasitədir; kollektiv şəkildə dinc və demokratik inkişaf deməkdir; ayrılmaq hüququ mütləq hüquq demək deyildir; hər bir xalqın öz müqəddəratını təyin etmək hüququ başqa xalqların hüquqları ilə tarazlaşdırılmalıdır; bu prosesdə zorakılıq yolverilməzdir və s. Ayrılmaq hüquqdur, vəzifə və mütləq niyyət demək deyildir. Ölkədən ayrılmaq mürəkkəb qərar olmaqla bərabər, ən son, lakin öz müqəddəratını təyin etmənin ən nadir hallarda mümkün ola bilən məqsədlərindən biridir.

Ayrılmaq cəhdləri gözlənilməz və arzuolunmaz mənfi nəticələrə gətirir. Kiçik müstəqil qurumun yaradılması iqtisadi, siyasi və sosial sabitliyi poza bilər. Öz müqəddəratını təyin etmək qətiyyən suveren dövlətin ərazi bütövlüyünü separatçılıqla parçalanması ola bilməz. Bu sənədlərdə həmçinin göstərilir ki, öz müqəddaratını təyin etmək proses konkret statusa nail olmağa doğru gedə bilər. Xalqın öz müqəddaratını təyin etməsi hüququqnun məqsədlərinə aşağıdakılar daxil ola bilər: mövcud dövlətlərlə inteqrasiya olmaq; xüsusi imtiyazlar əldə etmək; milli dildə təhsil almaq; milli dilin rəsmi dil kimi tanınmasına və istifadəsinə nail olmaq; xalq vəya milli azadlıq kimi rəsmi tanınmaya laiq olmaq; dövlət daxilində yerli muxtariyyat almaq və s. Lakin yuxarıda sadalananlar heç də bu məqsədlərə mütləq çatmaq demək deyildir. Dövlətin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmamazlığı millətlərin öz müqədəratını təyin etməsində başlıca şərtdir. Dövlətin siyasi birliyi və ərazi bütövlüyü separatçılıqla bölüşdürülə bilməz. Göründüyü kimi, ermənilərin öz müqəddəratını təyin etməsi bəhanələri ilə Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri beynəlxalq hüquq prinsiplərinin kobudcasına pozulmasıdır.



Azərbaycanda yaşayan Dağlıq Qarabaq erməniləri milli azlıq öz müqqədaratını tə'yin edə bilər, amma müstəqillik formasında yox. Digər tərəfdən, müstəmləkə və torpaqları işğal edilmiş xalqlar müstəqillik e'lan edə bilərlər. Müəstəqil dövlətin ərazisində yaşayan xalqların isə belə hüququ yoxdur. Dağlıq Qarabaq isə tarixən Azərbaycanın müstəmləkəsi deyil, onun ayrılmaz hissəsi, ərazisi olmuşdur. Dağlıq Qarabağın Coğrafi mövqeyi də bunu bir daha təsdiq edir. Çünki yalnız metropoliya sərhədlərindən kənarda yerləşən əraziyə müstəmləkə statusu verə bilər.

Demokratik cəmiyyətdə etnos yox, yə'ni ayrılıqda götürülmüş bir millət yox, yalnız müəyyən ərazidə yaşayan əhali, yə'ni damos, adamlar öz müqəddəratını tə'yin edə bilərlər. Deməli, bütün məsələlərdə regionun azərbaycanlı əhalisinin rə'yi gözlənilməzdir. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin rə'yini nəzərə almayan heç bir sənəd hüquqi əhəmiyyət kəsb edə bilməz.

*ƏMƏKDAŞLIQ.* Siyasi, iqtisadi və sosial sistemlərdəki fərqlərdən asılı olmayaraq, dövlətlərin müxtəlif sahəli əməkdaşlığı BMT nizamnaməsindən irəli gələn prinsiplərdən biridir. BMT nizamnaməsi qəbul edildikdən sonra əməkdaşlıq prinsipi bir sıra benəlxalq təşkilatların nizamnamələrində, beynəlxalq və ikitərəfli müqavilələrdə, qətnamələrdə və bəyannamələrdə əks olunmuşdur. BMT nizamnaməsinin 55 və 56-cı maddələri əməkdaşlığı mühüm prinsip kimi irəli sürür. Buna görə dövlətlər həm öz aralarında, həm də BMT ilə əməkdaşlıq etməlidirlər. Əlbəttə, əməkdaşlığın konkret formalarını dövlətlər özləri müəyyənləşdirirlər. O, dövlətlərin istəklərindən, inkişaf səviyyələrindən və imkanlarından asılıdır. Lakin bunlara baxmayaraq əməkdaşlığın bütün formaları beynəlxalq sülhə, təhlükəsizliyə və tərəqqiyə xidmət etməlidir.

Azərbaycan dövləti bir sıra beynəlxalq sənədlərə qoşulmaqla və ikitərəfli müqavilələri imzalamaqla dünya dövlətləri və beynəlxalq təşkilatlarla geniş əməkdaşlıq edir.

Azərbaycan Respublikası 1994-cü il aprelin 22-də Vyana şəhərində, iyunun 24-də isə Brüssel şəhərində və Cenevrə şəhərində beynəlxalq təşkilatlar yanında daimi nümayəndəlik təsis etmiş, bir sıra beynəlxalq və regional təşkilatlarla, dövlətlərlə çoxsahəli əməkdaşlığa dair sənədlər imzalamışdır və onları yerinə yetirir. Dövlətlərin əməkdaşlığı həmçin ölkə daxilində siyasi sabitliyə və

inkişafa kömək edir. Çünki indi dünyanın hətta hərbi və iqtisadi cəhətdən qüdrətli dövləti özünü sabitsizlikdən təkbaşına xilas edə bilməz. Ona görə də dövlətlərin əməkdaşlığı və səylərinin əlaqələndirilməsi zəruridir.

*BEYNƏLXALQ ÖHDƏLİKLƏRİN VİCDANLA YERİNƏ YETİRİLMƏSİ.* Bu prinsip dünya dövlətçiliyinin ilkin inkşaf mərhələlərində yaranmış, sonralar isə bir sıra ikitərəfli və çoxtərəfli sənədlərdə əks olunmuşdur. BMT nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndinə görə, təşkilatın üzvü olan bütün ölkələr götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməlidirlər. Sonralar bu prinsip 1970-ci ildə qəbul edilmiş «Beynəlxalq hüququn prinsipləri haqqında» bəyannamədə və ATƏT-in yekun sənədində möhkəmləndirildi. Müvafiq prinsip bərabərlik və könüllük əsasında bağlanmış beynəlxalq müqavilə və sazişlərə aiddir. Diplomatiya tarixinin təcrübəsi sübut edir ki, təzyiqlə imzalanmış hər hansı qeyri-bərabər müqavilə, dövlətlərin suverenliyini və BMT nizamnaməsini pozan sənəd, heç şübhəsiz, yerinə yetirilmir və kağız üzərində qalır.

Azərbaycan dövləti beynəlxalq normalara uyğun olaraq imzaladığı çoxtərəfli və ikitərəfli sənədlərin irəli gələn öhdəlikləri sözsüz yerinə yetirir, millətlər və dövlətlər arısanda mehriban münasibətlərin inkşafından ötrü onun tərəfindən heç bir maneə yoxdur.

*AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏTİNİN MAHİYYƏTİ* xalqımızın sülhsevər təbiəti və dünya birliyi tərəfindən qəbul edilmiş normalarla şərtlənmişdir. Onun formalaşmasına regionun özünəməxsusluğu, müxtəlif soy-kök və dinlərə mənsub xalqların burada yaşaması, Asiya və Avropanın qovuşacağında olması,yolların kəsişməsi, bir sıra dövlətlərin burada kəskin rəqabət və s.ciddi təsir göstərir.

Hərbi-siyasi sahədə Azərbaycan dövləti beynəlxalq və ikitərəfli məsələlərin silah gücü ilə həlli və ya həllinə cəhd edilməsini qeyri-məqbul hesab edir.

İqtisadi sahədə ölkəmiz dünyanın bütün dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığa, burada heç bir məhdudiyyətlərlə yol verilməməsinə, azad bazar iqtisadiyyatı yolu ilə inkşafa tərəfdardır. Dünyanın müxtəlif ölkələrinin iş adamları və şirkətləri Azərbaycana dəvət edilirlər. Xarici sərmayələrin qorunması barədə parlament



müvafiq qanun qəbul etmişdir və dövlət səviyyəsində təminat verilmişdir.

Elmi-texniki və mədəni əlaqələr sahəsində Azərbaycan dövləti demokratik, azad və sərbəst mübadilənin tərəfdarıdır. Sovet dövründə mövcud olmuş qapılı cəmiyyətdən və dəmir örtükdən imtina edilmişdir.Bütün mədəni əlaqələrin hər cür məhdudiyyətlərdən, yabançı ideoloji təsirlərdən azad olması, mənəvi sərvətlərin mübadiləsi, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın qurulması üçün addımlar atılmışdır. Bununla belə, açıq qapılar siyasəti dövlətin qüdrətinin bütün komponentlərinə (hərbi-siyasi, iqtisadi, mənəvi-psixoloji) xələl gətirməməli, ölkəni xarici dövlətlərin tapdağına, iqtisadi-siyasi təhlükəsizliyi üçün əngələ və xammal bazasına çevirməməlidir.

Humanitar sahədə Azərbaycan dövləti ATƏT prinsiplərinin həyata keçirilməsi, irqindən, cinsindən, dini və siyasi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqlarının qorunması öhdəliklərini bütün dünya qarşısında götürmüşdür.

Azərbaycan dövlətinin XARİCİ SİYASƏTİNİN MƏQSƏDLƏRİNƏ VƏ VƏZİFƏLƏRİNƏ aşağıdakılar daxildir:

O, ölkəmizin milli və dövlət mənafelərini qorumalıdır. Bu mənafelər dedikdə, hərbi təcavüzün qarşısının alınması, dövlətimizin suverenliyinin, müstəqilliyinin qeyd-şərtsiz təmin olunması, ölkəmizin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə inkişafı və milli rifah halının yüksəldilməsi üçün əlverişli beynəlxalq şəraitin yaradılmasına və Azərbaycanın dünya birliyinə möhkəm daxil olmasına yönəldilən səylər və s. nəzərdə tutulur. Xarici siyasətimiz ölkəmizin daxili siyasətinin və beynəlxalq fəaliyyətinin vəhdətini və daimi sıx qarşılıqlı əlaqəsini və bir-birlərinə yardımını diqqətdə saxlamalıdır; şəxsiyyətin və insan hüquqlarının qorunmasına yönəldilən beynəlxalq şəraiti təmin etməyə çalışmalıdır; dəyişən dünyada Azərbaycanın vəziyyətinə və mənafeyinə uyğun olaraq beynəlxalq fəaliyyətin yeniləşdirilməsini nəzərdə tutmalıdır; regionda sabitliyin qorunması üçün Azərbaycanın məsuliyyətinin artırılmasına, beynəlxalq münasibətlərin sabit inkşafına kömək etməyə, qanun, demokratiya və insan haqlarının aliliyinə yönəldilməlidir; ikitərəfli, regional və beynəlxalq məsələlərin həllində diplomatik-siyasi yola, danışıqlar metoduna üstünlük verilməlidir. Məlum olduğu kimi, danışıqların iki tərəfi vardır: zahiri - protokol tərəfi və daxili -

məzmun tərəfi. Protokol tərəfi ciddi gözlənilməklə yanaşı, danışıqların daxili tərəfinə diqqət verilməlidir. Danışıqlar naminə danışıqlar aparmaq lazım deyildir və o, uğur sayıla bilməz. Danışıqlar o vaxt ölkənin maraqlarına cavab verər ki, onların nəticəsində konkret strateji məqsədə nail olunsun. Qarşı tərəf hər hansı şəraitdə bizim necə addımlar atacağımızı əvvəlcədən bilməməlidir. Danışıqlarda mühafizəkar mövqelərə deyil, mənafelərə xüsusi fikir vermək lazımdır. Danışıqlarda kiçik, əhəmiyyətsiz şey yoxdur. Söhbətləri və danışıqları bir-birindən fərqləndirmək lazımdır. Söhbətlərdə tərəflər əməkdaşlıq haqqında razılığa gələ və növbəti addımları müəyyənləşdirə bilərlər. Danışıqlarda qarşılıqlı maraq doğuran problemlərin həlli qarşıya qoyulur.

Diplomatiya tarixinin təcrübəsi sübut edir ki, bir qayda olaraq, söhbətlərə və danışıqlara əvvəlcədən hazırlaşırlar. Hazırlıq mərhələsində iki qütbdən qaçmaq lazımdır. Bunlardan biri-danışıqlara tamamilə hazırlaşmamaq, məsələnin həllinə danışıqların gedişində improvizasiya ilə nail olmağa ümid bəsləməkdir. İkincisi-gələcək görüşlərin bütün mərhələlərin xırdalığına qədər, «nöqtə-vergülünə» qədər hazırlamaqdır. Hər iki qütb ziyanlıdır. Birinci halda təşəbbüs tamamilə qarşı tərəfə keçə bilər, müzakirə olunan məsələdə səlahiyyətsizliyi göstərər. İkinci halda isə, azca geri çəkilmək inamsızlıq yaradar. Deməli, daha məqsədəuyğun variant əsas, prinsipial momentləri müəyyənləşdirmək və onlara əməl etməkdir. Söhbətin əsas məqsədi informasiya mübadiləsi aparmaqdır. Danışıqlara hazırlaşmaq isə daha mürəkkəb və daha məsul prosesdir. Onun bir sıra mərhələləri vardır: qarşılıqlı maraqlar sahəsinin üzə çıxarılması; işgüzar münasibətlərin qurulması; təşkilati məsələlərin həl edilməsi(gündəlik, yer və danışıqların vaxtı); müzakirə edilən məsələlərə ümumi yanaşmanın və həllinin müxtəlif variantlarının axtarılması və s. hazırlıq işi, əsasən, iki ümumi istiqamətə bölünür: danışıqların məzmun hissəsini formalaşdırmaq və təşkilati işləri həll etmək. Bu iki istiqamətin fərqi tamamilə şərtidir. Qarşıdakı danışıqların xarakteri təşkilati işlərin görülməsinə təsir göstərir. Məsələn, danışıqların məzmundan asılı olaraq ekspertlərin cəlb edilməsi məsələsi həll edilir. Öz növbəsində, hazırlıq mərhələsinin pis təşkil edilməsi müzakirə olunan problemin həllinə mənfi təsir göstərə bilər.



Danışıqlara məzmüni cəhətdən hazırlaşmaq aşağıdakı məsələlərin əvvəlcədən həllini irəli sürür: problemin təhlili və şəraitin qiymətləndirilməsi; ümumi yanaşmanın, əsas məqsəd və vəzifələrin formalaşdırılması; danışıqlarda mövqenin, problemin həllinin mümkün variantlarının müəyyənləşdirilməsi və maraqların razılaşdırılması. Təkliflərin hazırlanması və şəraitin qiymətləndirilməsi bütün hazırlıq mərhələsinin əsas elementləridir. Bu mərhələdə həmçinin, qarşıdakı tərəflərin maraqları və mövqeləri də öyrənilməlidir. Qarşıdakı tərəfin maraqlarının öyrənilməsi və qəbul edilməsi danışıqlar prosesinin pozulmasına gətirib çıxara bilər. Danışıqlara təşkilati cəhətdən hazırlaşmaq aşağıdakı məsələlərin həllini irəli sürür: nümayəndə heyətinin formalaşdırılması; danışıqlara hazırlaşmanın metodu.

Azərbaycanın xarici siyasəti beynəlxalq hüququn normaları çərçivəsində öz təhlükəsizliyini, sərhədlərin toxunulmazlığını qorumaqdan ötrü qüvvə tətbiq etmək hüququnu özündə saxlamalıdır; bütün ölkələrlə çoxsahəli bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlərin inkşafını genişləndirilməlidir; dünya inkşafında baş verən bütün dəyişiklikləri nəzərə alaraq praqmatik və tarazlaşdırılmış siyasət yeritməyi təmin etməlidir; qonşu ölkələrlə üstün münasibətlərlə xüsusi yer verməlidir; çünki ölkəmizin daxilindəki dəyişikliklər və bütövlükdə beynəlxalq vəziyyətimiz bu ölkələrlə münasibətlərdən bu və ya başqa dərəcədə asılıdır. Eyni zamanda, həmin ölkələrdə baş verən hadisələr müvafiq olaraq bizə təsir göstərir. Burada strateji məqsəd sərhədlərimiz boyu mehriban qonşular zolağı yaratmaq, ətrafımızda düşmən rejimlərin meydana gəlməsinə yol verməmək, tarazlaşdırılmış siyasət yeritmək olmalıdır; siyasi vasitələrlə qlobal və regional səviyyədə təhlükəsizlik sisteminin yaradılmasına, hərbi təhlükənin olduğu şəraitdə minimum müdafiə prinsipi əldə olunmalıdır; ölkənin iqtisadi imkanlarına uyğun olaraq hərbi islahatların həyata keçirilməsinə yardım edilməlidir; Şərq vəQərb ölkələri ilə partnyorluq və müttəfiqlik məsələləri üçün ciddi addımlar atılmalıdır; partnyorlarımız, strateji və taktiki müttəfiqlərimiz müəyyənləşdirilməli, beynəlxalq fəaliyyət ciddi nəzərə alınmalıdır; Azərbaycanın Avropaya çıxmasının qarşısını kəsməkdən ötrü Rusiyanın bufer dövlətə çevirilməsinə imkan verilməməlidir; xarici dövlətlərin Azərbaycanı sıxışdırmalarını aradan qaldırmalıdır; dövlətimizin beynəlxalq və məhəlli siyasi,

iqtisadi,elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda səmərəli iştirakını təmin etməlidir. Azərbaycan dövləti daxildə iqtisadi amilin gücləndirilməsinə və daxildə iqtisadi islahatların genişləndirlməsinə xüsusi diqqət yetirməlidir; xarici iqtisadi siyasət Azərbaycanın beynəlxalq aləmdəki fəaliyyətinin tərkib hissəsi olmalıdır. Bu isə vahid xarici siyasət xətti çərçivəsində milli mənafelərin, beynəlxalq işlərdə dövlətin nüfuzunun qorunmasını və qüdrətinin artırılmasını nəzərdə tutmalıdır; böyük dövlətlərin Azərbaycanda mənafeləri demək olar ki, aydındır, lakin xarici ölkələrdə bizim mənafelərimiz dəqiqləşdirilməlidir; mənafelərlə prinsiplərin tarazlığı əldə olunmalıdır; Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi üçün siyasi, maliyyə, texniki və ekspert hazırlığını təmin etməlidir və s. Xarici dövlətlərdən iqtisadi və maliyyə cəhətdən asılı olan dövlət müstəqil xarici siyasət yeridə bilməz.

Xarici siyasətimiz yaxın və uzaq xarici ölkələrlə münasibətlərdə bir qütbdən digər qütbə keçməməli, mücərrəd mənəvi prinsipləri müdafiə etməməli, normal dövlət kimi öz milli mənafelərimizə xidmət etməlidir. Azərbaycan dövlətinin mənafeləri həm ümumbəşəri sərvətlərə, həm də beynəlxalq hüquq və mənəviyyat normalarına uyğun gəlməlidir. Xarici siyasətimiz nəzəriyyələrdən, utopik mülahizələrdən, inkşafa mane olan mühafizəkar təfəkkürdən azad olub mərkəzçi, praqmatik və normal siyasətə çevrilməlidir. Mərkəzçilik «bataqlıq» kimi deyil, əksinə, xarici siyasəti və beynəlxalq fəaliyyəti həyata keçirən diplomatiyanın çevikliyi, dəyişən dünya reallıqlarını nəzərə alması və çoxvariantlığı kimi qiymətləndirilməlidir. Praqmatizm məqsəd deyil, vasitə olmalıdır. Çünki dövlətin mənafeləri əbədi olmasa da, daimidir. Burada təccüblü bir şey yoxdur. Dövlətin mənafeyi bu və ya məsələlərdə dəyişsə də, coğrafi amillər dəyişməzdir və xalqın gələcək nəsilləri onunla üzləşirlər. Belə şəraitdə dövlətin mənafelərinin konkret halda necə qorunması ön plana çıxır. ABŞ siyasətçisi Q.Morqentau deyirdi: «Dövlətin xarici siyasəti başqa dövlətlərlə münasibətdə onun dövlət mənafelərinin əks olunmasıdır». Bu da qlobal təhlükəsizlik sisteminin yaradılması üçün çətinlik törədir.

Əlbəttə, xarici siyasət konsepsiyası populist şüarlara bir gündə və ya bir neçə ildə deyil, uzun illər boyu professionallar tərəfindən tarixi ənənələri, xalqın mentalitetini, qurduğu dövlətin



yaxın və uzaq məqsədlərini dəyişən beynəlxalq şəraitə uyğun olaraq nəzərə almaqla yaradılır.

Xarici siyasət konsepsiyası milli təhlükəsizlik konsepsiyası ilə sıx bağlıdır və ona xidmət edir. Lakin xarici siyasət kimi milli təhlükəsizlik konsepsiyasının da olmaması haqqında söz-söhbətlər kəsilmək bilmir. Bu da əsasən iki amillə şərtlənmişdir. Əvvəla,xeyli mürəkkəb və çətin olan belə bir sənədin hazırlanması üçün uzun illər lazımdır. Hətta zəngin dövlətçilik ənənələri olan bir çox dövlətlərdə o yoxdur. Müstəqil gənc dövlətin qarşılaşdığı çətinliklər, daxili və xarici siyasətdə mövcud olan çoxlu mürəkkəb problemlər onun yaradılmasına mane olur. İkincisi, cəmiyyətin müəyyən təbəqəsinin baxışları hələ də «böyük, nəhəng» SSRİ-nin hərbi qüdrətinə və zorakılığına əsaslanan təhlükəsizliyinin təsiri altındadır. Müəyyən şəxslər və qruplar mövcud şəraitdə imkanlara, minimum olana deyil, indiki şəraitdə nail olunması çətin olan idealist maksimalistliyə çalışırlar.

Milli təhlükəsizlik konsepsiyasının formalaşmasının bir sıra çətinlikləri vardır. Əvvəla, «təhlükəsizlik» məfhumu indi xeyli genişlənmişdir. Müstəqil Azərbaycan dövləti dünya üçün açıq cəmiyyət olmuşdur. Geniş beynəlxalq əlaqələrə cəlb edilmişdir. Bu əlaqələr ölkə daxilində islahatlar aparılması ilə paralel qurulur. Lakin xarici siyasəti həyata keçirməkdən ötrü lazım olan ehtiyatlar - iqtisadi, maliyyə, informasiya-təbliğat, təşkilati ehtiyatlar kifayət qədər deyildir. Digər tərəfdən,ölkə daxilində müxtəlif ölkələrdən olan missioner təşkilatların fəaliyyəti, islam dinini parçalamaq cəhdləri narahatlıq doğurur. Beynəlxalq münasibətlər tarixindən məlumdur ki, düşmən və ya bədxah dövlətlər istəmədikləri, onlara əngəl ola biləcək dövlətləri zəiflətməkdən, parçalamaqdan ötrü müxtəlif vasitələrdən, o cümlədən missionerlik fəaliyyətindən istifadə etmişlər. Missionerlər məqsədlərinə çatmaq üçün müvafiq ölkənin aztəminatlı və yaşayış səviyyəsi aşağı olan təbəqəsindən istifadə etmişlər. Dini azadlıq haqqında Azərbaycan Respublikası qanununda dini təbliğatın, missionerliyin qadağan edilməsi müsbət haldır. Amma görünür, bu iş daha da ciddiləşdirilməlidir.

İkincisi,Azərbaycan dövlətinin milli təhlükəsizliyi üçün qorxunu indiki şəraitdə əsasən, hərbi təhlükə törətdiyindən (Ermənistanın təcavüzkarlığı) ona son qoymağın, vətəndaşları fiziki

cəhətdən mühafizə etməyin konkret yolları dəqiq müəyyənləşdirilməlidir.

Üçüncüsü, dövlətin iqtisadi təhlükəsizliyinin əsas amilləri dəqiqləşdirilməlidir. Bir sıra xarici şirkətlərin ölkəmizdəki fəaliyyəti dövlətimizin iqtisadi təhlükəsizliyinə xələl gətirməməli, qarşılıqlı faydalı əməkdaşlığa xidmət etməlidir. İqtisadi əməkdaşlığın optimal nisbəti müəyyənləşdirilməlidir.

Dördüncüsü, yaxın qonşu və uzaq ölkələrdə yaşayan azərbaycanlı diasporu ilə məqsədyönlü ciddi işin qurulması milli təhlükəsizliyə kömək edirdi. Lakin təəssüf olsun ki, bu işdə sistem və məqsədyönlük yoxdur; hər şey dumanlıdır; müvafiq təşkilatlar az qala nə işlə məşğul olacaqlarını bilmirlər. Xaricdə yaşayan vətəndaşlarımızın və soydaşlarımızın hüquqlaranın qorunmasına diqqət artırılmalıdır.

Beşinci, milli təhlükəsizliyimizin başqa bir tərəfi də vardır. Bu, xarici ölkələrdə mədəni və informasiya sahəsi yaratmaqdır. Məlum olduğu kimi, hər hansı xalq haqqında stereotiplər alınan informasiyalar əsasında formalaşır. İnformasiya az olduqda və ya faktların yerinə yalan tutduqda stereotiplər mənfi olur. İnsanlar malik olduqları informasiya əsasında nəticə çıxarırlar. Belə metodlar müharibə dövründə döyüşən ölkələrin hökumətlərinin bir-birlərinin xalqlarının imicinin formalaşması və nifrət üçün tətbiq edilir. Deməli, Azərbaycan dövləti üçün xarici ölkələrdə informasiya sahəsi yaratmaq xeyli zəruridir. Əgər onu biz yaratmasaq, başqaları yaradacaqlar. Həm də onların yaratdıqları informasiya xalqımızın düzgün imicinin formalaşmasına və mənafelərimizə zidd olacaqdır. Ona görə də xarici ölkələrlə elmi, mədəni, bütövlükdə humanitar əlaqələr sürətlə qurulmalı və genişləndirilməlidir. Bu da bizim milli təhlükəsizlik problemimizdir.

Xarici siyasət fəaliyyətini Azərbaycan diplomasiyası müxtəlif formalarla həyata keçirir. Diplomatik fəaliyyətin - yazışmalar, məktublar, notalar, memorandumlar, bəyanatlar, beynəlxalq və məhəlli təşkilatların işində iştirak etmək, beynəlxalq konqres, konfrans və müşavirələrdə iştirak etmək, dövlət və hökumət nümayəndə heyətlərinin səfərləri, görüşləri, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilə və sazişlərin hazırlanması və imzalanması, xarici ölkələrdə olan Azərbaycanın diplomatik nümayəndəliklərinin apardıqları iş, dövlət başçılarının



görüşləri,telefon danışıqları, xarici siyasətin bu və ya digər məsələlərinə dair dövlətin mövqeyinin mətbuatda işıqlandırılması, məsləhətləşmələr, rəsmi informasiyalar, beynəlxalq müqavilə və sənədlərin nəşr olunması və s. formalarından istifadə edilir. Əlbəttə, bu formalar beynəlxalq şəraitə uyğun olaraq dəyişilə bilər.

Məlum olduğu kimi, diplomatiya və siyasət tarix boyu heç də mənəviyyat normalarına tam uyğun gəlməmişdir. Diplomatiya və siyasət mənafelər uğrunda mübarizə olub, konkret şəraitdə minimum olanı əldə etmək və mümkünlük sənətidir. Şəraitə rəhbərlik etmək öz istəyini qəbul etdirməkdir, mümkün olmayanı mümkün etməkdir. İstədiyini əldə etmək mümkün olmadıqda, öz tərəfinə çəkə bilmədikdə, heç olmasa, bitərəfləşdirmək sənətidir. Siyasətdə hissiyyat, kin və intiqam yoxdur, daimi mənafelər vardır. Siyasətdə romantizm həmişə qütblüdür. Romantizmdə isə mərkəzçilik yoxdur, o ya solu, ya da sağı tutur.

Hər hansı dövlətin xarici siyasəti onun daxili siyasətinin davamıdır. Onun həyata keçirilməsi dövlətin imkanlarından asılıdır. Xarici siyasəti həyata keçirən diplomatiyanın gücü də bütövlükdə dövlətin qüdrətindən asılıdır. Dövlətin qüdrəti dedikdə, onun hərbi, siyasi, iqtisadi, xalqın mənəvi-psixoloji gücü başa düşülür. Diplomatiya tarixi sübut edir ki, iqtisadi qüdrət hərbi-siyasi gücə, mənəvi-psixoloji yüksəlişə səbəb olur və bir sıra beynəlxalq problemlərin həllinə kömək edir. Bu amillərdən biri mövcud olmadıqda istər-istəməz dövlətin ümumi qüdrətinə xələl gəlir. Dövlətin daxili vəziyyəti necədirsə, onun xarici siyasəti də elədir. Lakin xarici siyasətin müəyyən muxtarlığı da vardır. Onun uğurla həyata keçirilməsi bir sıra daxili problemləri həll edə bilər. Xüsusilə daxildə siyasi sabitliyin, iqtisadi yüksəlişin əldə edilməsində uğurlu xarici siyasətin müstəsna əhəmiyyəti vardır. Deməli, dövlətin xarici siyasəti arzu və istəkləri deyil, mövcud şəraitdəki imkanlara və reallıqlara əsaslanmalıdır. Hətta böyük potensiala malik olan dövlət onu imkana və istifadəyə çevirmədikdə istəklərinə çata və ya onlara reallaşdırmaq üçün kəskin rəqabətə tab gətirə bilməz.

Diplomatiyanın səmərəliliyi başqa dövlətlərin və ya dövlətlər qrupunun xoşuna gəlib-gəlməməsi ilə deyil, öz ölkəsinin və xalqının mənafeyinə necə xidmət etməsi ilə ölçülür.

ABŞ professoru, siyasi realizm məktəbinin banisi Q.Morqentau hələ 70-ci illərdə yazırdı ki, diplomatiya elm kimi dörd elementdən ibarətdir:

1. Diplomatiya öz potensialında və ixtiyarında olan qüvvələri nəzərə almaqla məqsədlərini dəqiq müəyyənləşdirilməlidir;
2. Diplomatiya başqa dövlətlərin əsas məqsədlərini, həmin dövlətlərin bu məqsədləri həyata keçirmək üçün ixtiyarında olan mövcud və potensial imkanlarını qiymətləndirməlidir;
3. Diplomatiya bu müxtəlif məqsədlərin hansı dərəcədə biri-birinə uyğun gəlib-gəlməməsini müəyyənləşdirilməlidir;
4. Diplomatiya bu məqsədləri həyata keçirməkdən ötrü müxtəlif vasitələrdən istifadə etməlidir.

Diplomatiyanın sərəncamında üç əsas vasitə vardır: inandırma, kompromis və güc ilə qorxutmaq. Diplomatiya sənəti bu üç vasitədən irəli gələn kokret anların hər birinə düzgün diqqət verməlidir. İnandırma lazım gəldikdə güc ilə qorxutmaqdan, kompromis lazım gəldikdə gücdən istifadə edən, güc lazım gəldikdə kompromis axtaran və ya inandıran, mövcud şəraiti düzgün qiymətləndirməyən diplomatiya məğlubiyyətə məhkumdur. Həmçinin, heç bir diplomatiya eyni zamanda yalnız güc, inandırma və ya kompromis üzərində fəaliyyət göstərə bilməz. Bunlara əməl etməyən diplomatiya məğlubiyyətə məhkumdur. Dövlətimizin xarici siyasəti dini təəssübkeşlikdən və təsirlərdən uzaqdır. Dövlətləri dini əlamətlərə görə qruplara bölmək və onlara yanaşmaq təhlükəlidir.

«İslam fundamentalizmi» nin yaranması köklərini müsəlmanların mövcudluğu, onların sivil normalarının guya olmaması, istənilən prosesdə iqtisadi və siyasi maraqlarının olması ilə əlaqələndirməyin heç bir əsası yoxdur. Müsəlman olan yerdə «islam fundamentalizmi» axtarmaq, onu qloballaşdırmaq az qala Rusiyanın bəzi siyasətçiləri və siyasətşunasları üçün adətə, gündəlik həyat tərzinə çevrilmişdir. İslam təkcə Şərqin deyil, bütün dünyanın dinidir. İslamla islam fundamentalizmini qarışdırmaq olmaz.

İslam sülh, dinclik və əmin-amanlıq dinidir. İslama görə, cəmiyyət üçün sülhün heç bir əvəzi yoxdur. İslamın qayəsi hamı üçün sülh və dinclik təmin etməkdir. O, zorakılığı rədd edir.



Beynəlxalq münasibətlər sisteminin həyatiliyi onda bütün tərəflərin mənafelərini nəzərə alınması ilə ölçülür. Dövlətmizin həm ümumi, həm də xüsusi milli maraqlarını beynəlxalq birliyə qarşı çıxmaqla deyil, onun imkanlarından istifadə etməklə və əməkdaşlıqla qorumaq olar. Azərbaycanın spesifikliyinə, əlverişli coğrafi-siyasi mövqedə yerləşməsinə, zəngin təbii sərvətlərinə və intellektual potensialına və imkanlarına baxmayaraq, o, öz mənafelərini dini mənsubiyyətdən asılı olmayaraq, dünya birliyinin bütün digər üzvləri ilə əməkdaşlıqda qoruya bilər. Xarici siyasətdə dini deyil, praqmatik siyasi təfəkkürün üstünlüyü heç kəsdə şübhə doğura bilməz.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyət etnik təəssübkeşlikdən uzaqdır. Məlum olduğu kimi, beynəlxalq normalara görə, hər hansı dövlətin xarici siyasət fəaliyyəti etnik amillər üzərində deyil, tərəflərin mənafelərinin tarazlığı əsasında qurulmalıdır.

Münasibətlərin indisi və gələcəyi bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıqdadır.

## *Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətləri*

### *MDB iştirakçısı olan dövlətlərlə münasibətlər*

Azərbaycan dövlətinin xarici siyasəti beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında bir neçə istiqamətdə həyata keçirilir. Ölkəmizin xarici siyasətində MDB iştirakçısı olan dövlətlərlə münasibətlər, ABŞ, Avropa, Asiya və Afrika dövlətləri ilə əlaqələr, beynəlxalq və məhəlli təşkilatlarla münasibətlər əsas istiqamətlərdən hesab oluna bilər.

Dövlətimizin sülhsevər xarici siyasət fəaliyyətinin istiqamətlərindən biri coğrafi planda başlıca prioritet təşkil edən MDB iştirakçısı olan dövlətlərlə münasibətləridir. Keçmiş sovet məkanında paralel gedən milli dövlətçilik və inteqrasiya proseslərindən doğan bir sıra obyektiv və subyektiv amillər bu istiqamətin mahiyyətini, məqsəd və vəzifələrini, perspektivlərini müəyyənlişdirməyə və proqnozlaşdırmağa imkan verir. Ölkəmizin

xarici siyasətində bu dövlətlərin tutduqları yeri və rolu şərtləndirən amillər əsasən aşağıdakılardan ibarətdir.

Əvvəla, Azərbaycan və MDB-nin iştirakçısı olan bir sıra dövlətlər təxminən iki əsrə yaxın əvvəlcə Rusiya imperiyasının, sonra isə SSRİ-nin tərkibində vahid siyasi-iqtisadi-ideoloji sistemdə olmuşlar. Bu dövlətlər arasındakı əsl beynəlxalq münasibətlərin qurulması əslində sıfırdan deyil, mənfidən başlamışdır.Çünki, belə münasibətlər heç vaxt olmamışdır.

Onları tarixən birləşdirən coğrafi-siyasi, elmi-texniki, mədəni, şumanitar əlaqələr indi müstəqil dövlətlər kimi həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərinə təsir edir. Müstəqil dövlətlərin öz aralarında ikitərəfli əməkdaşlığa dair çoxlu sənədlər imzalamaları əməkdaşlığa və inteqrasiya proseslərinə şərait yaradır.

İkincisi, eyni təsərrüfat sistemində mövcud olmuş, iqtisadi inkişaf səviyyələri təxminən eyni olan bu ölkələrdə müstəqillik əldə etdikdən sonrə qırılan təsərrüfat əlaqələri həyatın bütün sahələrində durğunluq yaratmışdır. Bazarlara çıxmaq qabiliyyətinin olmaması və istehsal sahələrinin dayanması bu dövlətlərin demək olar ki, hamısını eyni vəziyyətə salmışdır. Təsərrüfat əlaqələrini bərpa etmək və müəyyən irəliləyişə nail olmaq istəyi dövlətlərarası münasibətlərə myvafiq təsir göstərir.

Üçüncüsü, müstəqil dövlətlərin siyasi, iqtisadi sistemlərində və idarəçiliklərindəki oxşarlıq, aralarında viza rejiminin olmaması qarşılıqlı münasibətlərə müsbət təsir göstərir.

Dördüncüsü, əvvəllər bir ölkədə yaşamış, indi isə ayrı-ayrı dövlətlərin vətəndaşları olan müxtəlif millətlərin nümayəndələri əz qala MDB-nin üzvü olan bütün ölkələrə səpələnmişlər. Misal üçün, MDB iştirakçısı olan dövlətlərdə təxminən 2 milyon azərbaycanlı yaşayır. Bu amil dövlətlərarası münasibətlərdə öz müvafiq izini qoyur.

Bu amillər Azərbaycanın MDB iştirakçısı olan dövlətlərlə ikitərəfli əlaqələrinə və inteqrasiya proseslərinə müsbət təsir göstərir. Lakin elə amillər vardır ki, onlar ön plana milli dövlətçilik məsələlərini çıxarır. Həmin amillər aşağıdakılardan ibarətdir:

Əvvəla, böhranlı, problemli və çətin inteqrasiya kimi MDB-yə birmənalı münasibət mövcud deyildir. Onun həm tərəfdarları, həm əleyhdarları, həm də ondan istifadə edib öz istəklərinə çatmaq istəyən qruplar vardır. Bir qrup belə hesab edir ki, MDB-dən



istifadə edərək inteqrasiya prosesləri adı altında milli dövlətlərin fövqündə duran qurumlar yaratmaq və müəyyən formalarla keçmişə qayıtmaq lazımdır. Onlar bildirirlər ki, keçmiş sovet respublikaları müstəqil yaşaya bilməzlər, onlara "ağa" lazımdır. İkinci qrupa görə, MDB iştirakçısı olan dövlətləri imkan daxilində federativ əsasdan qurmağa çalışmaq, separatçı qüvvələrə yardım etmək lazımdır ki, gələcəkdə onların köməyi ilə nəinki SSRİ-ni, hətta Rusiya imperiyasını bərpa etmək mümkün olsun. Onlar hesab edirlər ki, MDB guya regional, ya da beynəlxalq təşkilatdır Məhz bu statusa can atmaqla onlar əski sovet məkanında maraqlarını qorumağa çalışırlar. Lakin beynəlxalq və regional təşkilatların hüquqi statusunun öyrənilməsi göstərir ki, MDB regional və ya beynəlxalq təşkilat deyildir, iştirakçı dövlətlərin əməkdaşlıq formasıdır. Onu hər hansı siyasi, iqtisadi, hərbi və b. quruma çevirmək mövcud şəraitdə uğursuzluğa məhkumdur.

Üçüncü qrup isə, müasir dünyada gedən milli dövlətçilik və inteqrasiya proseslərini obyektiv dərk edərək MDB-yə müvafiq ölkələrin inteqrasiyası kimi baxırlar. Belə təzadlı mövqe həmçinin ölkəmizin də MDB iştirakçısı olan dövlətlərlə münasibətlərinə təsir göstərir.

İkincisi, azadlığa çıxmış xalqların, o cümlədən Azərbaycan xalqının müstəqil dövlət qurmaq üçün ciddi istəyi vardır. Onlar milli dövlətlərin fövqündə duran qurumların yaradılmasına, yenidən kiminsə hakimiyyəti altına düşmələrinə, sərvətlərini başqaları ilə bölüşdürmələrinə və ya pay vermələrinə razı deyildirlər.

Üçüncüsü, Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri, böyük intellektual səviyyəsi xarici dövlətlərlə birbaşa bərabərhüquqlu əlaqələri qurmağı və inkişaf etdirməyi şərtləndirir.

Dördüncüsü, ölkəmizin gələcəyi olan gənc nəsildə müstəqillik ideallarının güclü olması və xalqımızın mentaliteti yalnız bərabərhüquqlu əməkdaşlığı irəli sürür.

Beşincisi, əvvəllər bir dövlətin tərkibində olmuş Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığı və ona Rusiyanın açıq-aşkar hərbi-siyasi-iqtisadi və mənəvi yardımı çoxlu suallar doğurur. Keçmiş sovet məkanında törədilmiş müxtəlif xarakterli münaqişələr əməkdaşlığa mənfi təsir göstərir.

Altıncısı, mövcud beynəlxalq şərait həm birinci, həm də ikinci dünya müharibəsindən sonrakı vəziyyətdən kəskin şəkildə

fərqlənir. Artıq dünyanın qabaqcıl ölkələri gənc müstəqil dövlətləri tanımışlar, onlara hərtərəfli əməkdaşlıq edirlər.yenidən Rusiyanın təsiri altına düşmələrinə razı deyildirlər.

MDB-nin gələcəyi onda iştirak edən dövlətlərin beynəlxaq normalara uyğun bərabərhüquqlu əməkdaşlığından asılıdır. Əks təqdirdə MDB dağılacaq və müstəqil dövlətlərin süverenliklərinin daha da möhkəmləndirilməsinə bir keçid olacaqdır.

Azərbaycan dövlətinin xarici siyasətində MLB iştirakçısı olan ölkələrlə münasibətlərinin məqsədi-dövlət müstəqilliyimizi möhkəmləndirmək, təhlükəsizlmyimiz üçün ən ucuz başa gələn vasitə kimi mehriban qonşular zolağı yaratmaq, dövlət quruculuğu və islahatların açılması üçün əlverişli beynəlxalq şəraiti təmin etmək, bərabərhüquqlu, qarşılıqlı faydalı iqtisadi, siyasi, elmi-texniki və mədəni əlaqələr qurmaqdır.

Dövlətimizin MDB iştirakçısı olan ölkələrlə münasibətlərinin əsasını dünya birliyi tərəfindən qəbul edilmiş beynəlxalq normalardan doğan prinsiplər təşkil edir. Azərbaycan məhz bu prinsiplərlə həmin ölkələrlə münasibətlərini tənzimləməyə çalışır.

Azərbaycan dövləti MDB iştirakçısı olan ölkələrlə münasibətlərini diplomatik fəaliyyətin müxtəlif formaları ilə - yazışmalar, qarşılıqlı səfərlər, siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və b. sahələrə aid sənədlərin imzalanması, müzakirələr, konfranslar, məsləhətləşmələr və s. saxlayır.

MDB iştirakçısı olan ölkələrlə Azərbaycanın münasibətlərinin böyük əhəmiyyəti vardır. Bərabərhüquqlu münasibətlər qarşılıqlı fayda verərdi, MDB-ni bir əməkdaşlıq forması kimi möhkəmləndirərdi, qırılmış çoxsahəli əlaqələr qaydaya düşərdi, xalqlar arasında mehriban münasibətlər bərpa olunardı.

MDB iştirakçısı olan dövlətlərlə normal münasibətlərin qurulmasında Azərbaycan tərəfdən heç bir əngəl yoxdur.

Əlbəttə, MDB sadəcə əməkdaşlıq forması deyildir. Onda müxtəlif dövlətlər əməkdaşlıq edirlər.Dövlətlər arasındakı ikitərəfli əlaqələr bütövlükdə çoxtərəfli əlaqələrə təsir edir. Bu baxımdan dövlətimizin xarici siyasətində Rusiya ilə münasibətlər ciddi təhlil tələb edir. Rusiya 1992-ci il aprelin 4-də Azərbaycanda diplomatik münasibətlərin qurulması barədə protokol imzaladı.Böyük nüvə dövləti və şimal qonşumuz kimi Rusiya ilə münasibətlər bir sıra



amillərlə şərtlənmiş və özünəməxsusluqlar yaratmışdır. Həmin özünəməxsusluqlar aşağıdakılardan ibarətdir :

Əvvəla, bu və ya digər formada Rusiyada baş verən proseslər keçmiş sovet məkanında təsirsiz qalmır. Ölkələrimizin münasibətləri təzadlı, mürəkkəb və ziddiyyətli tarixi inkişaf yolu keçmişdir. Rusiya-İran münasibətləri nəticəsində zorla bölüşdürülərək Şimali Azərbaycanın çarizmin müstəmləkə zülmü altına düşməsi, onun Qafqaz xalqları arasında nifaq salaraq bu regionda möhkəmlənməsi, Azərbaycan xalqına inanmaması, 1918-1920-ci illərdə Azərbaycanın müstəqilliyini qəbul etməməsi və istiqlalımıza son qoyması, imperiyanın başqa forması olan SSRİ-nin tərkibinə zorla qatması, hətta vahid sovet dövləti daxilində torpaqlarımızı hissə-hissə kəsərək qonşulara paylaması, SSRİ dağıldıqdan sonra müəyyən dairələrin müstəqilliyimizi qısqanması, onu zəiflətmək və özündən asılı salmaq üçün Qafqazda müstəmləkə siyasətini yeritməkdə vasitə olan Ermənistanın təcavüzkarlığına açıq-aşkar yardım göstərməsi, terrorizmi və separatçılığı dəstəkləməsi, ölkəmizi zəiflətmək və Qərb ölkələrini Qafqaza buraxmamaq məqsədilə şimal dəmir yolunu bağlaması dövlətlərarası münasibətlərin necə inkişaf yolu keçdiyini göstərir.

İkincisi, bu təzadlı və mürəkkəb inkişaf yoluna baxmayaraq, Azərbaycan təxminən iki yüz il Rusiya imperiyasının tərkibində olmuşdur. Onları bəzi tarixi coğrafi-siyasi tellər, müxtəlif əlaqələr birləşdirir. Ona görə də Azərbaycan dövləti xarici siyasət fəaliyyətində Rusiyaya myhym yer verir.

Üçüncüsü, artıq şimal qonşumuzda qismən də olsa reallıq hissi üstün gəlmiş və ölkəmizin bəzi təkliflərinə müsbət cavab verilmiş, dövlətlərarası münasibətlərin müxtəlif sahələrinə dair sənədlər imzalanmış və yumşalma baş vermişdir.Lakin Azərbaycan-Rusiya münasibətlərinin səviyyəsi dövlətlərimizin imkanlarından aşağıdır, onlara yeni keyfiyyət halı verilməsi vacibdir. Azərbaycan tərəfindən münasibətlərin inkişaf etdirilməsi üçün heç bir maneə yoxdur. Sadəcə müqabil tərəf reallıqları qəbul etməli, tarixdən kül yox, od götürməlidir.

Dördüncüsü, Azərbaycan, o cümlədən Qafqaz regionu böyük imperiyaların varisləri olan İran, Rusiya, Türkiyə və digər dövlətlər arasında nüfuz dairələri uğrunda mübarizə meydanıdır. Rusiya, İran vəTürkiyənin regiona dair konsepsiyaları müxtəlif meyarlara

əsaslanır. Onların hər üçündə tarixi ənənələr və iqtisadi imkanlar mühüm yer tutur. Tarixi şəraitdən asılı olaraq bu konsepsiyalarda müxtəlif dəyişikliklər əmələ gəlir. Əgər Türkiyənin regiona dair konsepsiyasında üstünlüyü mədəni qohumluq kimi türk birliyi və münaqişələrə yol verməmək təşkil edirsə, İran Şimal-Qərbi Asiya regionunda və Qafqazda hakim olmaq istəyir. Rusiya isə bu regionda özünün spesifik maraqlarını əsas götürərək hər iki dövləti buradan vurub çıxarmaq istəyir. Zaman göstərir ki, bu üç dövlətin regiona dair konsepsiyaları başlıca məsələlərdə üst-üstə düşmür. Regionda sabitlik və əməkdaşlıq (o cümlədən, Dağlıq Qarabağ məsələsinin həlli) bu dövlətlər arasında münasibətlərin necə olmasından çox asılıdır. Rusiya bu regiona öz həyati mənafeləri zonası kimi baxdığından onu əlindən buraxmaq istəmir. 1917-1920-ci illərdə Rusiya Güney Qafqazdan birinci dəfə vurulub çıxarılmışdı. Bunun acı nəticəsini görən Rusiya 1920-1921-ci illərdə zor gücünə regionu özünə qaytardı. Sonra isə dövlət quruculuğunda və idarəçilikdə unitarizmə üstünlük verildi. Gələcəkdə özündən asılılığı gücləndirməkdən ötrü iqtisadi-təsərrüfat əlaqələrini başqa regionlarla sıx yaxınlaşdırdı və kiçik etnik qruplara xüsusi diqqət verdi. Nəticədə SSRİ-nin hələ mövcud olduğu, lakin zəiflədiyi dövrdə məhz bu regionda münaqişələr baş verdi. Regionda nüfuz qazanmaq uğrundakı mübarizədə bu ölkələrin bir-birilərinə çoxlu iddiaları və şübhələri vardır. Qərb ölkələri Qafqazda Rusiyanın öz rolunu artırmaq cəhdlərinə mənfi müsbət bəsləyirlər. Rusiyanın hakim dairələrində isə "ümumbəşəri meyarlar" termini sıradan çıxır və hər yerdə tez-tez "Rusiyanın milli mənafeləri" fikri səslənir.

Bununla belə ikitərəfli münasibətlərin qurulması üçün bir neçə qarşılıqlı addımlar atıldı.

1992-ci il oktyabrın 17-19-da Rusiya Federasiyası və Azərbaycan Respublikasının parlament üzvlərinin «Dəyirmi stol»u keçirildi. «Dəyirmi stol»da aşağıdakı məsələlər müzakirə edildi: Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanda və Rusiyada milli azlıqlar məsələsi, Dağlıq Qarabağ münaqişəsində Rusiyada milli azlıqlar məsələsi, Dağlıq Qarabağ münaqişəsində Rusiya hərbi qüvvələrinin mövqeyi, Azərbaycan-Dağıstan münasibətləri və s.



Hər iki tərəfdən deputaların və ekspertlərin təmsil olunduğu bu dəyəirmi stol bütövlükdə faydalı oldu və sonrakı parlamentlərarası əlaqələr üçün müəyyən zamin yaratdı.

1992-ci il noyabrın 13-15-də Rusiya Federasiyası Ali Sovetinin Millətlər Palatasının sədri R.Abdullatipov başda olmaqla Rusiya parlament nümayəndə heyəti Bakıda oldu. Görüşün nəticəsində iki respublikanın parlamentləri arasında əməkdaşlıq haqqında protokol imzalandı. Rusiya parlamentinin nümayəndələri ilə növbəti görüş 1993-cü il martın 20-də Bakıda keçirildi. R.Xasbulatovun başçılıq etdiyi Rusiya parlamentinin nümayəndə heyəti Azərbaycan Respublikası parlamentində qəbul edildi. Görüş zamanı Azərbaycan-Rusiya münasibətlərinin aktual məsələləri müzakirə edildi və yekun sənədi kimi hazırlanmış birgə bəyannamə parlament başçıları tərəfindən imzalandı.

1992-ci il oktyabın 12-də Azərbaycan Respublikası prezidentinin Moskvaya səfəri zamanı Azərbaycanla Rusiya arasında qarşılıqlı təhlükəsizlik haqqında müqavilənin imzalanması iki ölkənin münasibətlərində uğur hesab edilə bilər. Müqavilə 26 maddədən ibarətdir. *Birinci maddə* razılığa gələn ali tərəflər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsini, bir-birinin dövlət suverenliyinə və müstəqilliyinə hörmət etməyi, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamağı, ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, zor işlətməkdən imtina etməyi, mübahisəli məsələləri dinc vasitələrlə aradan qaldırmağı, insan hüquqlarına hörmət etməyi nəzərdə tuturdu. *İkinci maddə* qlobal və regional miqyasda sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsinə, kollektiv təhlükəsizlik sistemlərinin yaradılmasına həsr edilmişdir. Burada eyni zamanda göstərilirdi ki, tərəflər qarşılıqlı maraq doğuran problemlər ətrafında müntəzəm məsləhətləşmələr keçiricəklər. *Üçüncü maddədə* qeyd edilirdi ki, tərəflərin birinin fikrincə sülh üçün və ya onların təhlükəsizliyinə ciddi xələl gətirən şərait yarandığı təqdirdə tərəflərdən biri digərindən məsləhətləşmələr keçirilməsini xahiş edə bilər. Bu barədə onlar bir-birinə informasiya verməyi öhdələrinə götürürdülər. *Dördüncü maddədə* tərəflər razılığa gəlirdilər ki, hər biri öz ərazisində digərinin suverenliyinə və müstəqilliyinə yönəlmiş qrupların və ya təşkilatların yaradılmasına imkan verməyəcəklər və belə hərəkətlərin qarşısını qətiyyətlə alacaqlar. Həmçinin tərəflər dövlət sərhəddinin mühafizəsi sahəsində əməkdaşlıq etməyi də

razılaşdırırdılar. *Beşinci maddə* tərəflərin hər biri digərinə qarşı yönəldilən hərəkətlərdə və ya tədbirlərdə iştirak etməkdən imtina edirdi və öz ərazisindən digərinə qarşı zorakılıq hərəkətləri üçün istifadə olunmasına yol verməyəcəyini öhdələrinə götürürdülər. *Altıncı maddəyə* görə, tərəflərin hər-biri digər tərəfin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını və müdafiə qabiliyyətini qorumağa yönəldilən tədbirlər kompleksini müstəqil təyin etmək və ya həyata keçirmək hüququnu təsdiq edirdi və bu hüquqa hörmət edirdi.

*Yeddinci maddəyə* görə, tərəflər milli təhlükəsizliyin təmin edilməsi və müdafiə quruculuğu ilə bağlı məsələləri müstəqil həll edirdilər, eyni zamanda bu sahədə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirirdilər. *Səkkizinci maddə* vətəndaşların əmlak, şəxsi qeyri-əmlak hüquqları, istirahət, sağlamlığın mühafizəsi, sosial-təminat, mənzil, təhsil, mədəniyyət və s. hüquqlarını tənzim edirdi. *Doqquzuncu maddə* insan hüquqlarına və milli azlıqlara həsr olunmuşdu. Göstərilirdi ki, milli azlıqların hüquqlarına hörmət edilməsi sülhün, ədalətin, sabitliyin və demokratiyanın mühüm amildir. Burada milli azlıqlara qarşı ayrı seçkiliyin yolverilməzliyi, assimiliyasiyanın qeyri-mümkünlüyü, dini, mədəni və digər sahələrdə inkişafın zəruriliyi göstərilirdi. Maddədə milli azlıqlara qarşı zorakılıq hərəkətlərinin yolverilməzliyi qeyd olunurdu. *Onuncu maddə* ərazilərində yaşayan şəxslərin iradəsini sərbəst ifadə etməsi əsasında yaşadıqları dövlətin vətəndaşlığını saxlamaq və ya digər tərəfin vətəndaşlığı əldə etmək hüququ məsələlərini müəyyənləşdirirdi. *On birinci maddə* tərəflər arasında siyasət, iqtisadiyyat, mədəniyyət, səhiyyə, energetika, ekologiya, elm, texnika, ticarət sahələrində və başqa sahələrdə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa həsr edilmişdi. *On ikinci maddə* hər iki ölkənin vətəndaşlarının əmlakı və dövlət əmlakının tənzimlənməsi məsələlərini nəzərdə tuturdu. *On üçüncü maddədə* tərəflər arasında iqtisadiyyat, ticarət, elm və texnika sahəsindəki münasibətlərin inkişaf səviyyələri müəyyənləşdirilirdi. Bu prosesdə dövlət hakimiyyəti və idarəetmə orqanlarından tutmuş fərdi sahibkarlara qədər bütün səviyyələr iştirak etməli idilər. *On dördüncü maddə* dəmiryol, çay, dəniz, hava və avtomobil yolları daşımaları məsələlərinə həsr edilmişdi. *On beşinci maddədə* tərəflər neftin və təbii qazın emalı, istifadə edilməsi və ixracı sahəsində, eləcə də



seysmologiya kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın həcmini saxlamaq və inkişaf etdirmək təəhhüdlərini öz üzərlərinə götürürdülər. *On altıncı maddə* iki ölkənin elmi-tədqiqat mərkəzləri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsinə, *on yeddinci maddə* iqtisadi, mədəni, humanitar, etnik əlaqələrin, təhsil, turizm və informasiya sahəsində əməkdaşlığın dərinləşdirilməsinə həsr edilmişdi. *On səkkizinci maddə* tərəflər arasında energetika, nəqliyyat, informatika və rabitə, *on doqquzuncu maddə* isə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tuturdu. *İyirminci maddə* mütəşəkkil və beynəlxalq cinayətkarlığa, narkotik maddələrin qanunsuz dövriyyəsinə, terrorçuluğa və s. qarşı birgə mübarizə məsələlərinə həsr edilmişdi. *İyirmi birinci maddə* hər iki dövlətin parlamentləri və parlament üzvləri arasında əlaqələrin və əməkdaşlığın inkişafını nəzərdə tuturdu.

Müqavilənin digər maddələri prosedur məsələlərə həsr olunmuşdu. Beş il müddətinə bağlanılan müqavilə tərəflərin əməkdaşlığında yeni mərhələ hesab edilə bilərdi. Tərəflərdən biri altı ay qabaqcadan yazılı xəbərdarlıq etmək şərti ilə bu müqaviləni ləğv etmək arzusunda olduğunu bildirmədikdə, bu müqavilənin müddəti növbəti beş ilə avtomatik uzadılmış sayılırdı. Lakin müqavilənin imzalanmasından xeyli keçməsinə baxmayaraq hər iki ölkənin parlamentində bu müqavilə müzakirədən keçirilmədi və təsdiq edilmədi.

Beləliklə, Azərbaycanla Rusiya arasındakı münasibətlər yenə də soyuq olaraq qalırdı.

1993-cü il iyunda Gəncə qiyamından sonra Rusiya ilə münasibətlərdə tədrici istiləşmə baş verdi. Avqust ayının 19-da Rusiya Federasiyası Xarici İşlər nazirinin müavini B.Kolokovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana gəldi. Nümayəndə heyətinə Rusiya XİN-in xüsusi tapşırıqlar üzrə səfiri, prezident B.Yeltsinin Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlardakı nümayəndəsi Vladimir Kazimirov və Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin bir qrup məsul işçisi daxil idilər.

Keçirilən danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsinin həlli və Azərbaycanın hərbi tribunalının kollegiyası tərəfindən ölüm cəzasına məhkum edilmişdi beş nəfər rusiyalı hərbi əsirin taleyi məsələləri və s. müzakirə edildi.

Moskvada olan respublika nümayəndə heyəti Azərbaycanla Rusiya arasında dövlətlərarası sazişlərin, banklararası əməliyyatların nizama salınması məsələlərini müzakirə etdilər.

Azərbaycanla Rusiya arasındakı münasibətlərdə yaxşılığa doğu dönüşün başlanğıcı 1993-cü il sentyabrın 5-8-dək H.Əliyevin Moskvaya səfəri ilə əmələ gəlməli idi. Səfər zamanı o, Rusiya Federasiyası prezidenti B.Yeltsinlə, Ali Sovetin sədri R.Xasbulatovla, Baş nazir V.Çernomırdınla, müdafiə naziri P.Qraçovla, xarici işlər naziri A.Kozırevlə görüşdü. Səfərin gedişində tərəflər bildirdilər ki, iki ölkə arasındakı münasibətlərin soyuqluğu Azərbaycanın və Rusiyanın milli mənafelərinə cavab vermir. Ona görə də buraxılmış səhvlər düzəldilməli, iki ölkə arasındakı münasibətlərdə ciddi dəyişikliklər edilməlidir.

1993-cü ilin oktyabrın əvvələrində Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini A.Adamişin Azərbaycana səfər etdi. O, ölkə prezidenti, dövlət katibi və xarici işlər naziri ilə görüşdü, ikitərəfli münasibətlər və regionda sülh və təhlükəsizlik məsələləri müzakirə edildi.

Lakin Rusiya-Azərbaycan münasibətləri yenə də Moskvanın təqsiri ucbatından soyuq qalırdı. Azərbaycanın hər iki tərəfin mənafeyinə cavab verən təkliflərini qəbul etməyən Moskva hər şeyə öz mənafeyi prizmasından baxırdı.

Rusiya Federasiyası Federasiya Şurasının sədri V.Şumeykonun dəvəti ilə Azərbaycan parlamentinin sədri R.Quliyevin 1994-cü il aprelin 25-29-da Moskvaya səfəri son illərdə parlament nümayəndə heyətinin yüksək səviyyədə həmin ölkəyə ilk səfər idi. Bu səfərin böyük əhəmiyyəti var idi. Milli Məclisin komissiyası sədrlərinin, ayrı-ayrı nazirliklərin başçılarının iştirak etdiyi bu səfərdə Rusiya parlamenti palatalarının rəhbərləri V.Şumeyko, İ.Rıbkin. hökümətin başçısı V.Çernomırdin onun müavini S.Şaxray, xarici işlər naziri A.Kozırev, müdafiə naziri P.Qraçov və b. ilə görüşlər keçirildi. Nümayəndə heyətinin başçısı Federasiya Şurasında çıxış etdi, parlamentin ayrı-ayrı komitələrində görüşlər keçirildi. Səfərin yekunlarına dair mətbuat konfransı keçirildi, iki ölkənin parlamentləri arasında əməkdaşlıq haqqında saziş imzalandı.

Öz növbəsində Rusiya Dövlət Dumasının nümayəndə heyəti Azərbaycana səfər etdi.



İki ölkə arasında münasibətlərin istiləşməsinə baxmayaraq, əlaqələrdə çoxlu əngəllər var idi. Azərbaycanın şimal dəmir yolunun işləməməsi ölkə iqtisadiyyatına böyük zərbə vururdu. Hərbi-siyasi məsələlərdə, xüsusən Azərbaycanın İran və Türkiyə ilə sərhədlərinə rus sərhədçilərinin yerləşdirilməsi ilə bağlı təzyiqlər davam edirdi. Azərbaycan tərəfi bildirirdi ki, onun İranla sərhədlərinin xeyli hissəsi Ermənistan tərəfindən işğal edilib və nəzarətdən kənarda qalıb, işğala son qoyulduqdan və ərazilər azad edildikdən sonra bu məsələni müzakirə etmək olar.

1995-ci ildə Rusiya Dövlət Dumasının nümayəndə heyəti, mədəniyyət nazirinin birinci müavini K.Şerbakov, Federasiya Şurasının sədri V.Şumeyko Azərbaycanda oldular. Baş nazirin müavini A.Bolşakovun səfəri zamanı iki ölkə arasında 8 sənəd-tibb və səhiyyə sahəsində əməkdaşlıq haqqında, elektroenergetika sahəsində əməkdaşlığın prinsipləri haqqında, elmi-texniki əməkdaşlıq haqqında, iki ölkənin dövlət sərhədində buraxılış məntəqələri haqqında, geodeziya, kartoqrafiya, Rusiya televiziya sahələrində əməkdaşlıq haqqında, Xəzər dənizi barədə birgə bəyanat imzalandı. Sənədlər ölkələrimiz arasındakı mövcud olan soyuq münasibətlər buzunu əridirdi, əlaqələrə yeni keyfiyyət halı verirdi. Qarşılıqlı səfərlər mövqelərə aydınlıq gətirirdi, münasibətlərdəki anlaşılmazlıqları aradan qaldırırdı. Faşizm üzərində qələbənin 50 illiyi münasibətilə Moskvada keçirilən təntənələrdə Azərbaycan Prezidentinin iştirak etməsi, səfər zamanı dünyanın bir sıra dövlət və hökumət başçıları, o cümlədən Rusiya rəhbərləri ilə görüşləri münasibətlərdə inamsızlığı sındırmağa başladı, əlaqələrin canlanmasına təkan verdi.

Lakin Azərbaycan-Rusiya münasibətlərinin inkişafında bir sıra çətinliklər də vardır. Həmin çətinliklər qətiyyən Azərbaycan tərəfindən törədilmir. Onların kökü və səbəbləri keçmiş sovet məkanında şimal qonşumuzun müəyyən dairələrinin istəkləri, yeni müstəmləkəçilik instinkləri; tarixin təkərini geri döndərmək, bu məkanda baş verən obyektiv prosesləri qəbul etməmək istəyi, müstəqil dövlətlərin inkişafına bu və ya başqa vasitələrlə mane olmaq cəhdləri ilə bağlıdır. Dövlətlərarası münasibətlərdə mövcud olan çətinlikləri bir neçə qrupa bölmək olar:

İqtisadi cəhətdən törədilən çətinliklər: Rusiya MDB iştirakçısı olan dövlətlərlə, o cümlədən Azərbaycana "təbii" həyati

mənafeyi zonası kimi baxır. Rusiya Federasiyasının prezidenti B. Yeltsinin 1995-ci il 14 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş "MDB iştirakçısı olan dövlətlərlə Rusiyanın strateji xətti" sənədində göstərilir ki, "MDB ərazisində iqtisadi, müdafiə, təhlükəsizlik, rusiyalıların hüquqlarının qorunması sahələrində bizim (yə"ni, Rusiyanın – M.Q.) başlıca həyati mənafelərimiz cəmlənmişdir. Onların təmin edilməsi ölkənin milli təhlükəsizliyinin əsasıdır." Bəzi dairələr Azərbaycanın Avropaya çıxmasının qarşısını almaqda Rusiyaya bufer zona kimi baxırlar; eyni zamanda Rusiya ətrafında rəqibləri ilə özü arasında bufer dövlətlər yaratmağa çalışır; ölkəmizin iqtisadi cəhətdən qüdrətli olmasını qısqanırlar və onu özlərindən asılı etmək istəyirlər; Moskva keçmiş Sovet İttifaqının neft rayonları üzərində öz nəzarətini itirmək istəmir, Xəzər dənizi nefti ilə əlaqədar Qərb dövlətlərilə birgə yaradılmış beynəlxalq neft konsorsiumunun planlarının reallaşmasına mane olmağa çalışır; Azərbaycanda Qərb dövlətlərinin möhkəmlənməsinə, cənub-qərb sərhədlərində yeni regional lider kimi - Balkanları, Qara dənizi, Qafqazı, Yaxın Şərqi birləşdirən və Qara dənizdən dünya okeanında yeganə çıxışa nəzarət edən, Qərb ölkələrinin müttəfiqi olan Türkiyənin meydana gəlməsinə təhlükə kimi baxır; isti dənizləri itirmək istəmir; yeni neft kəmərləri layihələrinin reallaşdırılmasına təkcə Qafqazı və Orta Asiyanı itirmək kimi deyil, bütövlükdə regiondan vurulub çıxarılmaq kimi qiymət verir; ölkəmizin iqtisadi inkişafını, onun beynəlxalq iqtisadi əlaqələrini Moskvanın iqtisadi maraqlarına zərbə kimi qiymətləndirir; Azərbaycana yenidən xammal bazası kimi baxır; dünya bazarlarına çıxa bilməyən Rusiya mallarını keçmiş sovet məkanına sırımağa, burada istehsalın inkişafına mane olmağa, özünü yeganə nümunəvi dövlət kimi göstərməyə səy göstərir; gələcəkdə Rusiya rublundan ümumi istifadəyə nail olmağa çalışır; iqtisadi qanunvericiliyin müstəqil inkişafına imkan verməmək üçün MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Məclisi vasitəsilə model aktlar hazırlamaq, milli iqtisadi sistemləri yaxınlaşdırmaq və gələcəkdə onları iqtisadi cəhətdən birləşdirmək, milli dövlətlərin fövqündə duran orqanlar yaratmaq istəyir.

Təbii ki, bütün bunlar dünya təcrübəsində artıq təsdiq olunmuş normal iqtisadi əlaqələrə və dövlətlərarası münasibətlərə mane olur.



Siyasi cəhətdən törədilən çətinliklər: şimal qonşumuzun müəyyən dairələri MDB iştirakçısı olan dövlətlərə, o cümlədən Azərbaycana siyasi, təhlükəsizlik və milli təhlükəsizlik baxımından başlıca həyati mənafe zonası kimi baxdıqlarından, burada "xüsusi səlahiyyətlər" istəyirlər, onların müstəqil beynəlxalq siyasi əlaqələrini, xüsusən xarici siyasətdə dünyanın taleyində əsaslı rol oynayan Qərb ölkələrinə meyli, həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrini öz nüfuzlarına zərbə kimi qiymətləndirirlər və əsəbiliklə qarşılayırlar; Azərbaycanın, o cümlədən Qafqaz dövlətlərinin və xalqlarının tam müstəqil olmalarına Rusiya sərhədlərinin Don və Volqaya qədər daralması kimi baxırlar və bunu gələcəkdə Rusiya üçün fəlakətli hesab edirlər; Azərbaycanın MDB-dən çıxmaq istəyini (əgər varsa) islam hegemonluğunun maneəsiz olaraq Orta Asiya və Qazaxıstana yayılması təhlükəsi kimi qiymətləndirərək belə hesab edirlər ki, belə vəziyyət Rusiyanın islam dini hakim olan mərkəzi rayonlarına təsir göstərər və ölkəni parçalaya bilər; Rusiyanın Azərbaycanda fəal siyasət aparmasını irəli sürürlər və göstərirlər ki, Rusiya dövlətinin yaxın gələcəkdə və perspektivdə bütövlüyü, sabitliyi bundan asılıdır; Azərbaycanı və Gürcüstanı kiçik etnik qruplar üçün federativ əsasda bölüşdürmək naminə ciddi iş aparırlar və buna regioda sülhü qorumaqda vasitə kimi baxırlar, əslində isə məqsəd parçalanmaqla regionda rəqabət aparan dövlətləri buradan vurub çıxarmaq və mövqelərini möhkəmləndirməkdir. Moskva siyasi baxımından bu regiona "böyük qardaşa" ehtiyacı olan əyalət kimi baxır, onlarda yenidən öz nüfuz dairəsini təsdiq etməyə və Qərb dövlətlərinin hərəkətlərini məhdudlaşdırmağa çalışır (Azərbaycanın şimal dəmir yolunun işləməməsi həm də Qərb dövlətlərini siyasi baxımdan bu regiona buraxmamaq məqsədi daşıyır); XIX əsrin 20-ci illərində ABŞ-da meydana çıxan Monro doktrinasına bənzər ("Amerika amerikalılar üçündür") "MDB Moskva üçündür" şüarı müxtəlif qrupların çağırışlarında açıq-aşkar eşidilir. SSRİ-nin dağılması faktı ilə razılaşmaq istəmir, göstərir ki, müstəqil dövlətlər özləri sərbəst yaşaya bilməzlər, onlar özləri üçün Rusiyanı nümunə götürməlidirlər; Azərbaycanın müxtəlif beynəlxalq proqlamlarda iştirakına qısqanclıqla yanaşır; müstəqil dövlətlərin beynəlxalq institutlarda, o cümlədən ATƏT-də iştirakını minimuma endirməyə çalışır, MDB ölkələri ərazisindəki münaqişələrdə sülhməramlı

qüvvələrin tərkibində başqa dövlətlərin iştirakına Rusiyaya ziyanlı qüvvələrin güclənməsi kimi baxır və ona yol vermək istəmir; yeni müstəqil dövlətləri Varşava müqaviləsi tipində elə bir təşkilata yığmaq istəyir ki, onlar əlaltı, özü isə hökmran olsun; postsovet məkanında məqsədyönlü törətdiyi münaqişələrdən, o cümlədən Dağlıq Qarabağdan öz mənafeləri üçün istifadə edir, bu da yeni imperiya instinkti və "parçala hökm sür" siyasətindən başqa bir şey deyildir; əslində bu münaqişənin kökü daxildən deyil, Ermənistan və Rusiyadan gəlir; öz qonşuluğunda dünyaya birbaşa çıxa bilən müstəqil, güclü rejimlərin mövcudluğunu istəmir və onların daxilindəki müxtəlif siyasi qüvvələrə, seperatçılara və terrorizmə yardım göstərir və ya başqa siyasi təzyiqlər edir; siyasi məqsədlərinə çatmaqdan ötrü MDB iştirakçısı olan ölkələrdə yaşayan rusların hüquqlarının guya pozulmasından təzyiq vasitəsi kimi, hətta silah tətbiq etməklə istifadə edir; MDB ölkələrində Rusiyanın mənafelərini qorumaqda ruslara siyasi, iqtisadi və b. vasitə kimi baxır; hər vəchlə ikili vətəndaşlığın tətbiqinə çalışır; müstəqil dövlətləri siyasi cəhətdən birləşdirmək məqsədilə Qərb ölkələrinin deyil, Moskvanın onlar üçün yeganə müttəfiq olduğunu təbliğ edir; MDB iştirakçısı olan dövlətlərə bərabər münasibət göstərmir (Azərbaycana qarşı təcavüzkarlığında Ermənistana açıq-aşkar çoxtərəfli yardım göstərir); ölkəmizə qarşı psixoloji-təbliğat vasitələri, o cümlədən, guya Çeçenistana yardım edilməsi və s. işə salınır; Hətta Rusiya imperiyasını bərpa etmək barədə avantürist çağırışlar eşidilir. İki qitədə yerləşən Rusiya transregional dövlət olmaq istəyir. Keçmiş siyasətin forması dəyişsə də, mahiyyəti qalır. Rusiya keçmiş sovet respublikalarını "öz yağları ilə qovurmaq, öz odunları ilə ocağındakı qazanında qaynatmaq" fikrindən əl çəkməmişdir. ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin fikrincə, "Rusiya elə bir ölkədir ki, müstəmləkəçilik onun tarixi üçün həmişə nəqarət olmuşdur".

Hərbi cəhətdən törədilən çətinliklər: Rusiya keçmiş SSRİ-nin hərbi-siyasi infrastrukturunu qoruyub saxlamaq, strateji qüvvələri mühafizə etmək istəyir; müstəqil dövlətlərdə ordu quruculuğunun həyata keçirilməsini qısqanır, ona mane olur, ya da həmin prosesin özü tərəfindən aparılmasına çalışır; onları MDB iştirakçısı olan ölkələr çərçivəsində yığmağa sə"ylər edir və bundan ötrü müxtəlif təzyiq vasitələrini işə salır (hərbi-sənaye kompleksinin inkişafına



mane olmaq, ordularda birgə hərbi xidmət keçməsi, hərbi məktəblərin fəaliyyətinin əlaqələndirilməsi və planlaşdırılması, hərbi texnika ilə təmin etmək, silah satışı və s.); münaqişə zonalarında MDB bayrağı altında kollektiv qüvvələrin yerləşdirilməsi üçün BMT və ATƏT-in mandatını almaq, bununla da MDB-də Rusiyanın hakim rolunu təsdiq etmək və ya mövcud münaqişələrin doldurulması cəhdləri (mə"lumdur ki, kollektiv qüvvələr simvolikdir, onda əsas yeri Rusiyanın tutmaq istəyi həksizdir) edir; sülhməramlı proseslərdə inhisarçı olmaqdan ötrü Rusiya MDB-yə BMT çərçivəsində regional saziş və ya təşkilat statusu almağa çalışır; öz strateji məqsədləri naminə MDB iştirakçısı olan dövlətlərdə hərbi bazalarını yerləşdirməyə, sərhədləri birgə qorumağa təkid edir (Azərbaycan ərazilərinin xeyli hissəsinin, o cümlədən İranla sərhədlərinin bir hissəsinin işğal altında olmasına və ona nəzarət etməməsinə baxmayaraq, onu birgə qorumaq barədə təzyiqlər edir); müstəqil dövlətlərin başqa blok və hərbi ittifaqlarda iştirakını qısqanır (onların "Sülh naminə tərəfdaşlıq" proqramında iştirakını yaralı nöqtə kimi qəbul edir); müstəqil dövlətləri yenidən vahid hərbi sistemdə toplamaq istəyir.

Rusiya qoşunlarını MDB bayrağı altında Ermənistan-Azərbaycan münaqişəsi zonasında yerləşdirməyə çalışır. O, bildirir ki, BMT-nin maliyyə imkanları məhdud olduğundan bu işi özü görə bilər. Lakin MDB-nin belə bir əməliyyatı həyata keçirmək hüququ yoxdur. Belə hüquq yalnız BMT və ATƏT-də vardır. BMT nizamnaməsinin 52-ci maddəsində deyilir ki, regional təşkilatlar və sazişlər sülhməramlı əməliyyatlar apara bilərlər. Lakin bir şərtlə ki, onların məqsədləri və fəaliyyəti BMT-yə uyğun gəlsin. Belə uyğunluğu təşkilatların özləri deyil, BMT müəyyənləşdirməlidir. BMT isə belə mandatı MDB-yə verməmişdir. BMT nizamnaməsinə görə, belə əməliyyatlara razılıq verilirsə, qarşıya qoyulmuş belə vəzifələri yerinə yetirməkdən ötrü dəqiq mandat və konkret vaxt çərçivəsi qoyulmalıdır; əməliyyat və onun funksiyası BMT naminə fəaliyyət göstərməlidir; əməliyyat Baş katibin rəhbərliyi ilə aparılmalıdır; Baş katib isə onun bütün cəhətləri üçün təhlükəsizlik Şurası qarşısında məsuliyyət daşıyır; əməliyyat iştirakçısı olan dövlətlərin hərbi qüvvələri öz milli komandanlarına deyil, BMT-nin təyin etdiyi komandana tabedirlər, münaqişə edən tərəflərə münasibətdə qərəzsiz və tam olmalıdırlar; daxili işlərə

qarışmamalıdırlar; sülhməramlı qüvvələr danışıqlar aparılmasını əvəz edə bilməz suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əməl edilməlidir; hər bir ölkənin qüvvələri bu əməliyyatın tərkibində ümumi heyətin 30%-dən çoxunu təşkil edə bilməz, tərkibində ən çox heyəti olan ölkə əməliyyatda komandanlıq edə bilməz; regionda birbaşa marağı olan dövlət komandanlıq etməməlidir.

Bu normalar Rusiyanın istəyi ilə ziddiyyət təşkil etdiyindən BMT belə əməliyyatlar üçün ona icazə vermədi.

Bununla belə, münaqişə zonasına hər hansı bayraq altında (istər BMT, istər ATƏT, istərsə də MDB) qoşun yeridilməsinin bir sıra nəticələri ola bilər; problemin həlli dondurular; "DQR" subyektə çevrilər; tanına bilər; ataş xətti sərhəd xəttinə çevrilə bilər; gələcəkdə torpaqların azad edilməsi mümkünsüz olar; Ermənistan silahlı qüvvələri Azərbaycandan çıxmaz, torpaqlar azad edilməz və s. Çünki işğalçı fasilə qazanır, quruculuq işləri aparır, erməni xalqının mənəvi-psixoloji ruhunu yüksəlir.

Yuxarıda göstərilən iqtisadi, siyasi və hərbi çətinlikləri yaratmaqla öz istəklərinə çatmaq üçün Rusiyanın imkanı yoxdur.

Əvvəla, Rusiyanın daxili-siyasi, iqtisadi, hərbi, mənəvi-psixoloji böhranlı vəziyyəti-Çeçenistanda aparılan uğursuz müharibə; mərkəzdən qaçma meylləri; regionlara nəzarətin zəifləməsi; mərkəzi hakimiyyətlə federasiyanın subyektləri arasında ixtilaflar; dağıdılmış iqtisadiyyat, iqtisadiyyata oturmuş xarici kapitalın və yeni yaranmış sahibkarlar təbəqəsinin təsiri: ordunun simasızlaşması; mənəvi-psixoloji düşkünlük bu istəklərin reallaşmasını qeyri-mümkün edir. Rusiyadakı demoqrafik proses, çinlilərin axını, ölkənin quruluşunun daha çox milli-ərazi təməlinə əsaslanması gələcəkdə dövlətin bütövlüyünü sual altına qoyur və ümidsizliyi artırır. Ölkə əhalisinin 148 milyon nəfərindən, təxminən 30 milyon nəfəri, başqa sözlə, hər beş vətəndaşından bir nəfəri türk, müsəlmandır. Rusiya həm də türk ölkəsi, rus dövlətidir.

Qərbi Avropadan fərqli olaraq Rusiyadakı türk, müsəlman xalqları mühacir deyil, köklü, yerli xalqlardır. Beləliklə, türk, islam amili Rusiya üçün vacib daxili siyasi şərtdir, milli təhlükəsizliyi üçün əhəmiyyətli faktdır. Bu amil ən azı dörd cəhətlə şərtlənmişdir. Əvvəla, Rusiya Federasiyasında müxtəlif hesablamalara görə, 30 milyon nəfər türk, müsəlman yaşayır. Şimali Qafqaz, Volqaboyu,



Ural, Qərbi Sibir müsəlmanların yığcam yaşadıqları regionlardır. Müsəlmanlar faktiki olaraq Rusiya Federasiyasının bütün subyektlərində yaşayırlar və müəyyən təsirə malikdirlər. İkincisi, Rusiyanın yaxın xaricindəki müsəlman dövlətləri İslam Konfransı Təşkilatının üzvləridir. Üçüncüsü, Rusiyanın uzaq xarici də - İran, Türkiyə, Pakistan, Suriya və İraqın əhalisi, Çin və Hindistanın əhalisinin bir hissəsi müsəlmanlardır. Dördüncüsü, Rusiyanın yaxın xristian qonşuları olan Ukrayna, Rumıniya, Bolqarıstanda və b. xeyli müsalmanlar yaşayır.Bütün bu geosiyasi şərait daxili və xarici siyasət məsələlərini həll edərkən Rusiyanın İslam amili xüsüsi diqqət yetirməsini zəruri edir. Deməli, Rusiya müsəlman ölkəsi, pravoslav dövlətidir. Pravoslav dininin süni surətdə şişirdilməsi müsəlmanları mənəvi cəhətdən yadlaşdırır, onların Rusiya dövlətinə olan münasibətini azaldır, Rusiyanı zəiflədir, onun əhatəsində qaldığı müsəlman dövlətləri ilə əlaqələrinə mənfi təsir göstərir. Bunun əksinə olaraq “islam fundamentalizmi”nə qarşı çıxan ABŞ islam dininə dərin hörmət bəslədiyini bildirir, müsəlman ölkələrində və regiolarında möhkəmlənir. İslam dini və “islam fundamentalizmi”ni fərqləndirmək lazımdır. İslam dinini fundamentalizm və terrorizmlə eyniləşdirmək olmaz. Xristian terrorçu qrupları kimi müsəlman terrorçu qrupları da yolverilməzdir.

Deməli, keçmişə qayıdış üçün hər hansı formada atılan addım, hətta böyük rus millətçiliyi ciddi müqavimətə rast gələr, uğursuz olar, fövqəldövlətdən böyük dövlətə çevrilmiş Rusiyanı parçalayar. Nüvə dövləti olmasına baxmayaraq, onu Rus dövlətinin tarixi torpaqlarına qədər sıxışdıra bilər. Onun bir dövlət kimi gələcəyi həm ölkə daxilində, həm də xaricdə türk xalqları ilə necə münasibətlər qurmasından xeyli asılıdır.

Tarixdən məlumdur ki, şərq slavyanları daim türk xalqları ilə birgə və ya yanaşı yaşamışlar. Çox vaxt türk xalqları Rus dövlətini yadelli işğalçılardan qorumuşlar. Hətta 1240-cı ildə isveçlilərin basqını zamanı tatar xanı Batı xan Novqorodun hakimi Aleksandr Yaroslaviçə silah və qüvvə verdi (Batı xan Aleksandr Yaroslaviçin anasını almışdı və onu oğulluğa götürmüşdü). Neva üzərində döyüşdə o, qələbə qazandı.

Həmçinin elmi dairələrdə belə bir fikir vardır ki, hər bir rusun damarlarında türk qanı axır. Parisdə fəaliyyət göstərən şərq

dilləri məktəbində bildirdilər ki,hər hansı rusu araşdırsan, ondan tatar taparsan və ya hər hansı rusu sıxsan ondan tatar qanı axar.

Mərkəzi hakimiyyət bildirir ki, federasiyanın subyektləri beynəlxalq əlaqələrini Rusiyanın xarici ölkələrdəki səfirliklikləri vasitəsilə həyata keçirməlidirlər. Bundan məqsəd xarici siyasətdə mərkəzçiliyə sahib olmaq, kəskin xətt götürmək, ölkənin bütövlüyünü qorumaq, onun parçalanmasının arşısını almaqdır. Lakin bu məqsəd bir sıra çətinliklərlə üzləşir. Çünki federasiya subyektlərinin çoxu ölkə konstitusiyasına uyğun olaraq artıq xarici ölkələrlə iqtisadi,elmi-texniki, mədəni əlaqələr qurmuşlar. Federasiya subyektlərinin bəzisinin (məsələn, Tatarıstan) xarici ölkələrdə nümayəndəlikləri, müxtəlif banklarda hesabları vardır. Onların çoxunda müstəqillik şüuru hakim olmuşdur, tam müstəqilliyə doğru addım-addım irəliliyirlər. Ölkənin quruluşu daha çox milli ərazi təməlinə əsaslanır. Xalqlar onu öz tarixi torpqları hesab edirlər.

Dünya siyasətində Rusiyanın mövqelərinin xeyli zəifləməsi, problemlərin həllində onun fikirlərinin nəzərə alınmaması, dünya bazarlarından vurulub çıxarılması, mallarının rəqabətə tab gətirə bilməməsi vəziyyəti daha da ağırlaşdırır. Dövlətin xarici siyasəti onun daxili siyasətinin davamıdır, onun imkanlarından asılıdır. Deməli, Rusiyanın imkanları onun arzularının həyata geçirilməsi ümidlərini heçə endirir.

İkincisi, MDB-dəki şərait də ürəkaçan deyil. Yarandığı vaxdan bəri ləng inkişaf etməsinə baxmayaraq, onun iştirakçısı olan dövlətlərin daxili ictimai-siyasi, iqtisadi vəziyyəti, Ukraynada Krım, Moldovada Dnestryanı, Gürcüstanda gürcü-abxaz,Rusiyada rus-çeçen münaqişəsi, Tacikistanda vətəndaş müharibəsi,Ukrayna-Rusiya, Rusiya-Moldova ziddiyyətləri, Ermənistanın Azərbaycana qarşı təcavüzükarlığı, qırılmış iqtisadi əlaqələr, müstəqil dövlətlərin yenidən kiminsə hakimiyyəti altına düşmək istəməmələri, bu dövlətlərdə hakim olmuş müstəqillik şüuru, xarici kapitalın təsiri də bu istəklərin əleyhinə işləyir.

Ona görə də Moskva MDB-ni möhkəmləndirməkdə Belarusa, Ermənistana, Qazaxıstana və Qırğızıstana ümid bəsləyir. Bu dörd dövlətin başçılarının imzaladıqları iqtisadi və humanitar inteqrasiyanın dərinləşdirməyi nəzərdə tutan sənəd və ayrıca Rusiya-Belarus sazişi MDB iştirakçısı olan dövlətlərin



əməkdaşlığının bir neçə mərhələsini 2-lər, 4-lər və s. nəzərdətutur. Əslində belə addımlar obyektiv tarixi proseslərə deyil, subyektivizmə əsaslanır, ona birmənalı münasibət mövcud deyildir. İnteqrasiya prosesləri yalnız bərabərlik və könüllülük əsasında qurula və inkişaf etdirilə bilər.

Üçüncüsü, beynəlxalq münasibətlərin müasir vəziyyəti də bu istəklərin əksinədir. Dünya dövlətləri gənc müsəqil dövlətləri dünya birliyinin bərabərhuquqlu üzvləri kimi qəbul etmişlər, beynəlxalq və regional təşkilatların üzvü olan bu dövlətlərlə qarşılıqlı faydalı siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və b. əlaqələr qurmuşlar. Azərbaycan, o cümlədən müstəqil dövlətlər (Ermənistan fərqli olaraq) beynəlxalq hüququn prinsiplərini qəbul etmişlər. Azərbaycan dövləti bu prinsiplərə ciddi sürətdə əməl edir. Bununla belə, böyük dövlətlər uzun illər boyu arzuladıqları və çalışdıqları SSRİ-nin dağılmasından sonra yaranmış siyasi və etnik xarakterli münaqişələrdən xeyli narahatdır.

Deməli, dövlətlərarası münasibətlərdə çətinliklər törətməklə öz istəklərinə çatmaq mümkün deyildir. Ona görə də çətinliklərin aradan qaldırılmasının, reallıqların qəbul edilməsinin və münasibətlərin beynəlxalq normalara uyğun inkişaf etdirilməsinin zəruriliyi ön plana çıxır. Azərbaycan - Rusiya münasibətlərində mövcud olan çətinliklərdən çıxış yollarının və əməkdaşlığın geniş perspektivləri vardır. Bu çətinliklərin aradan qaldırılması ikitərəfli münasibətləri yeni inkişaf səviyyəsinə qaldırardı. Bundan ötrü tərəflərin hər biri özündən asılı olan aşağıdakı addımları atmalıdırlar.

Rusiya tərəfi: əgər MDB iştirakçısı olan dövlətlərdə, o cümlədən Azərbaycanda arzuolunan qonaq olmaq istəyirsə, mütləq münaqişələrin həllində, əməkdaşlıqda, dövlətlərarası münasibətlərdə hökmlərə, təzyiqlərə deyil, bərabərhüquluğa, beynəlxalq normalara əsaslanmalı, ədalətli sülhə nail olmalıdır; başa düşməlidir ki, münasibətlərin gələcəyi bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıqdadır; dövləti və dövlətlərarası münasibətləri köhnə ideyalar əsasında qurmaq cəhdləri uğursuzluğa gətirəcəkdir; köhnə baxışlardan imtina etməli və başa düşməlidir ki, MDB iştirakçısı olan dövlətlərin əksəriyyətinin strateji xətti müstəqil dövlətçiliyi möhkəmləndirmək, Rusiyadan asılılığa son qoymaqdır; keçmiş sovet məkanında artıq təkcə Rusiyanın deyil,

Azərbaycanın da müstəqil siyasətinin olduğunu qəbul etməlidir; başa düşməlidir ki, Rusiya üçün xaricdən heç bir hücum təhlükəsi yoxdur; Rusiya şəhərlərində "Qafqaz milləti" adı altında azərbaycanlıların sıxışdırılmasına və təhqir edilməsinə son qoymalıdır; Rusiya bazarlarının azərbaycanlıların əlində olması faktını özünə sərfəli amil kimi qəbul etməlidir; başa düşməlidir ki, tarixin təkərini geri döndərmək olmaz.

Burada ayrıca olaraq Rusiya - Ermənistan əməkdaşlığına diqqət yetirilməlidir. Bu iki ölkənin əməkdaşlığı strateji baxımdan Qərb ölkələrinin regiona buraxılmasına, türk xalqlarına və müsəlman Şərqinə qarşı yönəldilmişdir. Əslində Ermənistan Rusiyanın əlində müstəmləkəçilik aləti və vasitəsidir. Ermənistanda Rusiya ordusunun olması, onda həm də ermənilərin qulluq etməsi, Azərbaycana qarşı təcavüzkarlıqda Yerevana açıq-aşkar göstərilən siyasi, iqtisadi, hərbi, mənəvi yardımlar deyilənləri təsdiqləyir. Lakin Rusiya - Ermənistan əməkdaşlığının Rusiya üçün ağır nəticələri vardır. O, Rusiyanı parçalayır, təcavüzkarlığın müdafiə edilməsi ölkə daxilində separatizmi, sabitsizliyi və qarşıdurmanı gücləndirir. Öz əhalisinə hətta pensiya pullarını verə bilməyən Rusiyanın Ermənistana yardımı ölkədə sosial gərginlik yaradır, ölkənin bütövlüyünün əsaslarından olan rus-türk xalqlarının münasibətlərinə zərbə vurur, xarici siyasətin səmərəli qurulmasına, regionda sülhün və əməkdaşlığın bərqərar olmasına mənfi təsir göstərir, Qafqaz ölkələrinin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə inkişafına mane olur.

Əməkdaşlıq isə daha çox Ermənistana sərfəlidir. O, Rusiya pərdəsindən istifadə edərək öz məqsədlərinə çatmışdır, Azərbaycan torpaqlarını Moskvanın köməyilə işğal etməklə onu Rusiya qarşısında zəiflətmişdir, Qafqazda işğalçılıq siyasətinin dayağına çevrilmişdir. O, Moskvaya özünü qorumaqda vasitə kimi baxır. Bunu da o, guya tarixi, müasir və perspektiv amillərlə əsaslandırır. Lakin zorakılıqla uzunmüddətli istəklərinə çatmaq olmaz. Ona görə də Qərb ölkələri Qafqazda daha fəal olmalı, Ermənistanı Rusiyadan ayırmağa çalışmalıdırlar.

Azərbaycan tərəfi: rəsmi Bakı tərəfindən münasibətlərin normal inkişafı üçün heç bir maneə yoxdur; müəyyən dairələrin bizə münasibətindən asılı olmayaraq şimal qonşumuza münasibətdə mehribanlığa, qarşılıqlı anlaşmaya üstünlük verilməsi, meydan



əhval-ruhiyyəsindən imtina edilməsi müsbət haldır. Bununla belə, beynəlxalq mədəni və humanitar əlaqələrlə məşğul olan təşkilatlarımız Rusiyanın türk, müsəlman xalqları və azərbaycanlı diasporu ilə işləməli, onları təşkilatlandırmağa kömək etməlidirlər; Şimal qonşumuza qarşı populist, düşmənçilik şüarlar söyləmək yolverilməzdir, ona münasibətdə hövsələliyin, diqqətciliyin və çoxvariantlılığın gözlənilməsinin ciddi əhəmiyyəti vardır. Rusiya ilə mehriban münasibətlər dövlətçiliyimiz üçün səviyyəsindən asılı olmayaraq mövcud olan təhlükənin neytrallaşması və ya zəiflədilməsi deməkdir. Baxmayaraq ki, hətta belə mehriban münasibətlər Rusiya - Ermənistan strateji müttəfiqliyini zəiflətmək iqtidarında deyildir; Qərbi Avropa dövlətlərinin Şərqə doğru irəliləməsindən, keçmiş sovet məkanında möhkəmlənməsindən narahat olan Rusiyanın bu ölkələrlə münasibətlərindəki ziddiyyətlərdən Azərbaycan istifadə etməlidir.

Qarşılıqlı münasibətlərdə imperiya təfəkküründən doğan çətinliklərin aradan qaldırılmasının və əməkdaşlığın bərabərhüquqlu əsasda inkişaf etdirilməsinin böyük əhəmiyyəti olardı.

Bunun Rusiya üçün əhəmiyyəti: yeni imperiya instinktinndən imtina olunması onu Azərbaycanda və keçmiş sovet məkanında arzuolunan qonağa çevirərdi; rəsmi dairələrdə yersiz əsəbiliyə son qoyardı; Rusiya dövlətçiliyini möhkəmləndirərdi, daxili münaqişələrə son qoymaq üçün ağıllı addımla atılmasına şərait yaradırdı; artıq fövqəldövlət rolunu itirərək region dövlətinə çevrilən Rusiyanın heç olmazsa, böyük dövlət kimi saxlanılmasına kömək edərdi; iqtisadi sabitliyə və çoxtərəfli əməkdaşlığa təkan vurardı.

Azərbaycan üçün əhəmiyyəti: dövlətçiliyimiz möhkəmlənərdi; onun üçün törənə biləcək təhlükə aradan qalxardı və ya heç olmasa, xeyli zəifləyərdi; ölkə daxilində siyasi sabitlik möhkəmlənərdi; iqtisadi durğunluq aradan qaldırılardı; dəmir yolu blokadası aradan qalxardı; müxtəlif terrorçu və separatçı hərəkətlərin törədilməsi üçün xarici şərait zəifləyərdi.

MDB iştirakçısı olan dövlətlər üçün əhəmiyyəti: Rusiyanın Azərbaycana münasibətdə əməkdaşlığa və bərabərhüquqluğa üstünlük verməsi təkcə bu ölkələr üçün deyil, bütövlükdə MDB iştirakçısı olan dövlətlər üçün mühüm əhəmiyyət kəsb edərdi;

inteqrasiya prosesləri genişlənərdi; Azərbaycan məhsulları bu ölkələrin bazarında özünə yer tutardı və ya əksinə; xalqlar arasında mehriban münasibətlər bərpa olunardı; münaqişələrin həlli üçün əlverişli şərait yaranardı; məqbul mənəvi-psixoloji vəziyyət əmələ gələrdi.

Azərbaycan dövlətinin MDB iştirakçısı olan dövlətlərlə münasibətlərində Gürcüstan özünəməxsus yer tutur. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də quruldu. Ölkələrimizin münasibətlərinin əsasını beynəlxalq normalar, tərəflərin mənafelərinin tarazlığı təşkil edir, üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəldilməmişdir. Münasibətlərimizdəki özünəməxsusluq xalqlarımız arasındakı tarixi, müasir və perspektiv əməkdaşlıqla səciyyələnir.

Əvvəla, Gürcüstanla dostluğumuz ən təbii bir haldır və ölkələrimizi və xalqlarımızı tarixi ənənələr, coğrafi-siyasi sərhədlər, mehriban qonşuluq münasibətləri yaxınlaşdırır. Tarixən xalqlarımızın ümumi düşmənə qarşı birlikdə mübarizə aparmasına dair çoxlu faklar vardır. Gürcüstanın müstəqilliyinə zərər gələrsə, xətəri Azərbaycana dəyə bilə və ya əksinə.

İkincisi, Ermənistanın Gürcüstana qarşı irəli sürdüyü ərazi, torpaq iddiaları və gürcü torpaqlarına sahib olub Qara dənizə çıxmaq istəyi, erməni-gürcü müharibələri, erməni batalyonlarının Abxaziyada Gürcüstana qarşı vuruşmaları; separatizmdə fəal iştirak etmələri, Ermənistanın Azərbaycana təcavüzkarlığı, ərazilərimizin 20 faizdən çoxunun işğal edilməsi, bir milyon nəfərdən çox vətəndaşımızın qaçqın vəziyyətində olması Azərbaycan-Gürcüstan münasibətlərində təmas nöqtələrinin tapılmasına, vahid mövqenin işlənib hazırlanmasına, onların birgə çıxış etməsinə və strateji müttəfiqə çevrilməsinə şərait yaradır.

Hələ birinci dünya müharibəsindən sonra üç Qafqaz dövləti arasındakı münasibətlər Ermənistanın iddiaları ucbatından mürəkkəb idi. Onun Gürcüstana və Azərbaycana qarşı eyni vaxtda ərazi iddiaları irəli sürməsi və xalqımıza qarşı soyqırımı ölkələrimizi daha da yaxınlaşdırırdı. 1919-cu ildə keçirilmiş Paris sülh konfransında Azərbaycan və Gürcüstan nümayəndə heyətləri avantürist erməni iddialarına qarşı birgə çıxış etməsinə və strateji müttəfiqə çevrilməsinə şərait yaradır.



Üçüncüsü, hətta Gürcüstanın siyasi xadimlərinin özlərinin etiraf etdikləri kimi Gürcüstanda inkişaf və islahatlar Azərbaycansız ciddi çətinliklərlə üzləşir. Gürcüstanın Azərbaycanda dərin iqtisadi, siyasi və b. maraqları vardır. Azərbaycan özü çətin vəziyyətdə olmasına baxmayaraq, həmişə onun istəklərini yerinə yetirmişdir. Ölkəmiz Gürcüstan üçün etibarlı ortaqdır və Asiyaya pəncərədir.

Dördüncüsü, şimal dəmir yolunun bağlanması, Ermənistanın təcavüzkarlığı nəticəsində İrana gedən dəmir yolunun işləməməsi ilə Azərbaycanın blokadaya düşməsi Gürcüstanın əhəmiyyətini xeyli artırır, onu Avropaya pəncərəyə çevirir. Bu baxımdan Bakı - Tbilisi - Qara dəniz limanlarına çıxan dəmir yolunun Avropa Birliyi tərəfindən qurulmasının ciddi strateji əhəmiyyəti vardır.

Beşincisi, Gürcüstanda yarım milyondan çox soydaşımızın yaşaması, onların bu ölkənin ictimai-siyasi-iqtisadi həyatında yaxından iştirak etmələri, daxili bazarı öz əllərində saxlamaları qonşu və dost ölkəyə xüsusi diqqət verməyi zəruri edir.

Altıncısı, Azərbaycan-Gürcüstan münasibətləri hər iki tərəfə faydalı olmaqla, bölgədə sülhə, təhlükəsizliyə, əməkdaşlığa xidmət edir və beynəlxalq normalara tamamilə uyğundur. İki ölkə başçısının Qafqazda sülh, sabitlik və əməkdaşlıq barədə sənədi imzalamaları, Ermənistanın isə ondan imtina etməsi regiondakı vəziyyət üçün kimin təqsirkar olduğunu göstərir. Qafqaz dövlətlərinin müstəqilliklərinin möhkəmlənməsinə, regionda sülhün bərqərar olmasına başlıca maneə Ermənistanın təcavüzkarlıq hərəkətləridir.

Azərbaycan - Gürcüstan münasibətlərinin inkişafına mane ola biləcək ciddi əngəllər yoxdur.Lakin bəzi xarici ölkələrdəki müəyyən dairələr bu əlaqələrdə süni çətinliklər yaratmağa çalışırlar. Ermənistan bildirir ki, yaxın illərdə Gürcüstana qarşı rəsmi səviyyədə ərazi iddiaları qaldırılmayacaqdır. Məqsəd aydındır: Dağlıq Qarabağ məsələsi "həll edildikdən" sonra növbədə Gürcüstan durur.

1993-cü ildə Gürcüstan parlamentinin rəhbəri E.Şevernadze Bakıya rəsmi səfər etdi. Səfər zamanı o, Azərbaycan Respublikası parlamentinin sədri tərəfindən qəbul edildi. Görüş nəticəsində Azərbaycan və Gürcüstan parlamentləri arasında müvafiq sənəd imzalandı.

1993-cü ildə Gürcüstanın müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı Bakıdan kredit alınması xahişi müzakirə obyektinə çevrildi. Azərbaycan tərəfi Gürcüstanın bu xahişinə əməl etdi, özü çətin vəziyyətdə olmasına baxmayaraq ona kredit ayırdı və yanacaq verdi.

Lakin bu illərdə Gürcüstanda yaşayan azərbaycanlıların sıxışdırılması, yaşayış yerlərinin adlarının dəyişdirilməsi, torpaq islahatı adı altında soydaşlarımıza torpaq verilməməsi prosesi gedirdi. Bunlar da iki ölkə arasında münasibətlərə mənfi təsir göstərirdi.

1994-cü ildə Gürcüstanın Baş naziri Otar Pasasiya başda olmaqla nümayəndə heyəti, parlament nümayəndə heyəti, Baş nazirinin müavini Zurab Kervalişvili və b. Azərbaycana səfərə gəldilər. Müxtəlif səviyyəli görüşlərdə Azərbaycan-Gürcüstan iqtisadi, siyasi, elmi-texniki, mədəni əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edildi.

1995-ci ildə Gürcüstan paralmentinin spikeri V.Qoquadze Nazirlər Kabineti sədrinin birinci müavini Z.Kervalişvili, İnsan hüquqları və Millətlərarası Münasibətlər Komitəsinin sədri Sandro Kavsadze Azərbaycanda səfərdə oldular. Nümayəndə heyətlərinin Azərbaycan rəhbərliyi tərəfindən qəbul edilməsi bir sıra ikitərəfli və regional məsələlərin müzakirə edilməsi göstərdi ki, bir çox problemlər barədə təkliflər arasında fikir ümumiliyi vardır. Bu ildə Azərbaycan neftinin dünya bazarına nəql olunması ilə bağlı dörd variantdan yalnız ikisinin o cümlədən Gürcüstan variantının seçilməsi iki ölkə arasındakı başqa sahalardə də əməkdaşlığın genişlənməsinə, münasibətlərin istiləşməsinə təkan verdi.

Azərbaycanla Gürcüstan arasındakı münasibətlərin geniş perspektivləri vardır. Bakıda və Tbilisidə səfirliklərin fəaliyyət göstərməsi, münasibətləri tənzimləyən çoxlu sənədlərin imzalanması, iqtisadi, siyasi, elmi-texniki, mədəni və humanitar əlaqələrin, xalq diplomatiyasının genişlənməsi üçün böyük imkanlar toplanmışdır.

Qafqazda ümümi inkşafın yegənə yolu dövlətlərin ərazi bütövlüyünün qəbul edilməsi, işğala, separatçılığa son qoyulmasıdır. Əgər bunlara əməl edlməzsə, gec- tez böyük Qafqaz müharibəsi baş verəcəkdir.



Azərbaycan üçün ən problemli məsələ Ermənistanla münasibətlərdir. Münasibətlərin olmamasının səbəblərinin kökü qətiyyən Azərbaycan tərəfində deyildir. O, ermənilərin dənizdən-dənizə yaradılması nəzərdə tutulan uydurma "Böyük Ermənistan" istəkləri ilə bağlıdır. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin əsas səbəbi də bunlardır. Əgər "Böyük Ermənistan" yaratmaq erməni xalqının milli idealı olaraq qalacaqsa, onda regionda heç vaxt daimi sülh, güclü iqtisadiyyat və səmərəli əməkdaşlıq olmayacaqdır, daim münaqişələr hökm sürəcəkdir.

Əlbəttə, Ermənistan siyasətinin arxasında başqa qüvvələr durur. Erməni tarixi əyani şəkildə göstərir ki, bu xalq iki yüz ildən bəri Avropaya, Amerikaya, Rusiyaya müraciyət edir, göz yaşı tökərək onlardan kömək gözləyir. Ermənilər bütün müraciətlərini dini mənsubiyyətləri və xristianlıqla əlaqələndirirlər. Tarixdən məlumdur ki, bir sıra Avropa dövlətlərində hissiyyatı oxşayan sözlər söylənilmiş, vədlər verilmiş, lakin son nəticədə ermənilərə arxa çevirilmiş, onların avantürasına uyulmamışdır. XIX-XX əsrlərdə erməni məsələsi ikitərəfli və bir sıra konfrasların sənədlərinə daxil edilsə də, Avropa dövlətləri onları kənara atmış və ermənilərin "prezervativ" hüququnu saxlamışlar. Məlum olmuşdur ki, 1871-1890-cı illərdə Almaniya kansleri olmuş Otto Bismark cılız bir alman əsgərinin sümüyünü bütün erməniliyə dəyişmək istəmir, Rusiya isə türk torpaqlarında yaradılmış Ermənistana sahib olmaq istəyir, ingilis gəmiləri ermənilərin iddia etdikləri ərazidə üzə bilmir.

İginci dünya müharibəsindən azca sonra dünya ermənilərinin "tarixi erməni" torpaqlarına sahib olmaq istəklərini Qərb dövlətləri qulaq ardına vurmuş, əvəzində xaricdən 1 milyon nəfərdən çox erməni gətirilərək Ermənistana yerləşdirilmiş, oradakı azərbaycanlılar isə tarixi torpaqlarımızdan qovularaq Azərbaycana pənah gətirmişlər.

Dağlı Qarabağ məsələsinin həllində isə ABŞ və Avropa dövlətləri heç şübhəsiz, ermənilərin əsassız iddialarını deyil, öz mənafelərini qoruyurlar. Məsələ xaricdəki erməni diasoprunun ümidinə qalmağa başlayır.

Ermənistan - Azərbaycan münasibətlərinin yaxşılaşması işğal olunmuş torpaqların azad edilməsindən, ərazi-sərhəd müqaviləsinin imzalanmasından, iddialardan və düşmənçilikdən əl çəkməkdən

keçir. Ermənilər başa düşməlidirlər ki, Azərbaycan onların dərd-sərini və istəyini Avropadan tez və yaxşı dərk edər.

Azərbaycanın xarici siyasətinin MDB iştirakçısı olan dövlətlərlə istiqamətində Mərkəzi Asiya ölkələri xüsusi yer tutur. Qazaxıstanla 1992-ci il avqustun 30-da, Özbəkistanla 1992-ci il yanvarın 4-də, Türkmənistanla 1992-ci il iyunun 9-da, Qırğızıstanla 1992-ci il yanvarın 19-da diplomatik münasibətlər quruldu. Bu dövlətlərlə ölkəmizin münasibətlərini, xarici siyasətimizdə onların tutduqları yeri əsasən aşağıdakı amillər səciyyələndirir.

Əvvəla, bu ölkələrin (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) xalqlarını bizimlə soy-kök, dil, din, mədəni, tarixi, coğrafi-siyasi tellər birləşdirir. Onlar Türksoy təşkilatında və türk dövlətləri başçılarının zirvə toplantısında birləşmişlər.

İkincisi, ölkələrimiz uzun illər boyu iqtisadi, siyasi və mədəni təsərrüfat sistemində vahid dövlətin tərkibində olmuşlar. Onların həyatının bütün sahələrində xeyli yaxınlıq vardır.

Üçüncüsü, Azərbaycan Mərkəzi Asiya xalqlarının Türkiyəyə və Qərbin Mərkəzi Asiya ilə əlaqələrində "Qızıl körpü" rolunu oynamışdır.

Dördüncüsü, Mərkəzi Asiya dövlətləri tarixən Çinə və Hindistana çıxmaqda strateji rol oynamışlar.

Beşincisi, Mərkəzi Asiya dövlətlərinin zəngin təbii sərvətləri, müstəqil dövlətçiliyi möhkəmləndirmək istəkləri xarici siyasətimizdə onların yerini daha da şərtləndirir.

Mərkəzi Asiya dövlətlərininAzərbaycanın xarici siyasətində tutduqları mühüm strateji yerə baxmayaraq, onlarla münasibətlərdə bir sıra qüsurlara yol verilmişdir.

Əvvəla, bəzi rəhbərlər Mərkəzi Asiya dövlətlərinin daxili işlərinə qarışaraq onlarda hələ də mövcud olan kommunist rejimləri ilə əməkdaşlığın qeyri-mümkünlüyünü bildirdilər. Nəticədə münasibətlər soyuqlaşdı, hətta Özbəkistan Daşkənd - Bakı hava xəttini bağladı. Hər hansı dövlətdə hər hansı rejimin mövcud olması həmin xalqın daxili işidir, suveren hüququdur, partiya, sinfi mənafeləri əsas götürərək, başqa dövlətlərin daxili işlərinə qarışmaq yolverilməzdir. Dövlətlərin münasibətləri mənafelərin tarazlığı üzərində qurulur.

İkincisi, Mərkəzi Asiya dövlətlərinin daxili işlərinə qarışmağın nəticəsində yaranmış soyuqluqdan istifadə edən



Ermənistan bu regionla sürətlə yaxınlaşdı və öz səfirliyini açdı. Belə vəziyyət isə bizim dövlət və milli mənafelərimizə qarşı yönəldilmişdi. "Diplomatiya özünə düşmən yox, dost qazandırmalıdır" müddəasını əsas götürsək, Mərkəzi Asiya dövlətləri ilə belə münasibətlərin bizim üçün nə qədər ziyanlı olduğu aydın görünür.

Üçüncüsü, bu dövlətlərlə münasibətdə Azərbaycanın məqsədləri dəqiq müəyyənləşdirilməmişdi. Şəxsi ambisiyalar və emosional çağırışlar dövlətin strateji və iqtisadi mənafelərini üstələyirdi. Müxtəlif dövlətlərin xarici siyasət xətti araında oxşarlıq və ya paralellik onların birinin digərinin yedəyində getməsi demək deyildir.

Dördüncüsü, bu dövlətlərdə səfirlik, konsulluq və ya səlahiyyətli nümayəndəliklərin açılmaması da buraxılan qüsurlardan idi. Dövlətimizin siyasi, iqtisadi, elmi-texniki, mədəni və nəhayət, strateji mənafeləri həmin ölkələrdə, heç olmasa, bu regionun bir ölkəsində səfirliyimizin açılmasını zəruri edirdi.

Qarşılıqlı münasibətlərdə buraxılmış bu nöqsanların nəticəsində ölkə daxilindəki bir sıra məsələlərin həllində çətinlik yaranırdı. Mərkəzi Asiya dövlətlərinin bəzisi türk dövlətləri arasındakı münasibətlərin inkişafındakı ümumi siyasi məsələlərin müzakirəsindən yan qaçırdı, hətta Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına qiymət vermək istəmirdi.

Lakin dövlətlərarası münasibətlərdə buraxılmış bir sıra qüsurlardan imtina edilməsi nəticəsində istiləşmə baş verdi. Qarşılıqlı münasibətlər üçün perspektivlər açıldı. Mərkəzi Asiya dövlətlərinə və Azərbaycana qarşılıqlı səfərlər, imzalanan sənədlər münasibətlərdəki soyuqluğu aradan qaldırdı, iqtisadi-siyasi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlığa yeni hüquqi-siyasi əsas verdi.

1993-cü il avqustun 16-da Azərbaycanın müxtəlif nazirliklərinin və baş idarələrinin nümayəndələrindən ibarət heyət Daşkənddə Özbəkistanla-Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq barədə müqavilə imzaladı.

Mərkəzi Asiya dövlətlərinin bir sıra ixrac məhsulları Azərbaycandan keçərək Qara dəniz limanları vasitəsilə Avropaya aparılır. Bu vəziyyət Mərkəzi Asiya dövlətləri üçün tranzit yolu

kimi Azərbaycanın əhəmiyyətini daha da artırır. Azərbaycanın tarixi rolu yenidən bərpa olunur.

Münasibətlərin rəvan inkişafı tərəflər üçün mühüm əhəmiyyət kəsb edir. Normal münasibətlər ölkələrimizi siyasi baxımdan müttəfiqlik səviyyəsinə qaldırır və dünya bazarında özünə yer tapa bilməyən və rəqabətə tab gətirməyən bu ölkələrin məhsullarının satılması üçün əlverişli şərait yaradır.

UKRAYNA RESPUBLİKASI 1992-ci il yanvarın 24-də Azərbaycana nota göndərdi, Azərbaycan Respublikası isə 1992-ci ilin fevralın 6-da cavab notası verdi.

1995-ci ildə UKRAYNA prezidenti L.Kuçma Azərbaycana rəsmi səfərə gəldi. Səfərin nəticəsində birgə rəsmi məlumat, Azərbaycanın Kiyevdə, Ukraynanın Bakıda səfirliklərinin açılması haqqında protokol imzalandı. Cəmi 11 sənəd-ticarət-iqtisadi əməkdaşlıq haqqında, azad ticarət haqqında, hava yolları haqqında, istehsal kooperasiyası haqqında, pensiya təminatı haqqında sazişlər, o cümlədən iki ölkənin nümayəndə heyətləri arasında danışıqların protokolu, neft-qazçıxarma sahəsində əməkdaşlıq haqqında saziş, siyasi məsləhətləşmələr haqqında protokol və s. imzalandı.

Bu sənədlər iki ölkə arasında siasi, ticarət-iqtisadi. Elmi-texniki və başqa sahələrdə əməkdaşlığın təməlini qoydu. Avropanın ərazi və əhalicə ən böyük ölkələrindən biri olan Ukrayna ilə əməkdaşlıq Azərbaycan üçün əhəmiyyətlidir. Eyni zamanda zəngin təbii sərfətləri olan, əlverişli coğrafi-siyasi mövqedə yerləşmiş Azərbaycanla əlaqələr Ukrayna üçün müstəsna dərəcədə əhəmiyyətlidir. Azərbaycan bir tərəfdən əlverişli ticarət-iqtisadi körpüdürsə, digər tərəfdən isə Ukrayna ilə Şərq ölkələri arasında etibarlı siyasi körpüdür.

MOLDOVA RESPUBLİKASINA 1992-ci il aprelin 28-də Azərbaycan Respublikası nota göndərdi, Moldova tərəfi isə 1992-ci il mayın 18-də cavab notası verdi; 1995-ci ildə MOLDOVANIN Baş naziri Andrey Sangelinin rəhbərliyi ilə hökumət nümayəndə heyətinin ölkəmizə qısamüddətli səfəri zamanı iki sənəd-niyyət protokolu və ölkələrimiz arasında yaxın beş il üçün ticarət-iqtisadi əməkdaşlığın prinsipləri barədə sazişlər imzalandı. Sənədlər iki ölkə arasında əməkdaşlığı daha da genişləndirməyi nəzərdə tuturdu.

Keçmiş sovet respublikaları ilə münasibətdə xarici siyasətimizdiki diqqətsizliklərdən biri də həmin ölkələrdə səfirlik,



konsulluq və ya səlahiyyətli nümayəndəliklərin açılmasının yubadılması idi. Dövlətimizin siyasi, iqtisadi, elmi-texniki, mədəni və nəhayət, strateji mənafelərinin həmin ölkələrdə səfirliklərin açılması işinin sürətləndirilməsini zəruri etməsinə baxmayaraq bu işə laqeyd münasibət bəslənirdi.

### *Avropa ölkələri ilə münasibətlər*

Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi başlıca yerlərdən birini tutur.

Müstəqillik elan edildikdən sonra 1993-cü ilin avqust ayınadək Avropanın 18 ölkəsi Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və bəziləri onunla diplomatik münasibətlər qurdu. Həmin ölkələr aşağıdakılar idi: İsveçrə, Finlandiya, Belçika, AFR, Niderland, Danimarka, Böyük Britaniya, Yunanıstan, İtaliya, Norveç, Fransa, Portuqaliya, Avstriya, İsveç, İslandiya, Kipr, İspaniya. Lüksemburq.

Azərbaycanla Avropa dövlətləri arasında əlaqələrin zəngin tarixi keçmişi vardır. Tarixi ənənələr, münasibətlərdə toplanmış müvafiq təcrübə və mövcud tarixi şərait, dövlətlərin regionumuzda məqsəd və vəzifələri indiki əlaqələrin inkişafını və perspektivlərini şərtləndirir. Azərbaycanın yerləşdiyi coğrafi-siyasi mövqe müxtəlif dövlətlərin maraqlarını tarixən olduğu kimi indi də ölkəmizdə toqquşdurur, yeni bazarlar əldə etmək uğrunda mübarizəni kəskinləşdirir. Müstəqillik qazanıldıqdan sonra Azərbaycanda qeyri-sabitliyin mövcud olmasının səbəblərindən biri də bununla bağlıdır.

Avropa ilə Asiya arasında körpü rolunu oynayan və "ipək yolu"nun üstündə yerləşən Azərbaycan özünün siyasi-iqtisadi və strateji əhəmiyyətinə görə Avropa dövlətlərinin marağına səbəb olmuşdur. Qədim, orta əsrlər, yeni və ən yeni dövrlərdə bu maraq həmişə üstünlük təşkil etmişdir. Orta əsr Avropa səyyahlarının məlum olan qiymətli əsərləri bu barədə çox şey deyir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində İngiltərə, Almaniya, İsveç və başqa Avropa dövlətlərinin şirkətləri Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə oturdular və onu inkişaf etdirdilər. Burada həmin dövlətlərin iqtisadi, siyasi və strateji mənafeləri çulğalaşırdı. Eyni zamanda Azərbaycanda Avropa dövlətlərinin mövqeləri toqquşurdu, gizli, bəzən də açıq ziddiyyətə çevrilirdi.

Bu istiqamətin həyata keçirilməsində məqsəd Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini möhkəmləndirmək, müstəqil dövlət quruculuğu üçün əlverişli beynəlxalq şərait yaratmaq, sabitlik əldə etmək, ölkənin azad bazar iqtisadiyyatı və demokratiya yolu ilə inkişafına kömək etmək və onu sivil dövlətlər cərgəsinə çıxarmaqdır.

Həmin məqsədləri həyata keçirməkdən ötrü Azərbaycan dövləti müxtəlif formalardan - ikitərəfli (yazışmalar, qarşılıqlı səfərlər, görüşlər, müzakirələr, protokol, saziş, müqavilə və başqa sənədlərin imzalanması və s.); çoxtərəfli (beynəlxalq və məhəlli təşkilatlarda birgə çalışmaqdan, sənədlərə edilən əlavə, düzəliş və dəyişikliklərdən, mövqeləri uzlaşdırmaqdan, əlaqələrdən, xalq diplomatiyasından) beynəlxalq əlaqələrdə iştirak edən müxtəlif yönümlü təşkilatların səylərindən və s. istifadə etmişdir.

Azərbaycanın xarici siyasətində Qərbi Avropa ölkələrinin tutduğu yer bir sıra amillərlə səciyyələnir:

Əvvəla, Avropa dövlətlərinin əksəriyyəti dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına daxildirlər. İkinci dünya müharibəsindən sonra, 50-ci illərdə meydana gələn ikinci iqtisadi güc mərkəzi kimi Qərbi Avropa sürətlə inkişaf edir, dünya bazarında başqa güc mərkəzləri ilə kəskin rəqabət aparır, qabaqcıl texnologiyasını və mallarını başqa ölkələrdə yerləşdirə bilir və iqtisadi cəhətdən nümunə rolunu oynayan qitədir. Azad bazar iqtisadiyyatı ilə irəliləyən Qərbi Avropa ölkələrinin təcrübəsi, texnologiyası Azərbaycana gərəklidir. Azərbaycan Avropaya üçüncü ölkə vasitəsilə deyil, özü birbaşa çıxmalı, möhkəmlənməli və tərəqqi etməlidir.

İkincisi, dünyanın siyasi və hərbi cəhətdən qüdrətli dövlətləri kimi Avropa ölkələri planetdəki ab-havaya, dövlətlərarası ikitərəfli və çoxtərəfli əlaqələrə, dünya siyasətinə təsir göstərirlər. Dünyanın bu və ya başqa regionunda baş verən hadisələrdə, münaqişələrin



həllində Avropa dövlətlərinin sözü həlledici və ya təsirli olur. Avropa dövlətləri ilə yaxınlaşmaq və əməkdaşlıq, onların mənfəətlərinin ödənilməsi ölkəmiz üçün təhlükəli olan Rusiya və İran tufanının qarşısını alır. Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, ölkəmizə qarşı xarici hərbi təcavüzün qarşısının alınmasına kömək edir. Deməli, belə əməkdaşlıq tərəflərə qarşılıqlı mənfəət verir.

Üçüncüsü, bir çox beynəlxalq təşkilatlar Avropada yerləşirlər. Qitə dövlətlərinin bir qismi onların yaradıcıları kimi böyük nüfuza malikdirlər. Həmin təşkilatlarda qəbul edilən qərarlar daha çox bu dövlətlərin mövqelərindən asılı olur. Deməli, onlarla əməkdaşlığın bu baxımdan da böyük əhəmiyyəti vardır.

Dördüncüsü, Avropa dövlətlərində qurulan və daim təkmilləşən demokratik cəmiyyət, qəbul edilən qanunlar başqa dövlətlər, o cümlədən Azərbaycan üçün örnək ola bilər. Ölkəmizin Avropa ölkələri ilə əməkdaşlığı demokratik cəmiyyət quruculuğuna, çoxpartiyalı sistemin möhkəmləndirilməsinə, dinc müxalifətin inkişafına, Azərbaycan cəmiyyətinin azad, açıq olmasına, kütləvi mədəniyyətin yayılmasına, mədəni sərvətlərin sərbəst mübadiləsinə kömək edərdi.

Beşincisi, Avropa dövlətlərinin paytaxtlarında səslənən bu və ya digər fikir dünya ictimai rəinə müvafiq təsir göstərir. Bu ölkələrlə əlaqələr Azərbaycan xalqı və dövlətinin müsbət imicinin formalaşmasına, dünyada qəbul olunmasına, ölkəmizin problemlərinin həllinə, başqa dövlətlərin iqtisadi, siyasi, mədəni, humanitar və mənəvi yardım göstərməsinə yardım edir.

Təkcə Avropa bizə lazım deyildir. Eyni zamanda biz Avropaya lazımıq. Azərbaycanın Avropa üçün əhəmiyyəti bir neçə amillərlə şərtlənmişdir. Həmin amillər aşağıdakılardır:

Əvvəla, Azərbaycan əlverişli coğrafi-siyasi və strateji mövqedə yerləşmişdir. Şərqə çıxmaqda, Asiyaya və Hind okeanına sahib olmaqda tarixən olduğu kimi, indi də Azərbaycan əlverişli tranzit rolunu oynayır. Avropa və Asiyanın qovuşacağında yerləşməsi, hər iki qitənin qabaqcıl dövlətləri ilə geniş əlaqələr qurmaq istəyi, tutduğu mövqe Azərbaycanı Avropa siyasəti üçün önəmli yerə çıxarır. Azərbaycanda möhkəmlənən hər hansı ölkənin regionda siyasi və strateji üstünlük qazanacağı şəksizdir. Buna görə

də Avropanın böyük dövlətləri - Böyük Britaniya, Almaniya, Fransa və başqaları ölkəmizə xüsusi diqqət yetirirlər.

Burada Avropa dövlətlərinin siyasi və iqtisadi maraqları çuğlaşır.

İkincisi, ölkəmizin zəngin təbii sərvətləri onu Avropa üçün önəmli edir. Dünyada mövcud olan 11 iqlim növündən 9-nun Azərbaycanda olması, zəngin təbii sərvətləri və onlara bu və ya başqa yollarla sahib olmaq istəyi, ölkəmizin iqtisadiyyatının azad bazar iqtisadiyyatına uyğun qurulması üçün addımların atılması Azərbaycanı Avropa üçün gərəkli edir. Azərbaycanın Avropa dövlətləri üçün gərəkli olduğunu və onların maraqlarını nəzərə alaraq təbii sərvətlərimizdən istifadəni siyasi, ümummilli və dövlət mənafelərimiz üçün strateji addımlara çevirmək üçün səylər göstərir.

Üçüncüsü, Azərbaycan xalqının sülhsevər təbiəti və dövlətinin sülhsevər xarici siyasəti, beynəlxalq normalara ciddi surətdə əməl etməsi və regionda sabitlik amili olması onu Avropa ölkələri üçün gərəkli edir.

Dördüncüsü, ölkəmizin demokratiya və azad bazar iqtisadiyyatı yolunu tutması, bu sahədə çoxlu qanunların qəbul edilməsi, bir sıra beynəlxalq və məhəlli təşkilatlara üzv olması Avropa ölkələri üçün Azərbaycanın əhəmiyyətini artırır.

Beşincisi, xalqımızın intellektual səviyyəsi, dövlətçilik ənənələri, müstəqillik istəkləri Avropanın marağını artırır.

Bu amillər Azərbaycanın Avropa üçün əhəmiyyətini artırır. Ondan ümumi, qarşılıqlı faydada və dövlət mənafelərinin qorunmasında istifadə etmək lazımdır. Bununla belə, Qərbi Avropa problemlərsiz də deyildir. İşsizlik kəskin problemdir. Bir sıra dövlətlər Avropa Birliyinin federallaşdırılması cəhdlərindən narahatdır. Avropalılar öz məcmu milli məhsulunun müəyyən hissəsini ABŞ ordusunun səviyyəsinə çatmaq üçün hərbi xərclərə sərf etmək istəmirlər, hətta bir-birilərinə ərazi iddiaları da vardır.

Siyasi və iqtisadi cəhətdən Qərbi Avropanın ən nəhəng ölkələrindən biri hesab olunan ALMANİYA ilə Azərbaycanın ənənəvi əlaqələri əsasən XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlanır. Bu dövrdə alman kapitalı Azərbaycan sənayesinin inkişafına kömək etmişdi. Eyni zamanda qeyd etmək lazımdır ki, hələ XIX əsrin əvvəlindən Azərbaycanda alman yaşayış məskənləri



yaradılmışdı. Vürtemberqdən çıxanlar Xanlar, (Yelendorf), Şəmkir (Anenberq) və Daşkəsəndə (Rüfergen) məskunlaşmışdılar. Almanlar sənaye şərabçılığının, metallurgiyanın və neft sənayesinin inkişafında böyük rol oynadılar.

İkinci dünya müharibəsindən sonra Almaniya demək olar ki, bütün sahələrdə sıçrayış etdi. Onun sənaye inkişafı və birləşməsi isə bu dövləti dünyanın nəhəng siyasi və iqtisadi gücünə çevirdi. Azərbaycanla Almaniya arasında münasibətlərin qurulmasına və inkişafına müsbət təsir göstərən amillərdən biri də bu ölkədə geniş azərbaycanlı diasporunun yaşaması idi.

Almaniya 1991-ci il dekabrın 12-də dövlət müstəqilliyimizi tanıdı, 1992-ci il fevralın 2-də diplomatik münasibətlər qurdu. Almaniya ilə münasibətlərdə tarixi ənənələri və yaxınlığı əsas götürərək Azərbaycan dövləti Avropada ilk dəfə olaraq bu ölkədə səfirlik açdı. 1992-ci ilin martın əvvəlində Almaniya bundestaqı deputatlarının Hans Yozef Fogel başda olmaqla nümayəndə heyətinin Azərbaycana səfəri, sentyabrın 2-də Almaniyada Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri Hüseynağa Sadıqovun prezident Rixard fon Vaytzekkerlə görüşüb etimad məktubunu ona təqdim etməsi xarici siyasətimizin Avropa işlərində ilkin addımları kimi qiymətləndirilməlidir.

1992-ci ilin sentyabrında respublika Ticarət Nazirliyinin, noyabrında isə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini başda olmaqla hökumət nümayəndə heyəti Almaniyaya səfər etdi.

1993-cü ilin yayında Almaniya ilə Azərbaycan arasında birbaşa hava xəti açıldı.

Azərbaycan Respublikasının dövlət katibi P.Hüseynov başda olmaqla nümayəndə heyətinin 1993-cü ilin yanvarında Almaniyaya səfəri bu illərin diqqəti cəlb edən hadisəsi

Müstəqilliyin ilk illərində Azərbaycanla Almaniya arasınddakı iqtisadi əlaqələrə də diqqət yetirmək vacibdir.

1992-ci ildə Almaniya ilə ticarətdə respublikanın idxalı 9620,6 dollar, ixracı 12941,5 dollar olmuşdusa, 1993-cü ildə idxalı 10292,4 dollar, ixracı isə 3680,9 dollar oldu. Bu dövrdə Azərbaycan Almaniyadan əsasən ərzaq məhsulları və xalq istehlakı şeyləri alırdı. Öz növbəsində Almaniyaya neft emalı sənayesi malları, əlvan

metallar, kimya və neft kimyası, maşınqayırma toxuculuq sənayesi məhsulları, ərzaq aə xalq istehlakı malları göndərirdi.

Almaniya ilə ikitərəfli əməkdaşlığı çərçivəsində 1994-cü il martın 7-14-də Milli Məclisin aqrar məsələlər komissiyasının sədri A.Rəhimzadə başda olmaqla nümayəndə heyəti bu ölkədə səfərdə oldu. Səfər müddətində nümayəndə heyəti Almaniya Bundestaqının sədri xanım R.Züsmutla görüşdü, parlament sədrinin məktubu ona təqdim olundu. Almaniyanın xarici işlər, iqtisadiyyat nazirliklərində, bir neçə şirkətlərdə görüşlər keçirildi. Görüşlərdə Azərbaycan üçün aktual olan siyasi məsələlər, o cümlədən Ermənistanın ölkəmizə hərbi təcavüzü, özəlləşdirmə və bazar iqtisadiyyatı, Almaniya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi.

1995-ci ildə Azərbaycan parlament nümayəndə heyəti Almaniya Bundestaqının sədri xanım Rita Züsmutun dəvəti ilə bu ölkədə səfərdə oldu. R.Quliyevin federal prezident Roman Hersoqla, Bundestaqın sədri xanım Rita Züsmutla, xarici işlər nazirinin birinci müavini Helmut Şeferlə görüşlərində ikitərəfli əlaqələri genişləndirməyin zəruriliyi göstərildi. Əməkdaşlıq Azərbaycanın xarici siyasətində Almaniyanın, Almaniyanın xarici siyasətində isə Azərbaycanın özünəməxsus yer tutduğunu göstərirdi.

Həmin ildə Almaniyanın xarici işlər naziri Klaus Kinkel, bu ölkənin ATƏT-dəki nümayəndəliyinin başçısı Künter Yottsen, iqtisadi əməkdaşlıq və inkişaf naziri Karl Ditrix Şpranger Almaniyanın digər rəsmi və işgüzar adamları, xarici işlər nazirinin birinci müavini Helmut Şefer, həmin nazirliyin Güney Qafqaz və Orta Asiya şöbəsinin müdiri Enno Barger, AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Məclisinin vitse-prezidenti Villi Vimmer Azərbaycanda oldular. Klaus Kinkelin səfəri zamanı iki ölkə arasında maliyyə və texniki əməkdaşlıq haqqında memorandum, investisiyaların qorunması və b. barədə sənədlər imzalandı. Sənədlərin imzalanması Azərbaycan-Almaniya əlaqələrinin hüquqi-siyasi təməlini qoydu, əməkdaşlığın istiqamətlərini müəyyənləşdirdi.

FRANSADA antiazərbaycan əhval-ruhiyəsinin üstünlüyünə baxmayaraq bu ölkə ilə münasibətlərdə Azərbaycanın xoş məramı diqqət cəlb edirdi.

Fransa 1992-ci il 3 yanvarda Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il 21 fevralda onunla diplomatik



münasibətlər qurdu. Fransa xarici işlər nazirinin müavini Bernar Kuşner Azərbaycana səfər etdi. Fransa Qarabağın hər iki icmasına yardım göstərən ilk ölkələrdən biri oldu. O, Naxçıvana da yardım göstərdi.

Fransa ilə münasibətlərdə bir sıra diqqətsizliklərə yol verilmişdi. Hər şeydən əvvəl, bu ölkədə erməni diasporunun güclü olmasını və onun Ermənistana xoş münasibət bəsləməsini əsas götürərək orada iş aparılmırdı, bu ölkəyə passiv münasibət bəslənilirdi. Fransanın rəsmi nümayəndələri, jurnalistləri Azərbaycana dəvət edilmirdilər. Əslində mövcud münasibətlər və aparılan iş teleqramlar və müktublar göndərməklə məhdudlaşırdı. Sistemli və səmərəli fəaliyyət göstərilməsə də, çox vaxt Fransa tərəfini təqsirləndirənlər tapılırdı. Lakin unudulurdu ki, bu ölkə ilə siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi Fransanın xarici siyasətində Azərbaycana münasibətdə müsbət dəyişiklik yaratmağa kömək edərdi. Və hər hansı ölkədə qarşıdurma ilə deyil, mehribanlıqla, xoş münasibətlərlə möhkəmlənmək olardı. Fransa kapitalının Azərbaycana cəlb olunması iqtisadiyyatın dirçəlməsində müəyyən rol oynayır.

Fransa Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfinə iki ölkə arasında «Dostluq, qarşılıqlı faydalı əməkdaşlıq haqqında müqavilə» layihəsini birgə hazırlamaq barədə təklifinə vaxtında cavab verilməməsi normal münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə mane olurdu.

Fransa ilə münasibətlərin düzgün qurulmaması nəticəsində BMT Təhlükəsizlik Şurasında Dağlıq Qarabağdakı vəziyyət müzakirə edilərkən bu ölkənin daimi nümayəndəsi hər vəchlə münaqişəni «Dağlıq Qarabağ-Azərbaycan» münaqişəsi kimi qələmə verməyə, ərazilərin tutulmasını «yerli erməni özünümüdafiə qüvvələrinin» işi kimi qiymətləndirməyə və Ermənistanı münaqişə iştirakçısı olmaqdan uzaqlaşdırmağa çalışırdı. Hətta BMT-nin Bakıdakı daimi nümayəndəsi Mahmud Əl Səidin Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüzkarlıq faktları barədə məruzəsi Təhlükəsizlik Şurasında müzakirə edilərkən Fransa səfiri bu bitərəf şəxsin verdiyi faktlara belə inanmayaraq etiraz etdi.

Respublika xarici işlər naziri H.Həsənovun 1993-cü ilin dekabrın əvvəllərində Parisdə Fransanın bir çox rəsmi adamları və prezident Fransua Mitteranla görüşü Azərbaycan-Fransa

münasibətlərində bir sıra məsələlərdə aydınlıq yaratmaqda kömək etdi. Prezidentlə görüşdə iki ölkə arasındakı münasibətlər müzakirə edildi. Azərbaycan prezidentinin məktubu ona təqdim olundu. Fransa tərəfi Ermənistanla dost olduğunu, Azərbaycanla isə düşmən olmadığını bildirdi.

Dekabr ayında F.Mitteran Azərbaycana məktub göstərərək ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini, Dağlıq Qarabağ məsələsinin dinc siyasi vasitələrlə həllinə tərəfdar olduğunu bildirdi.

Fransa Respublikasının prezidenti Fransua Mitteranın dəvəti ilə Azərbaycan Respublikasının prezidenti H. Əliyev 1993-cü il dekabrın 19-dan 22-dək bu ölkədə səfərdə oldu.

Səfər zamanı yüksək səviyyədə Fransa-Azərbaycan danışıqları keçirildi. Fransanın dövlət rəhbərləri, ziyalıları, iş adamları və ictimaiyyətin nümayəndələri ilə Azərbaycan rəhbərinin görüşləri oldu.

İki ölkə prezidentlərinin danışıqlarında Fransa ilə Azərbaycan arasında iqtisadiyyat, mədəniyyət, elm, təhsil və digər sahələrdə uzunmüddətli əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı. Danışıqlarda Azərbaycan torpağında gedən müharibə ilə əlaqədar məsələlərə geniş yer verildi. Fransua Mitteran bildirdi ki, Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıyır və onu dəstəkləyir. Bu tarixi görüş Azərbaycanla Fransa və digər Avropa ölkələri arasında sıx əməkdaşlığın əsasını qoydu. Səmimilik və mehribanlıq şəraitində keçən yüksək səviyyəli danışıqlardan sonra prezidentlər Yelisey sarayında Azərbaycan ilə Fransa arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzaladılar.

Respublika prezidenti ATƏT-in sənədlərindən biri olan yeni Avropa üçün Paris xartiyasına Azərbaycanın qoşulması barədə sənədi də imzaladı.

Sənədlərin imzalanması mərasimindən sonra prezidentlər jurnalistlərin qarşısında bəyanat verərək bu hadisənin böyük əhəmiyyətindən danışdılar.

Azərbaycan prezidenti Fransada yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə görüşərək onlara respublikada ictimai-siyasi vəziyyət, Ermənistan silahlı qüvvələrinin təcavüzünün qarşısını almaq üçün görülən tədbirlər haqqında məlumat verdi.



Prezident Parisdəki Senklu qəbiristanında xalqımızın görkəmli oğulları Əlimərdan bəy Topçubaşovun və onun ailə üzvlərinin, Ceyhun bəy və onun oğlu Timuçin Hacıbəylilərin məzarlarını ziyarət edərək əklil qoydu.

Azərbaycan dövlətinin başçısı və onun müşayiət edən şəxslər Luvr sarayına gedərək bu möhtəşəm muzeydə nümayiş etdirilən sənət əsərləri ilə tanış oldular.

Respublika prezidenti Fransa Xarici İşlər Nazirliyi yanında diplomatik mətbuat assosiasiyasının üzvləri ilə görüşdü. Azərbaycanda müstəqil dövlət quruculuğu, demokratiyanın inkişafı, Ermənistanın ölkəmizə qarşı təcavüzü, qaçqınların vəziyyəti, məharibəyə son qoymaq üçün respublikamızın sülh təşəbbüsləri barədə danışdı, jurnalistlərin suallarına cavab verdi.

Azərbaycan rəhbəri ölkənin işgüzar nümayəndələrinin dəvətini qəbul edərək Fransa Sahibkarlarının Milli Mərkəzində iş adamları ilə görüşdə çıxış edərək müstəqil Azərbaycan dövlətinin qarşılaşdığı problemlər, ölkəmizin bazar iqtisadiyyatı yolunu seçməsi, beynəlxalq iqtisadi əməkdaşlığa böyük maraq göstərməsi barədə söhbət açdı.

Azərbaycan dövləti başçısının Fransanın xarici işlər naziri Alen Jüppe ilə görüşündə yüksək səviyyədə Fransa-Azərbaycan danışıqlarının ölkəmiz arasında münasibətlərin möhkəmləndirilməsində mühüm rolu qeyd edildi və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

Fransa Diplomatiya Akademiyasında Azərbaycan Respublikasının prezidenti ilə görüş keçirildi, onun şərəfinə ziyafət verildi. Azərbaycan dövlətinin başçısı akademiyanın üzvləri qarşısında geniş nitq söylədi.

O, Parisdə **YUNESKO**-nun iqamətgahına gedərək təşkilatın baş direktoru Federiko Mayor ilə görüşdü. Görüşdə **YUNESKO**-nun respublikamızla əlaqələrini genişləndirməyin perspektivləri, xüsusən onun Azərbaycan üzrə milli komissiyasının yaradılması məsələləri müzakirə olundu. Qeyd edildi ki, yaxın vaxtlarda YUNESKO erməni təcavüzü nəticəsində zərər çəkmiş təhsil və mədəniyyət müəssisələrinin fəaliyyətinin bərpasında respublikamıza yardımın həcmini müəyyən etmək üçün Azərbaycana beynəlxalq missiya göndərmək niyyətindədir.

Federiko Mayor ona YUNESKO-nun xatirə medalını təqdim etdi.

Azərbaycan prezidentinin iqamətgahında Fransaya səfərinə həsr olunmuş mətbuat konfrası keçirildi. Azərbaycan rəhbəri jurnalistlər qarşısında çıxış etdi və onların suallarına cavab verdi, Fransanın sənaye, rabitə, telekommunikasiya və xarici ticarət naziri Jerar Lonke ilə görüşdü. Söhbət zamanı iki ölkənin sənaye sahəsində əməkdaşlığı üçün yaranan imkanlar müzakirə edildi.

Azərbaycan dövlətinin başçısı Fransa senatının yerləşdiyi Lüksemburq sarayına getdi, senatın sədri Rene Monori ilə görüşüb söhbət etdi. Rene Monori senatın fəxri medalını ona təqdim etdi. Respublika prezidenti senatın fəxri qonaqlar üçün qızıl kitabına avtoqraf yazdı.

Prezident öz iqamətgahında Fransanın «Tomson» firmasının rəhbərlərindən biri olan Filipp Jiskar d'Esteni və ölkənin humanitar məsələlər üzrə naziri xanım Mişo Şevrini qəbul etdi və Fransanın TV-5 televiziya kanalı ilə çıxış etdi.

Azərbaycan Respublikası prezidentinin Fransa Respublikasına səfəri iki ölkənin dövlət başçıları arasında birbaşa ünsiyyət yaradılmasında, ölkələrimizin qarşılıqlı münasibətlərinin möhkəmləndirilməsind, siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişafında mühüm rolu olan səfərdir. Görüşlər və danışıqlar zamanı Azərbaycan həqiqətləri yüksək səviyyətdə izah və şərh edildi, müstəqil demokratik dövlət quruculuğunda, bazar iqtisadiyyatına keçid yolunda həyata keçirilən tədbirlər, respublikamızın ərazi bütövlüyünü pozan Ermənistanın işğalılıq siyasəti barədə təsəvvür yaradıldı, xalqımızın haqq işinin başa düşülməsi və müdafiə edilməsi üçün fəaliyyət göstərildi. Azərbaycan ilə Fransa arasında gələcək əlaqələrin istiqamətlərini müəyyənləşdirən dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə münasibətlərimizin inkişafında mərhələ kimi qiymətləndirilməlidir.

Fransaya səfər Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmlənməsinə, müstəqil və suveren dövlət kimi onun nüfuzunun artmasına xidmət etdi.

1992-ci ildə Fransa ilə ticarət-iqtisadi əlaqələrdə respublikanın idxal payı 26834,6 dollar, ixracı 1470,0 dollar, 1993-cü ilin əvvəllərində isə idxalı 397,0 dollar, icraçı isə 978,1 dollar təşkil etmişdi.



1994-cü ildə Fransa parlamentinin xarici işlər komissiyasının üzvü Rolan Blüm, «Reno» avtomobil şirkətinin nümayəndə heyəti, parlamentin xarici işlər komissiyasının sədr müavini Ameri de Monteskyü və b. Azərbaycana səfər etdilər. Səfərlər zamanı ikitərəfli parlament və iqtisadi əlaqələr müzakirə olundu. Səfərlər Fransa rəsmi dairələrində mövcud olan «Ermənistan dostumuzdur, Azərbaycan isə düşmənimiz deyildir» fikrinə tədrici dəyişiklik etməyə başladı, Fransa ilə ciddi ikitərəfli əlaqələr qurulmasının, Parisin Azərbaycana etibarlı ortaq kimi baxmasının əsası qoyuldu.

1995-ci ildə bu əlaqələr davam etdirildi. Fransa Xarici İşlər Nazirliyinin Baş katibi Bertrak Düfurq Azərbaycana səfər etdi. Səfər zamanı iki ölkə arasında siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlıq məsələləri müzakirə edildi.

Həmin ildə Azərbaycan prezidenti faşizm üzərində qələbə təntənələrində iştirak etmək üçün Fransaya getdi. Bu il o, Fransanın baş naziri Alen Jupe, prezident Jak Şirakla görüşüb danışıqlar apardı. Fransa tərəfi Azərbaycanın ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət etdiyini bildirdi.

Qitənin nəhəng və nüfuzlu dövlətlərindən biri olan **BÖYÜK BRİTANİYA** ilə də münasibətlərin qurulması və inkişafı xarici siyasətimizin ilk addımı kimi uğurlu hesab edilə bilər. Böyük Britaniya 1991-ci il 31 dekabrda Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il 11 martda diplomatik münasibətlər qurdu. 1992-ci ilin martın 11-12-də Böyük Britaniyanın xarici işlər naziri və birlik işləri naziri Duqlas Hoqqun, avqustun 3-6-da Böyük Britaniya Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin, sentyabr ayında isə Böyük Britaniyanın keçmiş Baş naziri M.Tetçerin Bakıya səfəri və «Britiş Petrolium» şirkətinin sərgisinin açılışında iştirakı, yenə həmin ayın sonunda Böyük Britaniyanın ticarət və sənaye naziri Maykl Hezltaynın və digər rəsmi şəxslərin Azərbaycana səfəri əhəmiyyətli oldu. Bu səfərlərdə müzakirə edilən məsələlərin və əlaqələrin öyrənilən dövrdəki vəziyyətinin təhlili Böyük Britaniya ilə münasibətlərin inkişaf etdirilməsinin və genişləndirilməsinin zəruriliyini irəli sürürdü. Nəticədə iki ölkə arasında qarşılıqlı səfərlər artdı. 1992-ci ilin sentyabrında respublika Müdafiə Nazirliyinin, 1993-cü ilin mayında Azərbaycan hökumətinin nümayəndə heyətləri

Böyük Britaniyaya səfər etdilər. Həmin il mayın 19-28-də Azərbaycan Respublikasının Baş naziri P.Hüseynov bu ölkədə oldu.

İngiltərənin Azərbaycanla yaxınlaşmasının bir sıra mühüm səbəbləri var idi. Bunlar siyasi, iqtisadi və strateji mənafeləri əhatə edirdi. Böyük Britaniya tarixən olduğu kimi indi də Azərbaycanda möhkəmlənməkdə, gələcəkdə onun vasitəsilə Fars körfəzinə və Asiyanın digər ölkələrinə çıxmaqda və beləliklə də rəqiblərini geri qoymaqda maraqlı idi.

İki ölkə arasında təhsil sahəsində əməkdaşlıq barədə razılıq əldə edildi. Britaniya Şurası «Britiş Petrolium» və «Statoyl» alyansının yardımı ilə Bakıda «İşgüzar ingilis dili» kursları təşkil etdi.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığında Böyük Britaniyanın tutduğu ədalətli və obyektiv mövqe ölkəmiz və xalqımız tərəfindən rəğbətlə qarşılandı. Böyük Britaniyanın Baş naziri Con Meycor Azərbaycana məktub göndərərək birmənalı şəkildə bildirdi ki, «Dağlıq Qarabağı Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qəbul edir və onun başqa hər hansı statusunu tanımayacaqdır». Eyni zamanda BMT Təhlükəsizlik Şurasının iclasında Dağlıq Qarabağdakı vəziyyətin müzakirəsi zamanı sədrlik edən Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi səfir Devid Xanney obyektiv mövqe tutdu və 853 nömrəli qətnamənin qəbul edilməsinə kömək etdi.

Böyük Britaniya ilə əlaqələrin inkişafında özünəməxsus rolu 1993-cü ilin oktyabında bu ölkənin parlament nümayəndə heyətinin ölkəmizə səfəri tutur. Parlament üzvlərinin ölkə rəhbərləri ilə görüşlərində ikitərəfli siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrin inkişafı müzakirə olundu. Böyük Britaniya ilə Azərbaycan arasında parlament əlaqələrinin genişləndirilməsi və səmərəliliyinin artırılması zəruriliyi qeyd edildi.

Parlament üzvlərinin Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarından olan qaçqınlarla görüşü Ermənistanın təcavüzkarlığının konkret nəticələri ilə tanış olmaqda onlara köməklik göstərdi. Öyrənilən illərdə iki ölkə arasında əlaqələrin qurulması və inkişafında Böyük Britaniyanın Azərbaycandakı «BiPi» neft şirkəti xüsusi rol oynadı. Bu əlaqələrlə hər iki tərəfin iqtisadi və siyasi mənafelərinin çulğalaşması baş verdi.



1993-cü ilin oktyabrın əvvəllərində Böyük Britaniyanın xarici işlər naziri Duqlas Hoqqun Azərbaycana səfəri və keçirdiyi görüşlər həm ikitərəfli münasibətlər, həm də regionda sülhün və təhlükəsizliyin taleyi baxımından əhəmiyyətli idi.

Səfər zamanı xarici siyasət idarələri başçıları iki sənədi-birgə bəyannaməni və iki dövlət arasında münasibətlərin tənzimlənməsi haqqında bəyannaməni qəbul etdilər. Əslində bu, Azərbaycan-Böyük Britaniya münasibətlərində yeni keyfiyyət mərhələsinin başlınğıcı üçün zəmin hesab edilə bilərdi.

Böyük Britaniyanın xarici işlər nazirinin səfərinin böyük əhəmiyyəti var idi. İki ölkə arasındakı münasibətlər qətiyyən üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəldilməmişdi. Bu münasibətlər sülhə, əmin-amanlığa və təhlükəsizliyə xidmət edirdi.

Görüşlər zamanı keçirilən müzakirələrdə beynəlxalq hüquq normalarına, ATƏT prinsiplərinə və BMT nizamnaməsinə uyğun olaraq Azərbaycanın sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyünün pozulmağı bir daha təsdiqləndi. Böyük Britaniya münaqişənin əvvəlindən Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etdiyini yenidən nümayiş etdirdi. Duqlas Hoqq bu mövqeni Ermənistan prezidentinə birmənalı şəkildə bildirdiyini söylədi.

Səfər zamanı tərəflər qarşılıqlı faydalı siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd etdilər.

Azərbaycan-Böyük Britaniya münasibətlərinin geniş perspektivləri vardır, bundan da səmərəli istifadə olunmalıdır.

Əvvəla, belə səfərlər epizodik hal daşımamalı, sistematik və qarşılıqlı olmalıdır. Dövlət orqanları, hakimiyyətin üç qanadı belə əməkdaşlıqda fəal iştirak etməlidir. İkincisi, iki ölkə arasında ticarət-iqtisadi əlaqələr xeyli genişləndirilə bilər. Üçüncüsü, iki ölkə arasında ictimaiyyətin əlaqələri, idman, turizm və b. sahələrdə əməkdaşlıq qurulmalı və genişləndirilməlidir. Bunun Azərbaycana böyük xeyri dəyə bilər. Dördüncüsü, iki ölkə arasında səmərəli informasiya mübadiləsi təşkil edilə bilər. Belə mübadilə Azərbaycanı dünyaya daha geniş çıxara bilər.

Digər Qərbi Avropa ölkələri ilə müqayisədə Böyük Britaniya və Azərbaycan arasındakı ticarət-iqtisadi əlaqələri daha çox uğurlu hesab etmək olar. 1992-ci ildə bü ölkə ilə ticarətdə

Azərbaycanın idxal payı 41428,3 dollar, ixracı 144907,5 dollar təşkil etmişdisə, 1993-cü ildə idxalı 1812,8 min dollar, ixracı isə 814,1 min dollar təşkil etmişdi. Azərbaycana Böyük Britaniyadan neft emalı, kimya və neft kimya, yüngül, toxuculuq sənayesi məhsulları, ərzaq və xalq istehsalı məhsulları gətirilirdi, ora isə neft məhsulları, əlvan metallar, maşınqayırma və toxuculuq sənayesi məhsulları, xalq istehlakı malları göndərilirdi.

1994-cü ildə Azərbaycan prezidenti Böyük Britaniyanın Baş naziri Con Meycorla iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni, daha altı mühüm sənədi, iqtisadi əməkdaşlığa dair səkkiz sənəd imzaladı. Səfər iki ölkə arasındakı münasibətlərə yeni keyfiyyət halı verdi.

Eyni zamanda Böyük Britaniya parlamentinin üzvü Harold Elletson və b. ölkəmizə səfər etdilər. Görüşlərdə ikitərəfli siyasi, ticarət-iqtisadi əlaqələr müzakirə olundu.

1995-ci ildə Böyük Britaniyadakı Adam Smit institutunun baş direktoru Maykl Bell, xarici işlər və millətlər birliyi işləri nazirinin MBD və Şərqi Avropa ölkələri üzrə baş müşaviri Frense Riçard və b. ölkəmizə səfərləri ilə münasibətlər inkişaf etdirildi.

Həmin ildə Azərbaycan prezidenti faşizm üzərində qələbə təntənələrində iştirak etmək üçün Böyük Britaniyaya səfər etdi. Səfər zamanı o, ölkə rəhbərləri ilə, tədbirdə iştirak edən bir sıra ölkələrin dövlət və hökumət başçıları ilə görüşdü. Londonda keçirilən «Azərbaycanın investisiya imkanları» mövzusundakı beynəlxalq konfransda Azərbaycan prezidenti iştirak etdi. Səfər müddətində o, Böyük Britaniya Baş nazirinin birinci müavini, dövlət naziri Maykl Hezltaynla, xarici işlər və birlik ölkələri üzrə naziri M.Rifkindlə görüşdü, Azərbaycan səfirliyinin binası açıldı. Bütün bu əlaqələr Böyük Britaniyanın xarici siyasətində Azərbaycanın tutduğu yerin yüksəldiyini göstərirdi.

İtaliya 1992-ci il 1 yanvar tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il 8 mayda onunla diplomatik münasibətlər qurdu.

İtaliya Avropanın siyasi və iqtisadi həyatında aparıcı yerlərdən birini tutur, AİB-dəki ortaqları ilə sıx əlaqələr saxlayır. O, Avropa ilə yaxşı münasibətlərdədir. Roma katolikizmin mərkəzidir və 50-dən çox beynəlxalq katolik təşkilatına rəhbərlik edir. Bu ölkə ilə siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin qurulması hər iki



ölkəyə xeyir verdi. Respublika Səhiyyə Nazirliyi İtaliyanın tibb müəssisələri ilə mədəniyyət və incəsənt abidələrinin bərpası və qorunması üzrə respublika təşkilatı isə İtaliyanın müvafiq təşkilatları ilə əlaqələr yaratdılar.

1992-ci ilin dekabrında Bakı şəhəri başçısının rəhbərliyi altında hökumət nümayəndə heyəti İtaliyaya səfər etdi. 1993-cü ilin iyun ayında Baş nazirin müavininin İtaliya səfəri zamanı iki ölkə arasındakı münasibətlərin geniş məsələləri müzakirə olundu.

İtaliya ilə siyasi münasibətlərin inkişafı ilə yanaşı olaraq ticarət-iqtisadi münasibətlər də inkişaf edirdi. Azərbaycan İtaliyadan toxuculuq sənayesi malları, ərzaq məhsulları və xalq istehlakı şeyləri alırdı. İtaliyaya isə neftayırma sənayesi məhsuları, əlvan metallar, kimya və neft kimyası, maşınqayırma, yüngül sənayesi məhsulları və xalq istehlakı malları göndərirdi.

İtaliya ilə ticarət-iqtisadi əlaqələrdə 1992-ci ildə Azərbaycanın idxalı 4838,4 dollar, ixracı 18988,1 dollar idisə, 1993-cü il yanvar-iyun aylarında idxal 1233,9 dollar, ixrac isə 11500,9 dollar idi.

**İSPANİYA** 1991-ci il 31 dekabrda Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il 11 fevralda onunla diplomatik münasibətlər qurdu. İspaniya BMT Təhlükəsizlik Şurasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın obyektiv mövqeyini müdafiə etdi. 1992-ci ilin iyulunda Respublika Dövlət İdman Komitəsinin nümayəndə heyəti İspaniyada oldu. İki ölkə arasında ticarət-iqtisadi əlaqələrdə 1992-ci ildə Azərbaycanın idxal payı 504,0 dollar, ixrac payı isə 152,7 dollar idi. İspaniyadan ərzaq malları və xalq istehlakı şeyləri alınırdı, oraya isə toxuculuq sənayesi mhsulları göndərilirdi.

**PORTUQALİYA** 1992-ci il 7 yanvarda Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı və 1992-ci il 4 avqustda onunla diplomatik münasibətlər qurdu. Lakin çoxtərəfli əlaqələr üçün addımlar atılmadı.

Regionumuzun bilavasitə yaxınlığında yerləşən **YUNANISTANDA** erməni lobbisinin güclü olması bu ölkənin erməni-azərbaycanlı münaqişəsində tutduğu mövqeyə, Türkiyə və Şimali Kipr Türk Respublikasına görə bütövlükdə Azərbaycanla münasibətlərə təsir göstərirdi. Yunanıstan 31 dekabr 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 2 aprel 1992-ci ildə

diplomatik münasibətlər qurdu. 1993-cü ilin yayında isə Bakıda da öz səfirliyini açdı.

1992-ci ilin avqustunda Azərbaycan Respublikası Milli Bankının, 1993-cü ilin mayında isə hökumət nümayəndə heyətinin Yunanıstana səfəri oldu.

1993-cü il 4-5 iyunda Yunanıstan xarici işlər nazirinin müavini xanım V.Sidoru ölkəmizə gəldi.

İki ölkə arasında ticarət-iqtisadi əlaqələr də quruldu və inkişaf etdirildi. 1992-ci ildə Azərbaycan Respublikasının Yunanıstanla ticarət əlaqələrində idxal 53,9 min dollar, ixrac 3712,1 dollar təşkil edirdisə, 1993-cü ilin yanvar-iyun aylarında idxal 21,9 min dollar, ixrac 21301,2 dollar təşkil edirdi. Azərbaycan Yunanıstana neftayırma mənayesi məhsulları və xalq istehlakı malları ixrac edirdi.

Avropanın siyasi həyatında BENİLÜKS ÖLKƏLƏRİ (Belçika, Niderland, Lüksemburq) təsirli rol oynayırlar. Bu ölkələrdə çoxlu beynəlxalq və məhəlli təşkilatların iqamətgahları yerləşir.

**NİDERLANDDA** nüfuzlu azərbaycanlı diasporu vardır. Niderland yüksək inkişaf etmiş sənaye-aqrar ölkəsidir. Bu ölkə ilə ticarət-iqtisadi əlaqələrin inkişafı qarşılıqlı fayda verərdi. Niderland 1991-ci il 31 dekabrda Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il 1 apreldə onunla diplomatik münasibətlər qurdu.

1992-ci il 24-25 apreldə Niderland Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Azərbaycana gəldi. 1993-cü ilin mayında respublika Dövlət İdman Komitəsinin nümayəndə heyəti Niderlanda səfər etdi.

Niderlandla ticarət-iqtiadi əlaqələrlə 1992-ci ildə Azərbaycanın idxalı 2950,8 dollar, ixracı 223,9 dollar təşkil edirdisə, 1993-cü ilin yanvar-iyun aylarında idxal 897,6 dollar, ixracı isə 27,6 min dollar idi. Azərbaycan Niderlanddan kimya və neft kimya sənayesi məhsulları, ərzaq malları alırdı. Niderlanda isə yüngül sənaye məhsulları, ərzaq malları və xalq istehlakı şeyləri göndərilirdi.

**BELÇİKA** dünya səyasətinin mərkəzlərindən biridir. Belçikada NATO, AİB və s. təşkilatların iqamətgahları yerləşir. Belçika 1991-ci il 31 dekabrda Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il 20 fevralda isə diplomatik münasibətlər qurdu.

1992-ci ildə Azərbaycanın Belçika ilə ticarət-iqtisadi əlaqələrində idxalı 5756,5 dollar, ixracı 3715,5 dollar təşkil edirdi.



Azərbaycan Belçikadan ərzaq malları, xalq istehlakı malları, əlvan metallar alırdı. Öz növbəsində Belçikaya əlvan metallar və xalq istehlakı şeyləri göndərirdi.

**LÜKSEMBURQ** 1992-ci il 1 iyunda Azərbaycanın dövlət müstəqilliyini tanıdı. Buna baxmayaraq iki ölkə arasında əlaqələr zəif idi. İki ölkə arasında ticarət-iqtiadi əlaqələrdə Azərbaycanın ixrac payı 1992-ci ildə 71,4 min dollar idi. Azərbaycan bu ölkəyə əsasən xalq istehlakı malları göndərirdi.

**İSVEÇRƏ** 1991-ci il 23 dekabrda Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il 21 yanvarda onunla diplomatik münasibətlər qurdu. 1993-cü ilin aprelində İsveçrəyə respublika baş nazirinin birinci müavini başda olmaqla hökumət nümayəndə heyəti səfər etdi. Siyasi əlaqələrin qurulması tədricən ticarət-iqtisadi münasibətlərə də təsir göstərdi. 1992-ci ildə iki ölkə arasında ticarətdə Azərbaycanın idxal payı 727,4 min dollar idi. Ölkəmiz İsveçrədən ərzaq malları, xalq istehlakı şeyləri alırdı. Ona neft emalı sənayesi, əlvan metal, kimya və neft kimyası sənayesi məhsulları və b. göndərirdi.

**DANİMARKA** ilə əlaqələrin qurulması və 1992-ci il aprel ayının 28-30-da Azərbaycan nümayəndə heyətinin səfəri Avropanın şimalındakı ölkələrə respublikamızın diqqət verməsinin göstəricisi ola bilər. Lakin sonralar bu ölkə ilə əlaqələrin inkişafı üçün əsaslı addımlar atılmadı.

**İSVEÇRƏ** ilə Azərbaycan arasındakı əlaqələr də diqqəti cəlb edir. 1992-ci il iyulun 17-də İsveçrənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Jan Pyer Ritterin səfəri və Azərbaycan prezidenti ilə görüşü də ilkin addım idi.

**VATİKANLA** münasibətlər əhəmiyyətlidir. 1992-ci ilin aprelin əvvəllərində Françesko Kolasuon başda olmaqla Vatikan nümayəndə heyəti Azərbaycanda olarkən diplomatik münasibətlər quruldu. Lakin sonralar Roma papası III İohan Pavelin beynəlxalq hüquq normalarını pozaraq üzdəniraq «DQR» nümayəndələrini qəbul etməsi Azərbaycan tərəfinin etiraz notası verməsinə səbəb oldu. Bu isə münasibətlərdə qısa müddət üçün soyuqluq əmələ gətirdi.

Dövlətimizin Avropa ölkələri ilə əməkdaşlığ tərəflərin imkanlarından aşağıdır. Lakin onun geniş perspektivləri vardır. Əməkdaşlığı daha da inkişaf etdirməkdən ötrü bir sıra işlərin görülməsi vacibdir.

İqtisadi əlaqələr sahəsində: Avropa ölkələrinin maliyyə, iqtisadi və texniki təşkilatları, sərmayələr ölkəmizə daha çox cəlb edilməli, onların fəaliyyəti və qorunması üçün əlverişli şərait yaradılmalıdır; ölkəmizə xammal bazası kimi baxılmamalıdır. Qərb texnologiyası Azərbaycana gətirilməli, müvafiq proqramlar işlənib hazırlanmalı və həyata keçirilməlidir; müştərək müəssisələrin yaradılmasına və inteqrasiya proseslərinin genişləndirilməsinə xüsusi diqqət verilməlidir: neft konsorsiumunda iştirak edən dövlətlərlə çoxsahəli əlaqələr qurulmalı və onlardan qarşılıqlı siyasi və iqtisadi mənafelər naminə istifadə edilməlidir, neft sənayesi bazasında Qərb texnologiyasına söykənən çoxsahəli iqtisadi struktur yaradılmalıdır.

Siyasi əlaqələr sahəsində: Qərb ölkələri - Azərbaycanda siyasətlərini birbaşa həyata keçirməlidirlər. Lakin bu, Azərbaycanın tapdağa çevrilməsi olmamalıdır. Onlar Azərbaycana yeni təfəkkürlə yaxınlaşmalı, siyasətlərini tam müəyyənləşdirməlidirlər, mənafelərinə zidd olan Ermənistanın Azərbaycana təcavüzkarlığından narahat olduğundan onun həllinə çalışmalıdırlar. Qərb keçmiş SSRİ ərazisində mövcud olan münaqişələrə münasibətinin aydınlaşdırmalıdır. Bu siyasət ardıcıl olmalıdır. Qərb hökumətləri özlərinin Avropa təhlükəsizliyi sisteminin tərkib hissəsi kimi Qafqaza münasibətdə dəqiq regional siyasət işləyib hazırlamalıdırlar. Onlar münaqişələrin nizama salınmasına sözdə deyil,işdə tam hazır olmalıdırlar. Qərb dövlətlərinin səylərinin zəifləməsi, bir qayda olaraq regionda Rusiyanın nüfuzunu gücləndirir. Rusiyanın nüfuzunun artması isə nəinki Qərbi çıxışdırmaq, eyni zamanda keçmişə qayıdış niyyətlərini güdür. Qərb dövlətləri qeyd-şərtsiz əməkdaşlıq etmək tarixən Rusiya xarici siyasəti üçün səciyyəvi deyildir.

Azərbaycan tərəfi - Avropanın hakimiyyət mərkəzlərinə yol açmalı, böyük kapital və nüfuz sahibi olan şəxsləri ölkəmizə cəlb etməlidirlər. Dünya və regional problemləri qiymətləndirməkdə, onların həlli yollarında Avropa ölkələri ilə fikir ümumiliyinə nailolmaqdan ötrü diplomatik siyasi fəaliyyətin müxtəlif formalarından səmərəli istifadə edilməli, müvafiq sənədlər imzalanmalı və həyata keçirilməlidir; qarşılıqlı səfərlər, epizodik hal daşımamalı, müntəzəm olmalıdır; əlaqələrdə hakimiyyətin bütün qanadları iştirak etməlidirlər; parlamentlərarası əlaqələrə



xüsusi önəm verilməlidir; diplomatik-siyasi fəaliyyətin səriştəsi artırılmalıdır; bu ölkələrlə daha da yaxınlaşmaqdan ötəri seçkilərdə kommunist metodlarından imtina olunmalı, tam demokratik seçkilərin keçirilməsinə nail olmaq lazımdır. Belə addım Azərbaycanın Avropada imicinin formalaşmasına, son nəticədə siyasi, o cümlədən bütün mövqelərimizin möhkəmlənməsinə kömək edərdi. Azərbaycanın Avropa siyasəti xeyli ehtiyatlı və çevik olmalıdır. Ən azı ona görə ki, Avropa ölkələri arasında bir sıra gizli və aşkar ziddiyyətlər vardır.

Avropa dövlətlərinin dostu və ya müttəfiqi olan ölkələrlə əlaqələri genişləndirmək və onların köməyindən istifadə etmək olar. Bizə bədxah münasibət bəsləyən dairələr və ölkələr ya bizim tərəfimizə çəkilməli, ya da heç olmazsa birtərəfləşdirilməlidir. Avropa ölkələrində yaşayan Azərbaycan diasporundan, türk xalqlarının köməyindən, lobbiçilik fəaliyyətindən istifadə olunmalı və bu sahədə sistemli iş aparılmalıdır. İctimaiyyətin əlaqələri qurulmalı və xalq diplomatayası hərəkətə gətirilməlidir.

Elmi-texniki əlaqələr sahəsində: Avropa ölkələrinin qabaqcıl, elmi-texniki nailiyyətlərinin ölkəmizdə tətbiqi və inteqrasiyası üçün addımlar atılmalıdır; Avropa təhsil sisteminin ölkəmizdə tətbiqi, tələbə, aspirant, müəllim və elmi-texniki informasiya mübadiləsi üçün iş görülməlidir.

Mədəni əlaqələr sahəsində: ölkəmiz açıq, sərbəst, azad cəmiyyət olduğunu işdə təsdiq etməlidir; Avropa ölkələri ilə sərbəst mübadilə, kütləvi mədəniyyət sahəsində geniş əməkdaşlıq saxlamalıdır; maliyyə çətinliklərinə baxmayaraq yaradıcı və ictimai təşkilatlar Avropada Azərbaycan mədəniyyətinin təbliği üçün müxtəlif vasitələrlən istifadə edə bilərlər; idman və turizm əlaqələrini hərəkətə gətirmək vacibdir. Mədəni əlaqələrin genişləndirilməsi mədəniyyətimizin milli köklərini sarsıtmamalı, əksinə möhkəmləndirməlidir. Mədəniyyətlər rəngarəng olduqları üçün maraqlıdırlar. Onların eyni olması həyatı yeknəsək edərdi. Azərbaycan mədəniyyət müharibəsinə hazır olmalıdır.

Kütləvi informasiya əlaqələri sahəsində: dövlətiimizin səmərəli informasiya siyasəti qurulmalıdır. İnformasiya siyasətinin məqsədi Avropa ölkələrində xalqımızın və dövlətimizin müsbət imicini formalaşdırmaq, bizə dost müttəfiq qazandırmaq olmalıdır. Avropa dillərində verilişlər yayan redaksiyaların işinin keyfiyyəti

və təchizatı yaxşılaşdırılmalıdır; səfirliklərimizin fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan televiziyası və radiosunun müxbir və məntəqələrinin açılması vacibdir.

Avropa ölkələrində bir sıra qüsurlar və diqqətsizliklər də vardır. Hər şeydən əvvəl Azərbaycan tərəfi Avropa ölkələri ilə siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələri sürətlə və səmərəli qurmalıdır. Lənglik və qeyri-ardıcıllıq qətiyyətlə aradan qaldırılmalıdır. Avropa siyasətinin məqsəd və vəzifələri tam aydınlaşdırılmalıdır.

İkincisi, Avropanın və dünyanın nüfuzlu dövlətləri və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi, Fransa və Böyük Britaniyaya, o cümlədən birləşdikdən sonra regional fövqəldövlətə və dünya siyasətində öz dəsti-xətti olan dövlətə çevrilmiş Almaniyaya xüsusi diqqət verilməlidir. Bu dövlətlərin paytaxtlarında səslənən - yalnız Avropa dövlətlərindən ibarət Avropa Təhlükəsizlik Şurası yaratmaq təklifləri ABŞ-ı narahat edir və ona Avropa işlərində Ağ evi uzaqlaşdırmaq kimi baxır. Yaxın illərdə Admaniya Avropada və dünyanın bir sıra problemlərində həlledici rol oynamağa qadir olan dövlətə çevriləcəkdir. Bu ölkələrdəki səfirliklərimiz münasibətlərin inkişafı üçün ciddi çalışmalıdırlar. Bu dövlətlər arasındakı ziddiyyətlərdən istifadə olunmalıdır.

Üçüncüsü, Avropa ölkələrinin dövlət və hökumət başçılarının xarici işlər nazirliklərinin ölkəmizə səfərlərini təşkil etmək, müvafiq sənədlərin imzalanmasına nail olmaq lazımdır. Azərbaycan öz mövqelərini fəallaşdırmalı və möhkəmləndirməlidir.

Dördüncüsü, Avropa dövlətlərinin müxtəlif rəhbərləri keçirilən ikitərəfli və çoxtərəli görüşlərdə beynəlxalq hüquq normalarının, ATƏT prinsiplərinə və BMT Nizamnaməsinə uyğun olaraq Azərbaycan sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünün pozulmazlğını bir daha təsdiq edirlər. Onların bir çoxu Ermənistan - Azərbaycan münaqişəsinin əvvəlindən Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etmişlər. Əlbəttə, dünya qaydasının indiki vəziyyətinə uyğun olan belə mövqe hər cür təqdirəlayiqdir. Lakin sadəcə quru bəyanatlarla iş bitməməlidir. Əgər Avropa dövlətləri müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, onda qəti praktik addəmlar atmalı və təcavüzkarı beynəlxalq birliyin iradəsinə



tabe etməlidirlər.Onlar Ermənistanı Rusiyanın himayəsindən çıxarmağa çalışmalıdırlar. Başa düşməlidirlər ki, Ermənstanın hərəkətləri təkcə Rusiyanın Qafqazda mövqelərinin qorunub saxlanmasına deyil, eyni zamanda Avropa dövlətlərinin bu regiona daxil olmasına və möhkəmləndirilməsinə qarşı yönəldilmişdir.

Beşincisi, biz Tanrının bəxş etdiyi təbii sərvətlərlə öyünməməliyik, eyni zamanda, ondan düzgün istifadə etməliyik. Məhsuldar torpağı və təbii ehtiyatları olmayan, lakin geniş əməkdaşlıq edən, sabitliyi olan millət zəngin təbii sərvətləri olan, lakin sabitliyi olmayan qonşularına nisbətən daha yaxşı inkişaf edir. Əməkdaşlıq millətin çiçəklənməsinin mühüm şərtlərindən biridir. Ona görə də hər işin özü-özündən düzələcəyini oturub gözləmək düzgün olmazdı. Gələcəyin yaradılması indidən başlanır. Əməkdaşlıq yolu ilə biz bir sıra problemləri həll edə bilərik. Hər hansı ekspansiyadan (iqtisadi, siyasi, hərbi, mənəvi-psixoloji) qorunmağın strateji yolu - güclü iqtisadi qüdrətə malik olan və əməkdaşlıq edən Azərbaycan dövlətini yaratmaqdır. Biz nəinki xarici, həmçinin daxili bazarda məhsulların rəqabətə tab gətirməməsindən və ixrac potensialının aşağı düşməsindən yaxa qurtarmalıyıq. Yalnız xammal satmaqdan imtina etməliyik. Ən azı ona görə ki, dünya bazarında qiymətlərin dəyişməsi dövlət büdcəsi üçün ciddi təhlükə törədir. Yuxarıda deyilənlərlə bağlı olaraq, çoxlu misallar göstərmək olar: nəhəng təbii ehtiyatları olan Nigeriya, Argentina, Meksika və təbii ehtiyatlrı olmayan Yaponiya, Cənubi Koreya və Tayvanın inkişaf səviyyələrini müqayisə etmək kifayətdir.

### *Azərbaycan - ABŞ münasibətləri*

Azərbaycanın xarici siyasət fəaliyyətinin istiqamətləri içərisində ABŞ-la münasibətlər diqqəti cəlb edir. ABŞ 1991-ci il deabrın 25-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 18-də diplomatik münasibətlər qurdu. İki ölkə arasında münasibətlər bir sıra özünəməxsusluqla şərtlənmişdir. Həmin özünəməxsusluqlar ABŞ-ın xarici siyasətində Azərbaycanın,

Azərbaycanın xarici siyasətində isə ABŞ-ın tutduğu yeri səciyyələndirir.

Əvvəla, Birləşmiş Ştatlar tarixən regionumuza maraq göstərmiş və ona strateji mənafeyi zonası kimi baxmışdır. Bu maraq hələ birinci dünya müharibəsindən sonra dumanlı da olsa, var idi. Müharibənin yekunlarına həsr edilmiş Paris sülh konfransında ABŞ Prezidenti Vudro Vilsonun müstəqil Azərbaycan dövləti nümayəndələrinin konfransa buraxılmasını və Ə.Topçubaşovun nümayəndə heyətinin başçısı kimi tanınmasını vacib sayması ölkəmizin mövqelərinə müsbət təsir göstərirdi. Çünki dünya müharibəsinin gedişində xeyli möhkəmlənmiş, əvvəllər borc alan dövlətdən müharibənin sonunda borc verən dövlətə çevrilmiş, dünyaya mənəvi rəhbərlik etmək iddiasında olan Birləşmiş Ştatlar sülh konfransında həlledici yerlərdən birini tuturdu. 1919-cu il mayın 28-də Azərbaycan nümayəndə heyəti prezident V.Vilsonla və ABŞ nümayəndə heyətinin üzvü, diplomat Q.Morqentau ilə görüşdü. Q.Morqentau Azərbaycanın zəngin təbii ehtiyatlarını və sənaye potensialını nəzərə alaraq ABŞ kapitalının ölkəmizə yönəldilməsini və maliyyə yardımı göstərilməsini mümkün sayırdı. ABŞ prezidenti tərəfindən nümayəndə heyətimizin qəbul edilməsi faktının özünün böyük əhəmiyyəti var idi. Bu ölkəmizdə olan marağı təcəssüm etdirirdi. Lakin birinci dünya müharibəsindən sonra zəifləmiş, öz aralarındakı ixtilaflara və müstəmləkələrin bölüşdürülməsinə başı qarışmış Qərb ölkələri və möhkəmlənmiş ABŞ isə daxilindəki "təcridçilik" tərəfdarları təzyiqi ilə fəal beynəlxalq siyasəti, o cümlədən Azərbaycanın müstəqil olmasına kifayət qədər hazır deyildilər. Buna görə də onlar "vahid, bölünməz Rusiya" əsasında müvafiq məsələlərin həllini vacib sayırdılar. Digər tərəfdən, birinci dünya müharibəsi illərində Türkiyədə səfir işləmiş Q.Marqentau ermənipərəst idi, türkün mənfi imicinin ABŞ-da yayılmasında mühüm rol oynamışdı.

İkincisi, ikinci dünya müharibəsinin sonuna yaxın Cənubi Azərbaycanda başlamış xalqımızın milli-azadlıq mübarizəsinin növbəti mərhələsinə də güclü ABŞ dövləti rəğbət bəsləmişdi. 1946-cı ilin yanvarında ABŞ konsulu Rossou Təbrizdə Güney Azərbaycan milli hökumətinin baş naziri S.C.Pişəvəri ilə görüşmüş və hökumətini ona hər cür yardım göstərəcəyini vəd etmişdi.



Üçüncüsü, SSRİ-nin dağılmasına uzun illər boyu çalışan və məqsədinə çatdıqdan sonra yeganə fövqəladə kimi qalan ABŞ dövlət müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan xalqının iradəsinə hörmət edərək, ölkəmizlə siyasi, iqtisadi, elmi-texniki, mədəni əlaqələrin qurulması üçün addımlar atdı. Azərbaycanın yerləşdiyi rolunu oynaması, zəngin təbii sərvətləri, xalqımızın müstəqil dövlət qurmaq istiyi üçün imkanları, potensialı, azad bazar iqtisadiyyatı və demokratik inkişaf xəttini götürməsi ABŞ xarici siyasətində Azərbaycanın rolunu artırırdı. Bununla belə, müstəqillik illərində ABŞ-ın ölkəmizə münasibəti xeyli dumanlı və təzadlı idi. Ermənistan Azərbaycana qarşı təcavüzkarlıq müharibəsindən narahat olan Vaşinqton onun səbəbləri barədə ziddiyyətli və qeyri-obyektiv məlumatlara malik idi. Təcavüz haqqında həqiqət ya bilinmirdi, ya bilinmək istənilmirdi,ya da qəsdən susulurdu.

Dördüncüsü, ABŞ-ın planetdə baş verən münaqişələrin həllində rolunun artması, Azərbaycanda və ABŞ-ın xarici siyasət məqsədlərində çoxlu oxşar cəhətlər və bəzən də onların üst-üstə düşməsi dövlətimizin beynəlxalq fəaliyyətində bu ölkənin rolunu artırırdı. ABŞ dünyanın başqa qabaqcıl dövlətləri ilə birlikdə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, və inkişafında, müəyyən rol oynaya bilərdi.

ABŞ-ın dünya rəhbərliyinə gedən tarixi yolu xeyli mürəkkəb və ziddiyyətli olmuşdur. İkinci dünya müharibəsindən qalib çıxan, müharibənin gedişində iqtisadiyyatı nəinki zərər çəkməyən, əksinə bu ölkəyə xeyir verən, inkişaf edən ABŞ dünyanın ən çox borc verən ölkəsinə çevrildi. Dünya qızıl ehtiyatının təxminən, 73%-i ABŞ-da toplandı. "Trumen doktrinası" (1947-ci il 12 mart) və "Marşal planı" (1947-ci il 5 iyun) ilə ABŞ bir sıra dövlətlərə yardım etməklə onları özündən asılı vəziyyətə saldı və dünyanın birinci iqtisadi qüvvə mərkəzinə çevrildi. Onun iqtisadi güc mərkəzinə çevrilməsi dünyaya siyasi-mənəvi rəhbərlik etməsinə təkan verdi. İkinci dünya müharibəsindən keçən sonrakı dövrdə ABŞ bütün beynəlxalq və məhəlli təşkilatlarda mühüm rol oynadı və onlara müvafiq təsir göstərdi. Məlumdur ki, kiçik millətlər böyük hadisələr qarşısında gücsüzdürlər. Siyasi burulğanlar onları məhv edə bilər. Ona görə də bu xalqlara böyük müttəfiqlər və dostlar lazımdır. Qarşılıqlı mənfəətlərin əsasında qurulan müttəfiqlik və dostluq

sabitlik yaradır. Deməli, ABŞ-ın dünyadakı mövqeləri Azərbaycanı müvafiq addımlar atmağa sövq edirdi.

Beşincisi, ABŞ - Rusiya münasibətlərindəki ziddiyyətlər, ABŞ - İran münasibətlərindəki düşmənçilik şimaldan Rusiya və cənubdan İranla qonşu olan və müstəqil inkişaf etmək istəyən Azərbaycan dövlətinin əhəmiyyətini Vaşinqtonun xarici siyasətində artırırdı. ABŞ Rusiyada liberal islahat tərəfdarlarının yüksək vəzifələrdən uzaqlaşdırılmasından, xarici ticarətdə proteksionizm hallarını tətbiq edən bəzi tədbirlərin həyata keçirilməsindən, keçmiş sovet məkanını öz nüfuz dairəsi elan etməsindən, buraya başqa dövlətləri buraxmaq istəməməsindən, keçmişə qayıdış barədə çağırışlardan, Çeçenistanda müharibənin aparılması metodlarından, dinc və günahsız insanların qırılmasından narahıt idi. Bununla belə, ABŞ Rusiya ərazi bütövlüyünü müdafiə edir və terrorizmi pisləyir, onun azad bazar iqtisadiyyatı və demokratiya yolu ilə inkişafını dəstəkləyirdi. Lakin nəzəri baxımdan hələ də qalmaqda olan Rusiya təhlükəsini zəiflətməkdən ötrü buradakı demokratik institutlarla sıx əməkdaşlıq etməyə, demokratiya yolunda ona kömək göstərməyə, beynəlxalq maliyyə və texniki təşkilatlarını bu işə cəlb etməyə çalışır.

Öz növbəsində Kreml ABŞ-ın keçmiş sovet məkanında hərəkətlərindən, NATO-nun Şərqə doğru genişləndirilməsindən narahatdır.

İranın ABŞ-la mövcud olan açıq-aşkar düşmənçilik münasibətləri, onu Qafqazdan, xüsusən Azərbaycandan vurub çıxarmaq istəyi, onun neft planlarının reallaşmasına mane olması cəhdləri, Azərbaycan - ABŞ münasibətlərinin inkişafına İranın potensial parçalanması təhlükəsi kimi baxması Azərbaycanda İran - ABŞ ziddiyyətlərini kəskinləşdirir və ölkəmizin mövqelərini şərtləndirirdi. İran ABŞ-ın regiondakı hərəkətlərini qlobal təhlükəsizliyinə zərbə kimi qiymətləndirir və Azərbaycanı öz nüfuz dairəsinə salmaq istəyir. Lakin ölkəmizin götürdüyü inkişaf xətti ilə fərqlilik təşkil edərək Bakı ilə Vaşinqtonu yaxınlaşdırır. Azərbaycanı öz tərəfinə çəkmək və nüfuz dairəsinə salmaq uğrunda bir qrup dövlətin mübarizəsi bir tərəfdən rəsmi Bakı üçün çətinlik törədirsə, digər tərəfdən öz mənafelərinin hansı nöqtədə yerləşdiyini görməyə və manevr etməyə imkan verir. Azərbaycan - ABŞ münasibətlərinin əsasını beynəlxalq normalardan irəli gələn



prinsiplər, dövlətlər arasında imzalanmış sənədlər təşkil edir və münasibətlər mənafelərin tarazlığı üzərində qurulur.

ABŞ tərəfi Azərbaycanla normal münasibətlərin üç əsas prinsipdən keçdiyini göstərir: azad bazar iqtisadiyyatı, insan hüquqlarının qorunması, demokratik inkişaf və çoxpartiyalı sistem. Bu prinsipləri ABŞ bütün digər ölkələrlə qurarkən də irəli sürür.

Qısa müddətdə ABŞ konqresmenlərindən De Konsini, Q.Laflin, C.Tanker, K.Ueldon, L.Hemilton, R.Luqar, C.Olver və başqaları ilə əlaqələr yaradıldı.

Siyasi sahədə ABŞ hökumətinin Azərbaycanın ədalətli mövqeyini müdafiə etməməsi və ya müdafiə etmək istəməməsinə baxmayaraq ABŞ tərəfi Azərbaycana humanitar yardım göstərirdi. 1992-ci ilin oktyabrında Amerika Birləşmiş Ştatlarının dövlət departamentinin təcili humanitar yardım üzrə bürosunun direktoru Artur Dyuinin başçılığı altında nümayəndə heyəti Azərbaycana səfər etdi.

1993-cü ilin birinci yarısında senator Qreq Laflin iki dəfə ölkəmizdə səfərdə oldu. Səfər zamanı o, Azərbaycan prezidenti Ə.Elçibəylə parlamentin sədri İ.Qəmbərlə, Baş nazir və bir sıra digər rəsmi şəxslərlə görüşdü, əməkdaşlıq məsələlərini müzakirə etdi.

1993-cü ilin may ayında Azərbaycan Respublikası parlamentinin sədri İ.Qənbərin ABŞ-a səfəri, keçirilən görüşlər və müsahibələr Azərbaycan haqqında həqiqətin özünə yol açmasına kömək etdi. Səfər zamanı ABŞ-da Azərbaycan Respublikası səfirliyinin açılması iki ölkə arasındakı münasibətlərdə mühüm addım idi.

1993-cü ilin oktyabrın 11-də ABŞ Dövlət departamentinin keçmiş SSRİ respublikaları üzrə səlahiyyətli və fövqəladə səfiri Stoulb Talbotun Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı anlaşma yaratmaqda əsaslı rol oynadı.

Görüş vaxtı S.Talbot ABŞ prezidenti B.Klintonun məktubunu prezident H.Əliyevə təqdim etdi. Məktub ABŞ-ın Azərbaycanın işlərinə marağının artmasını göstərirdi. Lakin məktubda Dağlıq Qarabağ münaqişəsinin kökləri barədə düzgün olmayan mülahizələr var idi və Ermənistan münaqişə iştirakçısı kimi qəbul edilmirdi.

Həmin ilin avqust və oktyabr aylarında Azərbaycan Respublikasının prezidenti ABŞ prezidentinin yeni müstəqil

dövlətlərə yardım üzrə əlaqələndiricisi Tomas Saymonsu qəbul etdi. T.Saymans bildirdi ki, ABŞ demokratik islahatlar aparmaqda sizinlə bir olacaq və quracağınız yeni cəmiyyətdə Azərbaycanın partnyoru olacaqdır. Lakin ABŞ konqresi Azərbaycana Humanitar yardım göstərmək üzərinə qoyduğu embarqonu hələ də götürməmişdi. ABŞ hökümətinin bu qərara qarşı çıxmasına baxmayaraq o, ləğv edilməmişdi.

İki ölkə arasında işgüzar əlaqələrin inkişafında 1993-cü ilin noyabrında ABŞ Energetika nazirinin birinci müavini Uilyam Uaytın səfəri özünəməxsus yer tutdu. Səfər zamanı ölkə rəhbərləri ilə keçirilən görüşlərdə ABŞ-Azərbaycan iqtisadi əlaqələrinin, xüsusən neft, qaz, energetika sahəsində əməkdaşlığın inkişafının zəruriliyi bildirildi. Azərbaycan tərəfi ABŞ-da geniş səmərəli əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi.

Həmin ilin noyabrında ABŞ Dövlət departamentinin Azrbaycan və Ermənistan şöbəsinin rəhbəri Kerk Bennet ölkəmizə səfər etdi.

Siyasi sahədə əlaqələrdə 1993-cü ilin dekabrında Brüsseldə Azərbaycanın Xarici İşlər Naziri H.Həsənovla ABŞ Dövlət katibi Y.Kristoferin görüşü özünəməxsus yer tutdu.

Belə əlaqələr ABŞ-ın müxtəlif şirkətləri ilə əməkdaşlığa kömək etdi. 1993-cü ilin noyabrında ABŞ-ın «Heric Faundeyşin» fondunun direktoru Robert Straus-Hyub, keçmiş konqresmen və «Çembers İnkroporeyted» assosiasiyasının prezidenti Cim Mudi, assosiasiyanın vitse-prezidenti keçmiş prezident Ceyms Karterin müşaviri Robert Mur Azərbaycana işgüzar səfərdə oldular.

ABŞ-ın nüfuzlu «Coynt» təşkilatının prezidenti Milton Volf Azərbaycanda səfərdə olarkən ölkə prezidenti tərəfindən qəbul edildi.

Birləşmiş Ştatlarının «Amoko», «Penzoyl» kimi neft şirkətləri ilə əməkdaşlıq tədqiq olunan illərdə inkişaf etdirildi.

ABŞ rəsmi hakimiyyətinin Azərbaycana humanitar yardımı kəsməsinə baxmayaraq «Rilif İnterneşil», «Seyv Ze Çildren» kimi xeyriyyə cəmiyyətləri, ABŞ-ın «Qırmızı Xaç» cəmiyyəti ölkəmizə humanitar yardım göstərdilər.

1994-cü ildə ABŞ Dövlət katibinin xüsusi müşaviri, ABŞ-ın yeni müstəqil dövlətlər üzrə siyasətinin baş əlaqələndiricisi Ceyms Kolinz, konqresmen Frek Volf və b. Azərbaycana səfərə gəldilər. Danışıqlarda ABŞ-Azərbaycan siyasi, ticarət-iqtisadi, elmi-texniki və



mədəni əlaqələri müzakirə edildi. ABŞ Azərbaycana olan siyasi maraqlarını bildirdi. Ermənistan-Azərbaycan münaqişəsinin dinc siyasi vasitələrdə ATƏT çərçivəsində həllinin zəruriliyini bəyan etdi. Azərbaycan tərəfi ABŞ konqresinin azadlığı müdafiə aktına edilən 907-ci düzəlişinin ləğvinin ölkəmizin azad bazar və demokratiya yolu ilə inkişafına kömək edəcəyini bildirdi. Lakin bütün bu illərdə ABŞ tərəfi Azərbaycanı əsasən sözdə müdafiə edirdi, işdə isə 907-ci düzəliş hələ də ləğv olunmamışdı. Bununla belə. ABŞ-ın Azərbaycana siyasətində tədrici dəyişiklik baş verirdi.

1995-ci ildə ABŞ Dövlət Departamentinin keçmiş SSRİ ərazisində regional münaqişələr idarəsinin rəisi, ATƏT-in Minsk qrupunda bu ölkənin nümayəndəsi Cozef Pressel, ABŞ Milli Demokratiya İnstitutunun direktoru Nelson Letski, energetika nazirinin birinci müavini Uilyam Uayt, konqresmen Qreq Laflin, senator Riçard Şelbin, ABŞ-ın ATƏT-dəki nümayəndəsi Sem Braun, görkəmli siyasi xadim Zbiqnev Bjezinski, ticarət-kommersiya departamentinin müşavirinin müşaviri, energetika və ticarət məsələlərinə dair yeni müstəqil dövlətlər üzrə xüsusi nümayəndə Yan Kalitski, ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz başda olmaqla hökumət nümayəndə heyəti, energetika nazirinin müavini Çarlz Körtsin Azərbaycana səfəri etdilər. Bu səfərlər iki ölkə arasında hərtərəfli münasibətlərin inkişafını göstərirdi. Səfər zamanı ABŞ nümayəndə heyəti Azərbaycan rəhbərliyi tərəfindən qəbul edildi və geniş fikir mübadiləsi aparıldı. Öz növbəsində Azərbaycan nümayəndə heyəti, ölkə prezidenti 1994-1995-ci illərdə BMT Baş Məclisinin illik sessiyalarında və yubileyində iştirak etmək üçün ABŞ-da olarkən müxtəlif səviyyəli görüşlər keçirdi. ABŞ prezidenti Bill Klintonla keçirilən görüşlər Azərbaycana münasibəti dəyişdirdi. Azərbaycan tərəfi azad bazar iqtisadiyyatı, demokratiya və insan hüquqlarını qorumaq yolu ilə gedəcəyini bildirdi. Aparılan danışıqlar 907-ci düzəlişin ləğvi sahəsində ilk addımlar atılmasına kömək etdi. ABŞ konqresi bildirdi ki, Federal hökumət Azərbaycandakı qaçqınlara humanitar yardım göstərə bilər.

ABŞ tərəfi bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmət edir, Ermənistan-Azərbaycan münaqişəsinin dinc siyasi vasitələrlə BMT

Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq ATƏT çərçivəsində həllinə tərəfdardır.

Azərbaycan-ABŞ münasibətləri diplomatik fəaliyyətin müxtəlif formaları ilə - ölkə başçılarının bir-birilərinə məktubları, telefon danışıqları, xarici işlər nazirlərinin görüşləri, siyasi məsləhətləşmələr, müzakirələr, qarşılıqlı səfərlər, o cümlədən iş adamlarının əlaqələri, iri şirkətlərin fəaliyyəti və b. saxlanılır. Bu formalar münasibətlərdəki güclü və zəif tərəfləri üzə çıxarmağa, məsələlərin həllində tərəflərin mövqeyini aşkarlamağa, ümumi fikrə gəlməyə, əməkdaşlığın gələcək inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan verir.

Azərbaycan-ABŞ münasibətləri göstərir ki, müstəqillik əldə etdikdən sonra keçən dövr ərzində Azərbaycan tərəfi əlaqələrin tədricən yaxşılaşmasına, okeanın o tayında xalqımız və ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına doğru dönüşə, əməkdaşlığın müxtəlif formalarının tətbiqinə, yüksək səviyyəli görüşlərə, Ağ evin Azərbaycanın mövqeyini qismən də olsa müdafiə etməsinə nail ola bilmişdir. Obyektivlik hissi tədricən ABŞ Konqresinə də yol açmağa başladı.

ABŞ tərəfi isə Azərbaycanda iqtisadi cəhətdən kifayət qədər möhkəmlənmiş, iqtisadi mənafelərini dəqiqləşdirmiş, Azərbaycan ictimai rəyini öz xeyrinə dəyişdirə bilmişdi. Ağ ev və rəsmi Bakının xarici siyasətində təmas nöqtələri tapılmışdır. Hər bir xalqın özü öz problemini həll etməsinə baxmayaraq, Azərbaycan xalqı özü öz problemini həll etməsinə baxmayaraq, Azərbaycan xalqı ABŞ-dan hələ çox şey gözləyir. Bununla belə, Azərbaycan -ABŞ münasibətlərində problemlər də olmuşdur. Bu problemlər Azərbaycan tərəfindən deyil, əsasən okeanın o tayında Konqresin palataları tərəfindən törədilmişdir. ABŞ-ın mənafelərinə deyil, əsasən populizmə, emosionallığa və ucuz şəxsi nüfuz qazanmağa əsaslanan bəzi sənədlər ortaya çıxmışdır. Bu baxımdan 1992-ci ildə qəbul edilən "Azadlığı müdafiə aktı"nın 907-ci düzəlişini və 1996-cı ildə Konqresin Nümayəndələr Palatasının bu sənədə deputat C.Porterin təklifi ilə qəbul etdiyi, lakin Senatın yekdilliklə rədd etdiyi əlavəni misal göstərmək olar. Ölkəmizə yardımı onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa yardımdan asılı edən və uydurma "DQR"-in tanınmasını nəzərdə tutan bu əlavəni sadəcə humanitar sənəd kimi qiymətləndirmək düzgün olmazdı. Məlum



olduğu kimi,hər hansı humanitar addımın arxasınca iqtisadi, siyasi və b. tədbirlər, humanitar yardımla yerlərdə məşqul olan təşkilatların açılması gəlir.Onun da nəticələrini izah etməyə ehtiyac yoxdur.

Əlavənin meydana gəlməsinin səbəbi - həm Konqresin Nümayəndələr Palatasında erməni təəssübkeşliyi, Birləşmiş Ştatlarda erməni lobbisinin fəaliyyəti, prezident seçkilərində partiyalararası gərgin mübarizə ilə (ABŞ prezidenti B.Klinton 1783-cü ildə yaradılmış demokrat partiyasının lideridir. O, 1854-cü ildə yaradılmış Respublikaçılar Partiyasının üstünlük təşkil etdiyi Konqreslə işləməyə məcburdur. Nümayəndələr Palatasında 204 demokrat, 230 respublikaçı, 1 sosialist (cəmi 435 nəfər), senatda isə 52 respublikaçı, 48 demokrat vardır), Porterin həyat yoldaşının Ermənistana səfərləri və aldığı hədiyyələrlə, həm də Ağ Evin Azərbaycanlabir sıra dövlətlər arasında gedən mübarizəni öz xeyrinə həll etmək üçün ona təsir və təzyiq etmək, Rusiya - Azərbaycan əlaqələrini zəiflətmək istəyi, Ermənistanın təcavüzkarlığına dinc siyasi vasitələrlə son qoymaq üçün aparılın danışıqların zəifləməsi, Azərbaycanın diplomatiyasının nöqsanları, gözləmə mövqəyi tutması, Birləşmiş Ştatlarda geniş işləməyi az qala unutması və başqa amillərlə bağlıdır.

Əlavə Azərbaycanda müsbət qarşılana bilməzdi. O, ortaya çıxar-çıxmaz, ölkəmizdə iqtidar və müxalifət, kütləvi məlumat vasitələri, ictimai təşkilatlar fəal surətdə etirazın müxtəlif formaları ilə onun əleyhinə çıxdılar.

ABŞ Dövlət Departamenti bu əlavəni iki ölkə arasındakı münasibətlərə zərər gətirən və Birləşmiş Ştatların mənaəelərinə zərbə vuran sənəd kimi qiymətləndirərək onun əleyhinə çıxdı. Konqresin aşağı palatası ilə icraedici hakimiyyət arasında ixtilaflar yarandı. Ermənilər tərəfindən şadyanalıqla qarşılanan bu əlavə ABŞ milli mənafelərinin ziddinə olan bir sıra məqsədlər güdürdü. Əlavə yeganə fövqəldövlət kimi ABŞ-nın bu regionda maraqlarına zərbə endirməyi, onu arzu olunmayan qonağa çevirməyi, Azərbaycanda onun siyasi və iqtisadi mövqelərini zəiflətməyi, ABŞ-a düşmən olan dövlətləri regionumuzda möhkəmləndirməyi, Birləşmiş Ştatların dünyadakı demokratiyanın və beynəlxalq normaların qoruyucusu imicini itirməyi, neft konsorsiumunda payları çox olan ABŞ şirkətlərinin fəaliyyətini sual altına qoymağı güdürdü.

Əlavə Azərbaycanın Dağlıq Qarabağı faktiki olaraq itirməsini hüquqi cəhətd təsdiqləmək, erməni lobbisi və diasporunun çoxluq təşkil etdiyi ölkələrin üzdən iraq "DQR"-i tanımaları üçün şərait yaratmaq, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərin azad edilməsini çətinləşdirmək, yurd-yuvalarından didərgin düşmüş qaçqınların geri düşməsinin qeyri-mümkün etmək, problemi həll etmək üçün Azərbaycanı hərbi yola sürükləmək, ölkələrimiz arasındakı münasibətləri kəskinləşdirmək, xarici iş adamları üçün əlverişsiz şərait yaratmaq niyyətləri daşıyırdı.

Porter əlavəsi müasir beynəlxalq münasibətlər üçün qeyri-normal şərait yaratmağı, müstəqil dövlətin suverenliyini və ərazi bütövlüyünü pozmağı, təcavüzkarı şirnikləndirməyi, müasir beynəlxalq münasibətləri sisteminin ABŞ tərəfindən pozulmasını, Ermənistanın təcavüzkar kimi tanınmasını çətinləşdirməyi, təcavüzkarı "Böyük Ermənistan" kimi uydurma planlarını planlaşdırmağa dəstəkləməyi güdürüdü.

Bütün yuxarıda göstərilənlərin ABŞ-ın mənafelərinə zidd olduğu aydındır. Ona görə də ABŞ senatorları təkrar müzakirə zamanı onu yekdilliklə rədd etdilər.

İki müstəqil dövlət kimi Azərbaycan-ABŞ münasibətlərinin inkişafına "ermənilərin soyqırımı" və ya "erməni məsələsi" prizmasından baxılmamalıdır. Çünki mahiyyəti etibarilə "erməni məsələsi" artıq tarixə çevrilmişdir. O, müasir siyasi mahiyyət daşımır.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanı və ABŞ-ı bir-birindən uzaqlaşdıran şərait yoxdur. Münasibətlərimizdə mövcud olan çoxlu təmas nöqtələri problemləri həll etməyin səmərəli yollarını tapmağa imkan verir. Bununla belə, Azərbaycan ABŞ münasibətləri tərəflərin imkanlarından xeyli aşağıdır və onun inkişafından ötrü geniş perspektivlər vardır. Buna görə də tərəflərin hər biri özünə aid müəyyən addımlar atmalıdır.

ABŞ tərəfi özünün strateji mənafelərini, Qafqazda bir sıra dövlətlərin, o cümlədən İran v Rusiya ilə maraqlarının toqquşmasını, planetin əlverişli coğrafi-siyasi nöqtəsi, təbii sərvətlərin və kifayət qədər intellektual potensialı olan Azərbaycanda möhkəmlənmək istəyini əsas götürərək ölkəmizlə daha da yaxınlaşmalıdır. Azərbaycanı qiymətli təbii sərvətləri ilə



totalitarizm əvəzinə, azadlıq və tərəqqi işinə qoşmalı, bununla da özünün bütün dünyanınq təhlükəsizliyinə, inkişafına və azadlığına hər vasitə ilə kömək etməlidir. Bundan ötrü ABŞ-ın bütün imkanları vardır. Lənglik və tərəddüdlər ABŞ-ın mənafelərinə ciddi zərbədir. Ağ ev Azərbaycana münasibətdə yeritdiyi siyasətinin məqsəd və vəzifələrini, strateji niyyətlərini tam dəqiqləşdirməli və açıqlamalıdır. Azərbaycanla əməkdaşlıq edən və sülhün təminatçısı olan ABŞ-ın regiona daxil olması ilə onun gözü qarşısında Ermənistanın təcavüzkarlığını davam etməsi, beynəlxalq hüquq normalarının pozulması Ağ evin beynəlxalq nüfuzuna xələl gətirir. Regiondakı münaqişənin kökü rus ekspansiyasında və erməni millətçiliyindədir. O, Azərbaycanın müstəqilliyi üçün başqa dövlətin hərbi-siyasi, iqtisadi, maliyyə və başqa yardımları ilə təhlükə törədən və ərazimizi işğal edən Ermənistana təzyiq edib başa sala bilər ki, beynəlxalq normalara əməl etmək lazımdır. Xalqın rifahını yüksəltmək və millətlərin öz müqəddəratını təyin etmək bəhanələri ilə torpaqlar işğal etmək yolverilməzdir. Planetimizdə müxtəlif xarakterli münaqişələr həmişə olacaqdır. Lakin iki xalqarasında münaqişə və müharibə daima olmaya bilər. Bu da Ermənistan tərəfindən asılıdır. ABŞ quru bəyanatlarla deyil, konkret işlə təcavüzkarın qarşısını almağa çalışmalıdır. İşğalın davam etdirilməsi təcavüzkarı daha da şirnikləndirir. Vaşinqton Azərbaycana geniş yardım etməklə ona şimal və cənubdan edilən təzyiqləri yumşalda bilər. Ağ ev Azərbaycana yalnız ticarət-iqtisadi ortaq və tərəfdar kimi deyil, strateji müttəfiq kimi baxmaq barədə düşünə bilər. Bu sahədə ilk ciddi addımları məhz Vaşinqton atmalıdır. Azərbaycanın bu təkliflərə etiraz edəcəyini gözləmək düzgün olmazdı. ABŞ konqresinin "Azadlığın müdafiə aktı"-nın 907-ci düzəlişi bir tərəfdən, Ağ evin nüfuzuna xələl gətirərsə, digər tərəfdən isə, Azərbaycana təzyiq vasitəsidir. Dünyada demokratiyanın və ədalətin qoruyucusu kimi tanınan ABŞ-da yalnış məlumatlar və erməni təəssübkeşliyi qəbul edilən belə sənəd onun imicinə zərbədir.

Rusiya tərəfindən Azərbaycanın şimal dəmir yolunun bağlanması, İrana gedən dəmir yolunun işləməməsi ilə blokadaya düşən, 20 faiz ərazisi işğal edilən, 1 milyon nəfərdən çox qaçqını olan Azərbaycana humanitar yardımı göstərilməsinin qadağan edilməsi, əksinə, təcavüzkara yardım göstərilməsi regionda

demokratik inkişafa mane olur, qeyri-bərabərlik yaradır, 1992-1996-cı illərdə ABŞ-ın Qafqaz ölkələrinə ayırdığı 1,1 milyard dollar maliyyə yardımının yarıdan çoxu - 600 milyon dolları təkcə Ermənistana çatmışdır. Bu, Azərbaycan üçün həyəcan təbili olmalıdır. Ən azı ona görə ki, ABŞ konqresinin 907-ci maddəyə düzəlişi - ABŞ-ın dövlət xətti ilə Azərbaycana maddi yardımı qadağan olunması hələ də qüvvədə qalmaqdadır. Halbuki Azərbaycan özünün ən əhəmiyyətli stareji xammal ehtiyatının - neftinin bölünməsində məhz ABŞ-a üstünlük vermişdir.

### *Asiya və Afrika ölkələri ilə münasibətlər*

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin istiqamətlərindən biri Asiya və Afrika ölkələri ilə münasibətlərdir. Dövlətimizin bu ölkələrlə qarşılıqlı münasibətlərinin bir sıra səciyyəvi cəhətləri vardır.

Əvvəla, Azərbaycanı Asiya və Afrikanın bir sıra dövlətləri ilə coğrafi-siyasi yaxınlıq birləşdirir. Bunun təkcə ikitərəfli siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar və b. əlaqələr üçün deyil, eyni zamanda ciddi strateji əhəmiyyəti vardır. Avropa və Asiyanın qovuşağında yerləşən Azərbaycan Qərb ölkələrinin Şərqə, Şərq ölkələrinin isə Qərbə çıxmasında körpü rolunu oynayır.

İkincisi, Asiya və Afrikanın bir çox ölkələrini Azərbaycanla dini, mədəni və soy-kök telləri birləşdirir. Bu amllər məlum olduğu kimi, dövlətlərarası, bütövlükdə beynəlxalq münasibətlərdə özünəməxsus rol oynayırlar.

Üçüncüsü, Asiyadakı 44, Afrikadakı 55 dövlət dünya siyasətində səciyyəvi yer tuturlar. Onların çoxu bloklara qoşulmamaq hərəkatının üzvləridir. Bu hərəkat 1961-ci ildə Belqradda yaradılmışdır. Tərkibinə görə, rəngarəngdir. Onun iştirakçıları özlərinin sosial-iqtisadi və mədəni inkşaf yolunu müəyyənləşdirmək, öz sərvətlərindən müstəqil istifadə etmək uğrunda mübarizə aparırırlar. Bu dövlətlər beynəlxalq iqtisadi münasibətlərin ədalətli, bərabərhüquqlu və hər hansı məhdudiyyətlər olmadan həyata keçirilməsini irəli sürürlər. Azərbaycan dövlətinin xarici siyasət məqsədləri bu ölkələrlə səmərəli qarşılıqlı münasibətlərin qurulmasını və inkşaf etdirilməsini zəruri edir.



Dördüncüsü, Asiya və Afrikanın qovuşağında yerləşən Yaxın və Orta Şərq strateji nəqliyyat, ticarət, enerji və xammal mənafeləri rayonudur. Bir sıra dövlətlərin maraqları bu regionda toqquşur. Bu region dünya neftinin 2/3 hissəsini verir və onda çoxlu təbii ehtiyatlar toplanmışdır.

Beşincisi, bu regionda üç səmavi din - islam, xristianlıq və iudizm yaranmışdır. Bu üç dinə etiqad edən xalqlar arasında tarazlaşdırılmış mövqe tutan bu regionda nüfuzu yüksəlir, münaqişələrin həllində və təhlükəsizlik məsələlərində rolu artır.

Azərbaycanın bu istiqamətdə münasibətlərində Türkiyə xüsusi yer tutur. Türkiyə 1918-ci ildə olduğu kimi, yenə də birinci olaraq Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıdı, 1992-ci il yanvarın 14-də diplomatik münasibətlər qurdu.

Dünya və region siyasətində Türkiyənin rolunu və istəklərini bir sıra amillər şərtləndirir: o, Asiya və Avropa dövləti kimi əlverişli strateji mövqedə yerləşmişdir; bir sıra dövlətlər Türkiyə ilə normal münasibətlər qurmaqla öz problemlərini həll etmək istəyir; o, dünyanın mərkəzi dəniz yollarına və boğazlarına nəzarət edir və bununla da bir sıra dövlətlərin iqtisadiyyatına təsir göstərə bilir; regionun iqtisadi cəhətdən inkişaf etmiş və qüdrətli hərbi dövlətidir; güclü və demokratik inkişaf edən NATO ölkəsidir; Avropa və dünya təşkilatlarında iştirak edir, özünü Avropa siyasətində dəst-xətti olan dövlət sayır, hesab edir ki, onun yeri təkcə Asiyada deyil, eyni zamanda Avropadadır; regionda sülhün və təhlükəsizliyin taleyində özünü məsuliyyətli sayır; terorizmə qarşı mübarizə aparır.

Türkiyədən başqa beş müstəqil türk dövlətinin - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın bərabərhüquqluqu üzvü olması beynəlxalq aləmdə onun dayaqlarını gücləndirir. Bu türk dövlətləri təkcə beynəlxalq və məhəlli təşkilatlarda deyil, eyni zamanda özlərinin yaratdıqları türk dövlət başçılarının zirvə toplantısında və Türksoyda əməkdaşlıq edirlər. Türk xalqlarının tarixən olmuş zəngin dövlətçilik ənənələri, bu xalqların tarixdə möhtəşəm 16 imperatorluq və 50-yə yaxın dövlət yaratmaları müasir şəraitdə dünya siyasətində onların roluna təsir edir. Rusiyada türk muxtar qurumlarının mövcudluğu və onların müstəqilliyə can atmaları Türkiyənin əhəmiyyətini artırır. Lakin soyuq müharibə başa çatdıqdan sonra region siyasətində Türkiyənin rolunda dəyişiklik əmələ gəlmişdir. Əgər soyuq müharibə dövründə Türkiyənin SSRİ

ilə ümumi sərhəddinin olması Qərb ölkələrinə xeyir verirdisə və Türkiyənin rolunu artırırdısa, SSRİ dağıldıqdan sonra bu, artıq öz əhəmiyyətini zəiflətmişdir. Qərb dövlətləri gənc dövlətlərlə özləri birbaşa əlaqələr qururlar. Türkiyə öz nüfuz dairəsini türk dünyasına yaymaqda coğrafi yaxınlığını itirmişdir. Naxçıvanla olan kiçik sərhəddi nəzərə almasaq, Türkiyə yeni türk dünyasından coğrafi cəhətdən ayrı düşmüşdür.

Türkiyə problemlərsiz də deyildir. Daxildə - bir sıra qonşu dövlətlər tərəfindən dəstəklənən və bilavasitə yardım göstərilən terrorçuluq hərəkətləri ölkənin zəiflədilməsinə və parçalanmasına yönədilmişdir. Dövlətin başı xeyli dərəcədə terorçuluğa qarşı mübarizəyə qarışmışdır; müxtəlif siyasi partiyalar arasında hakimiyyət uğrunda gedən mübarizə xalqın mənəvi-psixoloji ruh yüksəkliyinə mənfi təsir göstərir; infilyasiya sürətlə gedir.

Xaricdə - Türkiyə bir sıra düşmən və ya bədxah dövlətlərin əhatəsindədir. Rusiya, Yunanıstan, Bolqarıstan, Ermənistan, İraq, Suriya və İran kimi qonşuları ilə Türkiyənin problemləri vardır. Bəzi dövlətlər təzyiq vasitəsi kimi guya Türkiyədə insan haqlarının pozulmasını müxtəlif səviyyəli beynəlxalq toplantılarda müzakirə obyektinə çevirməyə çalışırlar.

Rusiya təzyiq vasitəsi kimi boğazlar məsələsini demək olar ki, bütün beynəlxalq təşkilatlarda qaldırır. 1936-cı il 23 iyul tarixdə imzalanmış Möntre konvensiyasına uyğun gələn Türkiyənin hərəkətlərinə qarşı çıxır və hər dəfə də uğursuzluğa məhkum olur. Ona görə də Türkiyə regionda aparıcı dövlət olmaq, Azərbaycan neftininAralıq dənizindəki Ceyhan limanı vasitəsi ilə nəql edilməsinə, nüfuz dairəsini yaymağa çalışır və s.

Azərbaycan - Türkiyə münasibətlərinin inkşafında hər iki tərəf maraqlıdır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artırması deməkdir. Ona görə də bu iki dövlətin münasibətlərinin beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkşafı zəruridir. Diplomatiya tarixi sübut edir ki, Azərbaycan - Türkiyə dövlətlərarası münasibətləri heç vaxt dini və etnik amillər üzərində inkişaf etdirilə bilməz. Dünya siyasəti və dövlətlərarası münasibətlər bir qayda olaraq tərəflərin mənafelərinin tarazlığı üzərində qurulur.



Türkiyə - Azərbaycan əlaqələrində bir sıra qüsurlara da yol verilmişdir. Əvvəla, Azərbaycan - Türkiyə münasibətlərinin yaxşı olmasında istifadə edən bəzi qüvvələr hələ möhkəmlənməmiş Azərbaycan Respublikasını cənub qonşumuz olan İran və şimal qonşumuz olan Rusiyaya qarşı qoymağa çalışırdılar. Türkiyə ilə İran arasında mövcud olan müəyyən ixtilaflardan istifadə edən bu qüvvələr Azərbaycan - İran münasibətlərini soyuqlaşdırmağa səy edirdilər. Bütün bu cəhdlər baxmayaraq Türkiyə Rusiya ilə münasibətlərini kəskinləşdirmədi. O, ilk növbədə Rusiya ilə mehriban münasibətləri qaydaya salmağa çalışdı.

İkincisi, “türkün türkdən başqa dostu yoxdur” kimi açıq-aşkar şüarlar söyləyənlər nəticə etibarilə Azərbaycan anlayışına, türkçülüyə Azərbaycançılığa və Azərbaycan dövlətçiliyinə zərbə vururdular. Azərbaycan ərazisində əsrlər boyu bərabərhüquqlu yaşayan, özlərini azərbaycanlı hesab edən və Azərbaycandan başqa heç bir vətən barədə düşünməyən milli azlıqlar tədricən soyuqlaşmağa başladılar.

Üçüncüsü, müstəqillik illərində Türkiyə ilə qarşılıqlı münasibətlərdə diqqəti cəlb mənfi cəhətlərdən biri bəzi şəxslərin əvvələr bir "böyük qardaş " olan Rusiyadan çılğınlıqla uzaqlaşıb, digər bir "böyük qardaş "a - Türkiyəyə meyl etmələri ilə bağlı idi. Lakin Türkiyə qətiyyətlə bildirdi ki, o, böyük qardaş deyildir, bütün türk xalqları ilə ekiz və bərabər qardaşdır. Belə mövqenin böyük əhəmiyyəti vardı. Əks təqdirdə süni surətdə “böyük qardaş” yaratmaq cəhdləri xalqda ələ baxımlıq, öz qüvvələrinə və müstəqilliyə inamsızlıq, dövlət quruculuğunda fəal iştirak etməmək, qul psixologiyası yaradırdı.

Dördüncüsü, tarix sübut edir ki, türklük yüz illərlə davam edən dəhşətli müstəmləkə zülmünə tab gətirdi, qədim dövlətçilik ənənəsini, mədəniyyətini və mənəvi dünyasını qoruyub saxlaya bildi. Türk xalqları arsında dirçəliş indi daha sürətlə gedir və onların arasında hərtərəfli qarşılıqlı əlaqələrin genişləndirilməsi zəruridir. Ancaq Adriatik dənizi sahillərindən Sakit okeana qədər yaşayan bütün türkləri birləşməyə, özünə qayıtmağa dünyaya sahib olmağa, böyük türk dövləti yaratmağa səsləyən açıq-aşkar emosional çağırışlar həm türkçülüyə, həm də başqa ölkələrlə dövlətlərarası münasibətlərin inkşafına xələl gətirirdi. Türkçülüyə belə bəsit və bayağı münasibət dünya sivilizasiyası tarixində özünəməxsus yer

tutmuş digər xalqlarda türk xalqlarına qarşı xoş niyyət yaratmırdı və qısqanclığa artırırdı. Diplomatiya tarixinin təcrübəsi sübut edir ki, dövlətlər arası münasibətlərin etnik amillər üzərində qurulması cəhdləri çox vaxt uzunmüddətli uğur qazandırmır və ona qarşı müxtəlif sərt bloklar yaradılır. Türk xalqları arasında hərtərəfli, xüsusən mədəni, humanitar əlaqələrin maneəsiz inkşafı vacibdir və təbii - tarixi prosesdir.

Beşincisi, Azərbaycanın bir qütbdən - Rusiyadan sürətlə ayrılıb digər qütbə - Türkiyəyə meyl etməsi onsuzda strateji müttəfiq olan Rusiya ilə Ermənistanı daha da yaxınlaşdırır. Rusiya Azərbaycanı Ermənistan qarşısında aciz və zəif rəqib kimi qoymaqla ona dərs vermək istəyir. Belə şəraitdə Ermənistanın təcavüzkarlığına qarşı Türkiyənin hətta hərbi əməliyyatlara başlamasını, silahla qüvvə tətbiq etməsini tələb edən bəzi dairələr də var idi. Ermənistan Qafqazda Rusiyanın işğalçılıq siyasətində, milli-azadlıq hərəkatlarının yaradılmasında, türk, müsəlman xalqlarının əsarət altında alınmasında bir alət olmuşdur. Və bunun müqabilində Ermənistan Rusiyadan istədiyini almağa, yəni yeni torpaqlar ələ keçirib dənizdən-dənizə "Böyük Ermənistan" yaratmağa çalışır. Ermənistanla Rusiya arasında bağlanan siyasi, iqtisadi, texniki və hərbi yardım haqqında müqavilələr də məhz buna xidmət edir. Lakin ermənilərin əli ilə azərbaycanlıları, gürcüləri və Şərqin digər xalqlarını vurmaq əslində geniş mənada Rusiyanın mənafelərinə ziddir. Çünki Rusiyanın tarixən yeritdiyi və yenə də əl çəkə bilmədiyi imperiya təfəkkürlü siyasət Moskva ilə hətta keçmiş müttəfiqləri, indi isə yaxın qonşuları arasında qarşıdurma, açıq-aşkar düşmənçilik yaratmışdır. Rusiyanın keçmişdə eyni dövlətin daxilində olduğu Ukrayna, Latviya, Litva, Estoniya, Moldova, Orta Asiya dövlətləri, Azərbaycan, Gürcüstan və b. ilə münasibətləri rəvan deyildir. Rusiya yeritdiyi zorakı, iddialı və təzyiqli xarici siyasəti sayəsində dost olmayan dövlətlər əhatəsində qalmışdır. Digər tərəfdən, Rusiya Federasiyasının daxilindəki türk, müsəlman xalqları amilini də nəzərdən qaçırmaq olmaz. Mövcud reallıq Moskvanın yaxın qonşuları, o cümlədən, türk, müsəlman xalqları ilə normal münasibətlərini tələb etsə də, Kreml bundan hələ çox uzaqdır. Deməli , belə şəraitdə Ermənistan Rusiya - Türkiyə qarşıdurmasını, hətta münaqişəsini törətmək, buna xristian - müsəlman xarakteri verməklə Qərb dövlətlərini də cəlb etməyə səy göstərir. Ermənistanın



Azərbaycana qarşı təcavüzkarlıq siyasətində Türkiyənin tutduğu mövqe mövcud şəraitdə onun dövlət və milli mənafelərinə xidmət edir və hərbi əməliyyatlara qoşulmamaq düzgündür. Ankaraya Qərb ölkələrinin, xüsusən ABŞ-ın etdiyi müəyyən təsiri də unutmaq olmaz. Erməni diasporunun böyük olduğu ölkələr Türkiyəyə ciddi diplomatik təzyiqlər göstərirlər.

Azərbaycan - Türkiyə münasibətlərinin geniş prespektivləri vardır. Bu münasibətlərin deyişən dünya reallıqlarına uyğun olaraq iki tərəfli siyasi (məsləhətləşmələr, beynəlxalq və regional təşkilatlarda mövqelərin uyğunlaşdırılması, diplomatik-siyasi sənədlərin imzalanması və s.), iqtisadi,hərbi, elmi-texniki, mədəni və humanitar sahələrdə böyük potensialı toplanmışdır. Onların hərəkətə gətirilməsi, münasibətlərin emosiyalardan uzaq, ciddi əsasda inkişaf etdirilməsi zəruridir.

1991-ci il noyabrın 11-də Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət kimi Türkiyə 1992-ci il yanvarın 14-də diplomatik münasibətlər qurdu və 1992-ci ilin martında Türkiyə prezidenti Turqut Ozalın səfəri SSRİ tərkibində münasibətlərin inkişafı üçün şərait yaratdısa da, bu münasibətlər xeyli məhdud idi. Müstəqillik e'lan edildikdən sonrakı ilk vaxtlarda iki ölkə arasındakı münasibətlər kifayət qədər səmərəli deyildi. Bu,əsasən SSRİ dağıdıldıqdan sonra Azərbaycanda mövcud olan rejimlə bağlı idi. Türkiyə ilə geniş əlaqələr 1992-ci il 14 may hadisələrindən sonra qurulmağa başladı. 1992-ci ildə Türkiyənin baş naziri S.Dəmirəlin, xarici işlər naziri H.Çətinin, Türkiyə Böyük Millət Məclisin deputatlarına Azərbaycana səfərləri iki ölkə arasındakı çoxsahəli münasibətləri yeni əsasda inkişafı üçün zəmin hazırladı.

Öz növbəsində 1992-ci ildə Azərbaycan Respublikası prezidenti Ə.Elçibəyin və palamentin sədri İ.Qəmbərin Türkiyə Respublikasına səfərləri bu dövr üçün qarşılıqlı siyasi münasibətlərin inkişaf dinamikasını səciyyələndirən əsas amillərdən hesablana bilər.

1993-cü ilin dekabrında Respublika parlamentinin sədri R.Quliyev Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindorukun də'vəti ilə Türkiyəyə qısa müddəti rəsmi səfər etdi. Səfər zamanı ikitərəfli münasibətlər, regionda sülh və təhlükəsizliyin qorunması məsələləri müzakirə olundu.

Həmin ilin dekabrında Azərbaycanın nümayəndə hey'əti Türkiyə Böyük Millət Məclisinin də'vəti ilə Türkiyəyə səfər etdi.

Səfər zamanı keçirilən çoxsaylı görüşlər ikitərəfli əlaqələrin inkişafında müsbət rol oynadı. Siyasi münasibətlərin vəziyyəti iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrin inkişafına kömək etdi. Öz növbəsində bu əlaqələr siyasi münasibətlərin rəvan inkişafına şərait yaratdı. İki ölkə arasında imzalanan ticarət-iqtisadi əməkdaşlıq sahəsində sənədlərə diqqət etirək: 1990-cı il yanvarın 10-da iqtisadi və ticarət əlaqələrin inkişafına dair protokol; 1990-cı il 19 sentyabr tarixli sərhədyanı ticarətin inkişafına dair protokol; dəniz və çay yük daşımaların haqqında yenə həmin tarixli saziş; Araz çayı üzərində körpünün tikilməsi və buraxılış məntəqəsinin qoyulması barədə saziş; 1991-ci il 26 aprel tarixli energetika sahəsində əməkdaşlığa dair protokol; Azərbaycan Respublikası Prezidentinin səfəri zaman iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığa dair müqavilələr imzalandı.

İmzalaanan sənədlərin reallaşması üçün xeyli iş görüldü. Araz çayı üzərində avtomobil yolu, ümumi smeta dəyəri 21 milyon rubl olan dəmir yolu körpüsü tikildi, Sədərək rayonuna elektrik enerjisi verən elektrik xəttinin tikintisi başa çatdırıldı; dəniz və çay yük daşımalarına başlanıldı; işgüzar əməkdaşlığa dair ikitərəfli Azərbaycan-Türkiyə komitəsi yaradıldı; Türkiyə hökuməti ilə bağlanmış müqaviləyə görə 1992-ci ildə Azərbaycana 1 milyon ton taxıl məhsulları verildi. Azərbaycan tərəfi bu məhsullar üçün 115 milyon ABŞ dolları xərclədi. Respublikada Türkiyənin «Podrat İmport-Eksport», «Degere İnk», «Matsan DİŞ Ticarət A.Ş.», «Penta DİŞ Ticarət A.Ş.» və başaq firmada kompaniyalarının nümayəndəlikləri açıldı.

İkitərəfli əməkdaşlığın əsas formalarından biri qarşılıqlı müəssisələrin yaradılması oldu. Bu illərdə Respublikada 39 Azərbaycan-Türkiyə birgə müəssisəsi qeydə alındı. «Azneft» istehsalat birliyinin və Türkiyənin «Pet Oyl Korporeyted» firması neft və qaz axtarışları axtarmağa başladı Sumqayıtın «Kimyasənaye» və «Sintetikkauçuk» birlikləri Türkiyənin «Diegere İnk» və «Penta DİŞ Ticarət» firmaları müxtəlif sahəli əməkdaşlığa başladılar. «Sumqayıt Məişət Kimyası» birliyi və «Çapay Bayarlama» Sintetik yuyucu maddələrin istehsalının ildə 40 min tona qədər çatdırmaq barədə bərpa və yenidənqurma işləri gərməyi öhdələrinə götürdülər. «Bakı kondensioner» elm-istehsalat birliyi və Türkiyənin «Meltem Soyutma İsitmə ticarət A.Ş.» firması məişət kondensionerlərinin



istehsalı; «Simtel» firması ilə tozsoranların istehsalı barədə protokollar imzaladılar.

Respubika Kənd Təsərrüfatı və Ərzaq nazirliyi Türkiyənin «Təkəl» firması ilə siqaret və digər tütün mə'mulatları istehsalı barədə razılaşmaq əldə etdilər . İşgüzar əməkdaşlıq mineral sular istehsalı, gödəkcə, köynək, şalvar və uşaq paltolarının kütləvi birgə buraxılışı sahəsində də aparıldı. Bununla belə, müstəqilliyin ilk illərində Türkiyədəki bə'zi iş adamları Azərbaycana xammal bazası kimi baxaraq istehsal müəssisələrin tikməkdən uzaq qaçırdılar. Kəskin rəqabət meydanı olan dünya bazarlarına-xüsusən Qərbi Avropaya yol aça bilməyən və rəqabətə tab gətirə bilməyən Türkiyənin bə'zi işgüzar dairələri üçün Azərbaycan xammal mənbəyinə çevrildi.

Azərbaycanla Türkiyə arasında elmi-texniki və mədəni əməkdaşlıq məsələləri də diqqət mərkəzində oldu. 1990-cı ilin yanvarın 10-da 1990-1992-ci illər üçün mədəni və elmi-texniki mübadilə barədə protokol; 1990-cı il 19 sentyabrda rabitə məsələlərinə dair saziş; yenə həmin tarixdə Bakı-İstanbul hava xəttinin açılması barədə saziş; 1991-ci il 16 mart tarixli turizm sahəsində əməkdaşlığa dair protokol və s. imzalandı. Azərbaycan Respublikası prezidentinin Türkiyə səfəri zamanı elmi-texniki və mədəni əlaqələrə dair iki ölkə arasında saziş imzalandı. Müstəqilliyin ilk illərində imzalanan bu sənədlər tezliklə reallaşmağa başladı. Bakı-İstanbul hava xtti açıldı; Respublika Rabitə Nazirliyi ilə Türkiyənin «Netaş» və «Teletaş» şirkətləri ilə telekommunikasiya sahəsində bağlanan müqaviləyə uyğun olaraq ümumi dəyəri 512 min ABŞ dolları olan beynəlxalq telefon stansiyası quraşdırıldı; Azərbaycanla Türkiyə arasında 30 xətli beynəlxalq rabitə sistemi yaradıldı; mehmanxanalar sahəsində əməkdaşlıq quruldu; Türkiyənin televiziya proqramları Azərbaycanda göstərilməyə başlandı; «Zaman» və «Milliyyət» qəzetlərinin büroları respublikada açıldı.

Azərbaycan Respublikası ilə Türkiyə arasında elmi əməkdaşlıqda Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutu, Geologiya İnstitutu və Bakı Dövlət Universiteti özünəməxsus rol oynadılar.

Azərbaycan Respublikasının təhsil və səhiyyə nazirliklərinin Türkiyənin müvafiq nazirlikləri ilə əməkdaşlığı, tələbə aspirant və müəllim mübadiləsi genişlənir.

Azərbaycan və Türkiyənin qadın təşkilatları arasında əlaqələr uruldu.

Qarşılıqlı razılaşma əsasında Bakıda və İstanbulda ixtisaslaşdırılmış «Türk dünyası» və «Azərbaycan dünyası» kitab mağazaları açıldı. 1992-1995—ci illərdə 0 cildlik Azərbaycan və Türkiyə ədəbiyyatı anatologiyası nəşr etmək planları həyata keçirilməyə başlandı.

İki ölkə artistlərin, müğənnilərin və folklor qruplarının mübadiləsi, xalça və rəssamların əsərləri sərgiləri, kino festivalları uğurla keçdi, turist əlaqələri genişləndi.

1994-cü ildə Türkiyənin energetika naziri Veysəl Atasoy, TBMM-in sədri Hüsaməddin Cindoruk Azərbaycana səfər etdilər. H.Cindoruk Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edildi, parlamentin sədri, Xarici işlər naziri ilə görüşdü. Milli Məclisdə çıxış etdi. Qarşılıqlı anlaşma şəraitində keçən bu görüşlərdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi sahəsində fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran aktual beynəlxalq məsələlər müzakirə edildi. Səfərin yekunu olaraq tərlər arasında parlamentlərarası əməkdaşlıq haqqında saziş və bəyannamə imzalandı.

Öz növbəsində Azərbaycanın müxtəlif səviyyəli nümayəndə hey'ətləri Türkiyədə oldular, Azərbaycan Prezidentinin Türkiyəyə səfəri zamanı o, dövlətin, hökumətin, parlamentin başçıları, işgüzar adamlarla görüşlər keçirtdi, parlamentdə çıxış etdi. İkitərəfli münasibətlərə dair sənədlər imzalandı.

1995-ci ildə Türkiyənin baş naziri Tansu Çillər, xarici işlər naziri Ərdal İnönü. Energetika naziri Veysəl Atasoy, əmək və sosial tə'minat naziri Mustafa Kul Azərbaycana səfər etdilər. Tədqiq edilən illərdə iki ölkə arasında siyasi səfərlərin yüksək nöqtəsi Türkiyə prezidenti Süleyman Dəmirəlin səfəri oldu. Səfər zamanı o, Milli Məclisin ilk iclasında çıxış etdi, qaçqınlarla, ictimaiyyətin nümayəndələri ilə, iş adamları ilə görüşdü, birgə bəyanat, tələviziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalandı, iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiq olunması və qüvvəyə minməsi barədə notalar mübadiləsi edildi. Səfər iki ölkə arasındakı münasibətlərdəki emosional əlaqələrə son qoyaraq, onlara ciddi, işgüzar, qarşılıqlı faydalı təməl verdi.



Azərbaycan dövlətinin xarici siyasətində İran özünəməxsus yer tutur. Tərəddüdlərdən sonra 1991-ci il dekabrın 25-də İran Azərbaycan respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də diplomatik münasibətlər qurdu.

İranla münasibətlər Azərbaycan dövlətinin xarici siyasətinin mübahisəli məsələlərindən birinə çevrildi. Əslində bu məsələyə münasibətdə Şimali Azərbaycanda iki xətt var idi. Birinci xəttin tərəfdarları Cənubi Azərbaycandakı azərbaycanlıların vəziyyətini və bölünmüş Azərbaycan amilini əsas götürərək İrana qarşı kəskin xətt yeritməyi təklif edirlər. Lakin Azərbaycanın düşdüyü vəziyyət, xüsusən, Rusiyadan edilən aramsız təzyiqlər, şimal dəmir yolunun işləməməsi və Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranmış şərait bu xəttin tərəfdarlarının istəklərini və praktik fəaliyyətini heçə endirdi.

İkinci xəttin tərəfdarları Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü real vəziyyətdən çıxış edərək İranla məhriban qonşuluq və əməkdaşlıq münasibətlərinin inkşaf etdirilməsini vacib sayırdılar. Real vəziyyətdə bu xətt tədricən Azərbaycan dövlətinin İrana münasibətdə rəsmi xəttinə çevrildi.

İranda 20 milyon nəfərdən çox soydaşlarımızın vəziyyəti iki ölkə arasındakı münasibətlərə bu və ya başqa dərəcədə təsir göstərir.

İranda Azərbaycanın dövlət müstəqilliyinə birmənalı münasibət mövcud deyildi. Azərbaycanın dövlət müstəqilliyinə təhlükə kimi baxan İranın bəzi rəsmi dairələri onu tanımaqda çətinlik çəkirdilər. Türkiyə, Rumıniya, Pakistan, Monqolustan, Litva, Əfqanistan, İsveçrə kimi dövlətlərin Azərbaycanın dövlət müstəqilliyini artıq tanımalarına baxmayaraq, İran hələ də tərəddüd edirdi. İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə. Vilayəti 1991-ci ilin noyabrında Moskvaya səfəri zamanı keçirdiyi danışıqlardan sonra "Moskvanın səsi" radiostansiyasına verdiyi müsahibəsində birmənalı şəkildə bildirdi: "Biz Azərbaycanın müstəqilliyini tanımaq niyyətində deyilik. Bu respublika ilə münasibətlərimiz Sovet İttifaqı çərçivəsində inkişaf etdiriləcəkdir." İranın bu rəsmi mövqeyi tarixi ənənələrə söykənirdi. İki ölkə arasında diplomatik münasibətlərin tarixindən məlumdur ki, hələ 1918-ci il noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ə. Topçubaşovla İstanbuldakı görüşündə İran elçisi Mirzə Mahmud xan deyirdi: "Siz dövlətinizi "Azərbaycan" adlandırırsınız. Bu, nə deməkdir? Bu, İran

hüdudlarında yerləşən indiki Azərbaycana iddialarınız deməkdirmi? (Topçubaşov A.A. Diplomatiçeskiye besedı v Stanbule (1918-1919). Baku, 1994, s. 53). İran elçisi Şimali Azərbaycanda, Qafqazda və İranda türklərin yaşamasını da inkar edərək hamını fars adlandırırdı. O deyirdi ki, “siz özünüzü Azərbaycan türkləri hesab edirsiniz. Amma bilməlisiniz ki, nəinki Azərbaycanda, habelə Qafqazda, Urmiyədə, Təbrizdə türk yoxdur, hər yerdə türk axtarmaq siyasətçilərin, Türkiyənin işidir və indiki xadimlərin planlarına daxildir. Sizin atalarınız, babalarınız hamısı farsdırlar. Sizdə sivilizasiya, mədəniyət, adət-ənənə, hətta kostyum da farslarındır. Mən özüm türkofil olsam da, İrana xidmət edirəm, onun mənafelərini qoruyuram.”

Ə.Topçubaşovun 1919-cu il yanvarın 9-da İstanbulda İranın xarici işlər naziri Müşaverel Məmalək Əli Qulu xanla görüşündə İran tərəfi Azərbaycan məsələsinin həllini İranla birləşməkdə görürdü. Göstərirdi ki, sizin Azərbaycan haqqında məsələni İranla ittifaqda və birlikdə sizin xeyrinizə həll etmək olar. Sizin Azərbaycan, əlbəttə, daxili muxtariyyətini qoruyacaqdır. Birləşmək indi bizə lazımdır. Yoxsa, ruslar əvvəlcə sizi, sonra da bizi yeyəcəklər.

Sonrakı danışıqlarda da İran belə iddiaları irəli sürürdü. Cənub qonşumuzun 20-40-cı illərdəki siyasəti mahiyyətcə 1918-20-ci illərdəkindən fərqlənmirdi. Həm birinci dəfə, həm də 90-cı illərdə İran öz istəyinə çata bilmədi və Azərbaycanın dövlət müstəqilliyini tanımağa məcbur oldu. Reallıq üstünlük qazandı, tarixin təkərini geri döndərmək mümkün olmadı. Lakin diplomatik-siyasi manevrlər və gizli niyyətlər bütün sonrakı illərdə hökm sürürdü.

İran tarixən Rusiya imperiyasına, sonra isə SSRİ-yə özünün ərazi bütövlüyünə və müstəqillyinə təhlükə kimi baxmışdır. Lakin yeni müstəqil dövlətlər meydana gəldikdən sonra İranın Şimal sərhədlərində strateji vəziyyət dəyişmişdir. İran və Rusiya arasında bufer zona yaranmışdır. Bu isə İran üçün bilavasitə təhlükəni aradan qaldırmışdır. Bununla belə, Rusiya təhlükəsi aradan qalxmadığından, İran Azərbaycanla mehriban olarsa, şimal tufanından özünü qorumaq üçün yaxşı sipər qazana bilər. İran bir fövqəl dövlətlə deyil, bir neçə yeni dövlətlə qonşudur. Onlar da İran üçün təhlükəli törətmirlər. İran problemlərsiz də deyildir. Daxildə muxtariyyət meylləri əsəbiliklə qarşılanır. İranda islam inqilabından sonra bu ölkənin yeritdiyi siyasətə dünya ölkələri içərisində birmənalı münasibət mövcud



deyildir. Yeganə fövqəl dövlət kimi ABŞ İranı terrorizmi himayə etməkdə, regionda vəziyyəti kəskinləşdirməkdə, islam fundamentalizmini yaymaqda və s. təqsirləndirir, digər dövlətləri də buna qarşı çıxmağa çağırır. Lakin ABŞ-ın bu hərəkətləri hətta Qərb müttəfiqləri tərəfindən də dəstəklənmir, İran - Qərbi Avropa ölkələri qarşılıqlı münasibətləri inkşaf edir.

Öz növbəsində, İran ABŞ-ı dünya hegemonluğuna can atmaqda təqsirləndirir və bütün müsəlman dövlətlərini islam həmrəyliyi bayrağı altında ona qarşı mübarizədə birləşdirmək istəyir. Lakin İranın da bu səyləri müsəlman ölkələri tərəfindən laziıınca müsbət qarşılanmır. Və bəzi ölkələr istisna olunsa, İran bu cəbhədə tək qalır. İran Azərbaycan - ABŞ əməkdaşlığına, xüsusən, məlum neft konsorsiumuna qarşı çıxır və ABŞ-ın Qafqaza nüfuz etməsini öz mənafelərinə zərbə kimi qiymətləndirir.

İranın elan etdiyi prinsiplər və praktik xarici siyasət fəaliyyəti də çoxlu suallar doğurur. Cənub qonşumuz özünü beynəlxalq aləmdə bütün müsəlmanların müdafiəçisi elan etmişdir. Azərbaycan dövləti isə demokratik, dünyəvi dövlət kimi beynəlxalq münasibətlərin dini prinsiplər üzərində qurulmasının və xalqları dini etiqada görə bölməyin əleyhinədir.

Əvvəla, İran bir tərəfdən Azərbaycanı İsrail və ABŞ-la yaxşı münasibətlər qurmaqda və guya islam dininə xəyanət etməkdə təqsirləndirir. Bunun əksinə olaraq, İranın özü Azərbaycan ərazilərinin 20 faizdən çoxunu işğal edən, 1 milyon 200 min nəfərdən çox müsəlman azərbaycanlını qaçqına çevirən, islam dinin müqəddəs yerlərini dağıdıb təhqir edərək silah anbarlarına çevirən Ermənistanla hərtərəfli siyasi, iqtisadi, texniki, maliyyə və s. sahələrdə əməkdaşlıq edir. Müsəlman çeçen xalqına qarşı soyqırımını həyata keçirən Moskva ilə Tehran mehriban münasibətlər saxlayır və onlar strateji müttəfiqə çevrilirlər.

Azərbaycan öz xarici siyasət fəaliyyətində hamılıqla qəbul olunmuş normaları əsas götürür və dövlətimizin xarici və daxili siyasəti islam prinsipləri əsasında qurulmur. İsrail və ABŞ isə Azərbaycan torpaqlarını işğal etmişlər.

İranın digər müsəlman dövlətləri olan Misir, Səudiyyə Ərəbistanı, İraq və başqa ölkələrlə münasibətlərində çətinliklər vardır.

İranın elan etdiyi prinsiplərin onun praktik fəaliyyəti ilə uyğun gəlməməsinin səbəbləri nədir? Başlıca cavab budur: İranda yaşayan xalqların vahid İran milləti, islam dini, ideologiya altında birləşdirməklə İranın dövlət bütövlüyünü qorumaq.

Dağlıq Qarabağ məsələsində İranın vasitəçilik rolu onun Şimal-Qərbi Asiyada yeritdiyi strateji xəttin tərkib hissəsidir. Vasitəçilik səyləri bir sıra motivlərlə bağlıdır. İran tarixi dəlillərə əsaslanan və münaqişələrə səbəb olan ərazi iddialarını qəbul etmir. Regionun aparıcı dövləti olduğunu sübut etmək və öz təhlükəsizliyini qorumaq istəyir. Sərhədləri boyunca hərbi əməliyyatların getməsi və gərginlik İran üçün təhlükədir və onun davam etməsi Tehranın mənafelərinin ziddinə olaraq Rusiyanın regionda rolunu artırır. Bu da əsassız deyil. Çünki Rusiyanın hərbi doktrinasına görə, onun Qafqazdakı sərhədləri İran və Türkiyəyə qədər hesab edilir. İran Ermənistanla Azərbaycan arasında güc tarazlığını qorumağa çalışır. İran həm xristian Ermənistanının, həm də İrana ərazi iddiaları irəli sürə biləcək Azərbaycanın güclü olmasını istəmir. Ona görə də İran bildirir ki, qonşularının ərazi bütövlüyünü qoruyacaqdır.

1991-ci ilin martında İranın siyasi və işgüzar dairələrinin, Televiziya və Radio Verilişləri Şirkətinin nümayəndələri, alimləri və din xadimləri Bakıda oldular. Qonaqlar Novruz bayramı şənliklərində iştirak etdilər.

Noyabrın 25-dən dekabrın 4-nə qədər Bakıda İİR-in sənaye malları sərgisi keçirildi. Sərgidə Şərqi və Qərbi Azərbaycan əyalətlərinin Zəncan və Gilanın 303 firması iştirak etdi.

1991-ci ilin mart və dekabr aylarında Tehranda Azərbaycan, Bakıda isə İran kitabı sərgisi keçirnildi. Sərgilərdə 3 minə yaxın kitab nümayiş etdirildi.

Yenə həmin ilin may ayında Azərbaycanın kitab naşirləri Tehranda üçüncü və dördüncü Beynəlxalq kitab yarmarkalarında iştirak etdilər. Nəticədə kitab sərgilərinin mübadiləsi kitab nəşri və ticarət sahəsində saziş imzalandı. Bakı, Naxçıvan, Tehran və Təbriz şəhərlərində kitab mağazalarının açılması nəzərdə tutulurdu.

Martın 3-də Bakı və Tehran arasında avtomatik telefon xəttinin ismarına başlandı.

Novruz bayramı münasibətilə İran hökuməti Azərbaycan Respublikasına humanitar yardım göstərdi.



1991-ci ilin oktyabrı və 1992-ci ilin fevralında Bakı və Tehranda iki dövlətin idmançıları arasında görüşlər keçirildi.

1992-ci ilin yanvar ayında Azərbaycan nümayəndə heyəti İranda oldu. Səfər zamanı 10 milyon dollarlıq mal mübadiləsi aparmaq, İrandan alınmış 160 avtobusun, 10 min ton düyü və başqa ərzaq məhsullarının gətirilməsi barədə sənəd imzalandı.

Fevralda Azərbaycan Respublikasının parlament üzvlərindən, ziyalılardan, ictimai və siyasi təşkilatların rəhbərlərindən ibarət nümayəndə heyəti İran inqilabının il dönümü münasibətilə keçirilən tədbirlərdə iştirak etdi.

Fevralın 4-də Bakı - Tehran - Bakı xətti açıldı. Martın 17-dən də bu reyslər iki tərəfli xarakter aldı.

1992-ci ilin avqust ayında Təbrizdə Azərbaycan Respublikasının «Azərbaycanın ixracat məhsulları» sərgisi keçirildi. Sərgidə əlliyə qədər sənaye müəssisələrinin məhsulları nümayiş etdirildi. Bu, müstəqil Azərbaycanın respublika sərhədləri xaricindəki ilk sərgisi idi.

Həmin ilin avqustunda Azərbaycan Respublikasının xarici işlər naziri İİR-də rəsmi səfərdə oldu. Səfər zamanı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və İİR Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqıda protokol imzalandı.

Sentyabrda Tehranda keçirilən kukla teatrlarının beynəlxalq festivalında respublikamızı A.Şaiq adına kukla teatrı təmsil etdi.

Oktyabrda Tehranda keçirilən Xəzəryanı ölkələrin əməkdaşlıq təşkilatının təsis konfransının işində Azərbaycan nümayəndə heyəti iştirak etdi.

Noyabrın 6-dan 20-nə qədər Bakıda Azərbaycan - İran birgə iqtisadi komissiyasının iclası keçirildi. Görüşün nəticəsi olaraq iki ölkə arasında iqtisadi əməkdaşlanq haqqında memorandum imzalandı.

Dekabrın 13-də İran İslam Respublikasının prezidenti Əli Əkbər Haşimi Rəvsəncani Azərbaycanı İranda ilk səfərini qəbul etdi. Dekabrın 12-də səfir etimadnaməni İİR xarici işlər naziri Əli Əkbər Viilayətiyə təqdim etdi.

1992-ci dekabrın 27-29-da Azərbaycan Respublikasının Dövlət katibinin başçılıq etdiyi nümayəndə heyəti İir-də rəsmi səfərdə oldu. Səfər zamanı iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair muqavilələr imzalandı.

1993-cü ilin yanvar ayında Qarabağ müharibəsində yaralanmış bir qrup (18 nəfər) hərbi qulluqçu İrana müalicəyə göndərildi. Bu tədbirin həyata keçiriləməsinə görkəmli ədib və həkim doktor Cavad Heyət kömək etdi. Qarabağda döyüşlər zamanı yaralanan 14 nəfər Azərbaycan vətəndaşı müalicə üçün Rəşt şəhərinin xəstəxanalarında yerləşdirildilər. Həmin ayda Azərbaycan rəssamları arasında ilk dəfə olaraq Təbrizdə qrafik Cəmil Müfidzadənin 50t əsərindən ibarət fərdi sərgi Şəhriyar məqbərəsində təşkil olundu.

Fevralın əvvəlində respublikamızın təxminən 250 idmançısı İran İslam inqilabının 14 il dönümü münasibətilə keçirilən beynəlxalq idman yarışlarında iştirak etmək üçün Tehrana yola düşdü. Bu beynəlxalq turnirdə əksəriyyəti müsəlman ölkələrindən olan 250 çox idmançı həmin müxtəlif növlər üzrə yarışlarda mübarizə apardırlar. İran İslam Respublikası Qərbi Azərbaycan ostandarlığının təşəbbüsü ilə Naxçıvan şəhərində İranın ticarət mərkəzi açıldı, Lənkəran şəhərində İran malları yarmarkası keçirildi.

Martın ortalarında Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyev İİR-nin xarici işlər naziri doktor Əli Əkbər Vilayətinin dəvəti ilə bu ölkədə iki günlük səfərdə oldu. Səfərdə məqsəd İranla Azərbaycan arasında əlaqələri möhkəmləndirmək, blokada şəraitində yaşayan Naxçıvanın mövcud problemlərinin həllində İİR-nin köməyindən istifadə etmək idi.

Martın 31-dən aparelin 5-nə kimi Azərbaycan Respublikasında görkəmli Azərbaycan şairi Şəhriyarın yubleyinə həsr olunmuş təntənəli tədbirlər çərçivəsində beynəlxalq elmi simpozium keçirildi. Bu tədbirdə İranda keçirilmiş Şəhriyar yubleyinə həsr olunmuş tədbirlərin davamı oldu.

1993-cü il aprelin 11-də Azərbaycan Respublikasının dövlət katibi Tehrna iki günlük işgüzar səfərə gəldi. İİR-nin prezidenti Ə.Həşimi Rəfsəncaniyə Azərbaycan prezidentinin birinci müavini doktor Həsən Həbibi tərəfindən qəbul edildi.

1993-cü il avqustun 17-18-də İran İslam Respublikası xarici işlər naziri Əli Əkbər Vilaytinin Azərbaycan Respublikasına səfəri zamanı parlamentin sədri, Baş nazir, Dövlət katibi və digər rəsmi şəxslərlə keçiçrilən görüşlərdə iki qonşu ölkə arasındakı münasibətlərin inkişafı məsələləri müzakirə edildi. Səfər zamanı bir sıra mühüm sənədlər imzalandı.



Ə.Ə.Həşimi Rəfsəncaninin 1993-cü il oktyabrın 26-28-də Azərbaycanda səfərdə olması, siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrə dair 14 saziş, protokol və memorandumun imzalanması iki ölkə arasındakı münasibətlərdə əvvəlki illərdə yol verilmiş soyuqluğun aradan qaldırılmasında, münasibətəlrin normal inkişaf etdirilməsi üçün zəmin yaradılmasında əsaslı rol oynadı. İran prezideti Azərbaycan Respublikasının prezidenti ilə görüşdü, şəhidlər xiyabanında, hərbi qospitalda, Elmlər Akademiyasında oldu. İmzalanan sənədlər aşağıdakılar idi: İran İslam Respublikasının Mədəniyyət Mərkəzi ilə Azərbaycan Elmələr Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının Sənaye Nazirliyi arasında protokol; iki ölkənin ticarət nazirlikləri arasında niyyət protokolu; Azərbaycan Respublikası ilə İran arasında qarşılıqlı ticarət haqqında saziş; Azərbaycan Milli Bankı ilə İran İslam Respublikasının Mərkəzi Bankı arasında bank ödəniş sazişi; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında tranzit haqqında saziş; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında nəqliyyat sahəsində qarşılıqlı anlaşma memorandumu; Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi əməkdaşlıq haqqında niyyət protokolu; İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında elm, mədəniyyət, iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında saziş (Naxçıvan Muxtar Respublikasına dair); Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma protokolu; Azərbaycan Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Ali Təhsil və Mədəniyyət Nazirlikləri arasında elm, təhsil və tədqiqatlar sahəsində əməkdaşlıq haqqında memorandum.

Səfər zamanı iki dövlətin xarici işlər nazirləri Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında adi xarici pasportlardan gediş-gəlişin asanlaşdırılmasına dair memorandum, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında siyasi məsləhətləşmələr haqqında protokol imzaldılar.

İki ölkənin prezidentləri isə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsiplrii haqında memorandum imzaladılar.

Səfər göstərdi ki, İran İslam Respublikası ilə qonşu müsəlman ölkələri arasında geniş əməkdaşlıq imkanları vardır.

1993-cü ilin dekabrın əvvəllərində Azərbaycan Respublikası parlamentinin sədri R. Quliyev İran İslam Respublikası Parlamentinin başçısı Natiq Nurinin dəvəti ilə bu ölkəyə qısa rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında geniş münasibətlər müzakirə edildi, bölgədə sülhü və təhlükəsizliyi qorumağın, məsələləri dinc siyasi vasitələrlə həll etməyin vacibliyi göstərildi.

1994-cü ildə İranın xarici işləri naziri Əli Əkbər Vilayəti, Şərqi Azərbaycan Ostanının başçısı Ə.Əlizadə, neft naziri Qulamrza Ağazadə. Xarici işlər nazirinin müavinləri M.Vaizi, Murteza Səmədi, parlamentin sədri Natiq Nuri Azərbaycana səfərə gəldilər.

İran parlamentinin sədri Azərbaycan prezidenti tərəfindən qəbul edildi. Parlamentin sədri, Xarici işlər naziri, həmçinin Şeyxülislam H.A.Paşazadə ilə görüşdü, Milli Məclisdə çıxış etdi. Bu görüşlərdə beynəlxalq problemlərlə yanaşı, iki ölkənin hərtərəfli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi sahəsində fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran aktual məsələlər müzakirə edildi. Səfərin yekununda tərəflər arasında əməkdaşlıq haqqında saziş və bəyannamə imzalandı.

Həmin ildə Azərbaycan prezidenti İrana səfər etdi. Səfər zamanı iki ölkə arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət bəyanat imzalandı. Bəyanat həyatın bütün sahələrində əməkdaşlığı müəyyənləşdirirdi.

1995-ci ildə İranın kooperasiya naziri, Azərbaycan-İran müştərək iqtisadi, txniki, elmi və humanitar komisiyasının İran tərəfindən sədri Qulamrza Şafeinin başçılıq etdiyi nümayəndə hey'əti Azərbaycanda oldu. Səfərlər iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əlaqələrə təkan vurdu. Lakin bir sıra məsələlərdə, xüsusən Qərb neft şirkətlərinin Xəzər dənizinin Azərbaycan sektorunda neft çıxarmasına İran tərəfi qəti e'tiraz edirdi, Azərbaycan güya Qərbə güzəştə getməkdə təqsirləndirirdi.

Azərbaycan dövlətinin bu istiqamətdə xarici siyasət fəaliyyətində Pakistan və ərəb ıolkələri xüsusi yer tutur. Pakistan Azərbaycanın dıovlət müstəqilliyini 1991- ci il dekabrın 12- də tanındı və 1992-ci il iyunun 8-də diplomatik münasibətlər qurdu. Misir 1991- ci il dekabrın 26-da Azərbaycanın dıovlət müstəqilliyini tanıdı, 1992-ci ilin aprelində diplomatik münasibətlər qurdu .



Səudiyyə Ərəbistanı 1991-ci il dekabrın 30-da Azərbaycanın dıovlət müstəqilliyini tanıdı və 1992-ci il fevralın 24-də diplomatki münasibətlər qurdu. Bu dıovlətlər regionda ıozünəməxsus yer tuturlar.

**Səudiyyə Ərəbistanı** 1991-ci il dekabrın 30-da Azərbaycanın müstəqilliyini tanıdı, 1992-ci il fevralın 24-də onunla diplomatik münasibətlər qurdu. Lakin müstəqilliyin ilk illərində əlaqələr demək olar ki, inkişaf etmədi. Yalnız 1994-cü ildə Azərbaycan prezidenti bu ıolkəyə səfər etdi. O, ıolkənin məliki Fəhd ibn Əbdül Əziz və digər rəsmi şəxslərlə gıorüşdü və səfər zamanı iki ıolkə arasında iqtisadi, ticarət, investisiya, elm-texnika, mədəniyyət, idman, turizm sahələrində əməkdaşlığıa dair sazişlər imzalandı. Sənədlər müsəlman dünyasının ən nüfuzlu ıolkəldərindən biri olan bu dıovlətlə qarşılıqlı işgüzar əməkdaşlığın təməlini qoydu.

1995-ci ildə Səudiyyə Ərəbistanı məlikliyinin ticarət-sənaye Palatasının prezidenti Şeyx Əbdül Rəhman əl Carisinin səfəri zamanı iki ıolkənin müvafiq təşkilatları arasında gələcək əməkdaşlıq barədə niyyət protokolu imzalandı. Ǐolkələrimiz arasında əlaqələr işgüzar, qarşılıqlı faydalı xarakter almağa başladı.

**Birləşmiş Ərəb Əmirlikləri** 1991-ci il dekabrın 26-da ıolkəmizin dıovlət müstəqilliyini tanıdı, 1992-ci il sentyabrın 1-də onunla diplomatik əlaqələr qurdu. İki ıolkə arasında münasibətlərin ən mühüm hadisəsi Azərbaycan nümayəndə hey'ətinin səfəri oldu. Azərbaycan parlamenti sədrinin başçılığı ilə nümayəndə hey'əti 1994-cü il oktyabrın 28-30-da Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfər etdi. Səfər zamanı Azərbaycan nümayəndə hey'əti BƏƏ-nin dıovlət, parlament və hıokumət rəhbərləri tərəfindən qəbul edildi, bir sıra idarə və təşkilatlarda gıorüşlər keçirtdi, iki ıolkə arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi ətrafında müzakirələr apardı. Tərəflər iki ıolkə parlamentləri arasında dostluq və əməkdaşlıq münasibətlərini mıohkəmləndirmək əzmini nümayiş etdirərək bu məsələlər barədə razılığa gəldilər: hər iki tərəfin nümayəndə hey'ətləri və ekspertləri səviyyəsində qarşılıqlı səfərlər və gıorüşlər təşkil etmək; beynəlxalq sülh və əmin-amanlığın və insan hüquqlarının qorunması, terrorizmə və narkomaniyaya qarşı mübarizə, ətraf mühitin qorunması, azad ticarət, bazar iqtisadiyyatı, energetika və texnologiya, ədəbiyyat, incəsənət və bir sıra digər sahələrdə iki parlament arasında məsləhətləşmələr aparmaq və

əməkdaşlıq etmək: beynəlxalq parlamentlərarası məclislərdə hər bir milləti maraqlandıran problemlərlə bağlı mıovqeləri uzlaşdırmaq.

Gıorüşün yekununda tərəflər arasında razılaşdırılan birgə bəyannamədə parlamentlər arasında əməkdaşlığın sahələri müəyyənləşdirildi, əməkdaşlığın təməli üçün addımlar atıldı.

Suriya Ərəb Respublikası Azərbaycan dıovlətinin müstəqilliyini 1992-ci il yanvarın 16-da tanıdı, 1992-ci il martın 28-də onunla diplomatik münasibətlər qurdu. Azərbaycan-Suriya əlaqələrində 1992-ci ilin martın sonunda bu ıolkənin xarici işlər naziri Fərrux Əş-Şaranın ıolkəmizə səfəri zamanı iki ıolkə arasında diplomatik münasibətlərin yaradılması və iqtisadi əməkdaşlığa dair hıokumətlərarası sazişin imzalanması əhəmiyyətli rol oynadı. Lakin tədqiq edilən illərdə ıolkələrimiz arasında əməkdaşlıq hələ də geniş deyildi. Bu həm də əsasən Suriyanın regiondakı vəziyyəti ilə bağlı idi.

1995-ci ildə Küveyt Dıovləti Milli Məclisi sədrinin müavini Saleh Yusif əl-Fəzallah Azərbaycana səfər etdi. Səfər zamanı o, ıolkə rəhbərliyi tərəfindən qəbul edildi, ikitərəfli siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni əlaqələr müzakirə olundu.

Azərbaycanın xarici siyasətinin istiqamətləri arasında ƏRƏB ŞƏQİNİN aparıcı ıolkəsi olan, bıoyük hərbi-iqtisadi potensiala və insan ehtiyatına (əhalisi 55 mln.nəfər) malik olan MİSİR ƏRƏB RESPUBLİKASI ilə qarşılıqlı faydalı münasibətlərin inkişafı vacib yer tutdu. Azərbaycan-Misir münasibətlərinin kıokləri iki xalq arasındakı tarixi, mədəni, dini və s. yaxınlıqlara əsaslanır. Bu münasibətlərin əhəmiyyəti Misirin Ərəb dünyasında siyasət lideri olması,, onun beynəlxalq aləmdə, xüsusi BMT, Ərəb Dıovlətləri Cəmiyyəti, Afrika Birliyi TƏşkilatı, İslam Konfransı TƏşkilatı və s. beynəlxalq təşkilatlarda olan nüfuzlu ilə müəyyənləşirdi.

Azərbaycan Respublikasın 1991-ci il 19 oktyabrda qəbul etdiyi «Dıovlət müstəqilliyi haqqında» Konstitusiya aktı Misirlə əlaqələrin inkişafında yeni mərhələ açdı. Artıq 1991-ci il dekabrın 26-da Misir Azərbaycan Respublikasının müstəqilliyini tanıdı, 1992-ci il aprelin 4-də isə iki ıolkə arasında diplomatik əlaqələr yarandı. Bu qısa müddətdə iki dıovlət arasında uzunmüddətli əməkdaşlığın əsası qoyuldu. Azərbaycan Respublikasının xarici işlər naziri T.Qasımovun rəhbərlik etdiyi nümayəndə hey'əti 1992-ci il 7-9 noyabrda Misir Ərəb Respublikasında rəsmi səfərdə oldu. Səfər iki



ıolkə arasında müxtəlif sahələrdə əlaqələrin, o cümlədən siyasi, mədəni, ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi və bu əlaqələrin perespektivlərinin müəyyənləşdirilməsi məqsədini güdürdü. Nümayəndə hey'ətin tərkibinə Azərbaycanın Xarici İqtisadi Əlaqələr naziri, iki bankın-milli və beynəlxalq bankların rəhbərləri, eləcə də Xarici işlər nazirliyinin bir neçə əməkdaşı daxil idi. İl gıorüş Misirin planlaşdırma nazirliyində keçirildi. Misirin planlaşdırma naziri, həm də baş nazirinin müavini d-r Kamal əl-Qənzuri ilə sıohbət zamanı əsasən, iki respublikanın iqtisadi əlaqələrinin yaradılması barədə razılıq əldə edildi.

Azərbaycan Respublikası Xarici işlər naziri Misir prezidenti Hüsnu Mübarəklə gıorüşdü. Səmərəli keçən bu gıorüş zamanı həm siyasi, həm də iqtisadi məsələlərdən danışıldı. Misir prezidentinə Azərbaycanın güclü iqtisadi potensiala malik olması barədə geniş mə'lumat verildi. Azərbaycanda yüksək səviyyəli elmi və texniki kadrların mıovcudluğu da onun nəzərinə çatdırıldı.

Siyasi məsələlər müzakirə zamanı nümayəndə hey'ətinin başçısı Misir prezidentinə Azərbaycan-Ermənistan münaqişəsindən sıohbət açdı və bu məsələdə Azərbaycanın tutduğu mıovqeyi Misir tərəfinin nəzərinə çatdırdı. Sıohbətin gedişindən mə'lum oldu ki, Misir prezidenti Azərbaycanda baş hadisələr barədə ətraflı mə'lumata malikdir. O, Azərbaycan tərəfinin mıovqeyi ilə ıoz ıolkəsinin mıovqeyinin üst-üstə düşdüyünü qeyd etdi.

Sessiyanın gedişində dünyanın bir sıra nüfuzlu dıovlətlərinin, o cümlədən ABŞ, Bıoyük Britaniyanın qanunverici orqanlarının təmsilçiləri Dağlıq Qarabağ ətrafında gedən münaqişədə Azərbaycan tərəfinin haqq işini dəstəklədiklərini bildirdilər. Bu münasibət sessiyada qəbul edilən yekun sənədlərində əksini tapdı. Azərbaycan nümayəndə heyətinin təklif və düzəlişləri səs çoxluğu ilə qəbul edildi. Bütün cəhdlərinə baxmayaraq Ermənistan tərəfin heç bir düzəlişi qəbul edilmədi. İyulun 8-də ATƏT-in Parlament məclisinin yekun iclasında yeni sənəd—«Vyana Bəyannaməsi» qəbul edildi. Bu sənəd ATƏT-in cari dıovr üçün fəaliyyət proqramı olmaqla yanaşı bir sıra mübahisəli məsələlərin optimal həlli yollarını ıozündə əks etdirirdi.

Azərbaycan nümayəndə heyətinin ATƏT-in Parlament məclisinin 1995-ci ilin 12-13 yanvarında Vyanada keçirilən Bürosu və Daimi Komitəsinin iclasında, Parlament sədrinin başçılığı ilə nümayəndə heyətinin iyunun 4-8-də Ottavada (Kanada) keçirilən illik sessiyasının işində iştirakı qurulmuş əlaqələrin davamı oldu.

Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri Avropa Birliyidir. Avropa Birliyi 1993-cü il fevralın 27-də Azərbaycanla münasibətlər qurdu. Bu təşkilat son 50 ilə yaxın bir dıovrün təcrübəsidir. Lakin qitə dıovlətlərinin siyasi cəhətdən birləşdirilməsinə dair çoxlu layihələr əvvəlllər də mıovcud olmuşdur.



Hələ XIV əsrdə əsrdə Fransada Pyer Dyüqa, XV əsrdə çex kralı İrji Podebrad, XVII əsr Fransız maarifçisi, keşiş Sen Pyer, utopik sosializm nəzəriyəçisi Sen Simon, anarxo-sindikalizmin ideoloqu Pyer Jozef Prudon qitənin birləşdirilməsi ideyasını irəli sürmüşdülər. Yazıçı Viktor Hüqo ilk dəfə olaraq Avropa Birləşmiş Ştatları şüarını, 1992-ci ildə isə Avstriya aristokratı R.N.Kudenxove-Kalerqi “Pan Avropa” şüarını irəli sürdülər. Sonralar 20-ci illərdə Fransanın xarici işlər naziri Aristid Brian bu ideyanı praktikada həyata keçirməyə başladı.

Avropa Birliyinin əsası 1957-ci ildə altı dıovlət tərəfindən “Ümumi bazar” kimi qoyuldu. Artıq 1995-ci ildə onun sıralarında 350 milyon əhalisi olan 15 ıolkə var idi: AFR, Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq (təsisçilər), Bıoyük Britaniya, Danimarka, İrlandiya, Yunanıstan, Portuqaliya, İspaniya (1973-cü 1986-cı illərdə daxil olmuşdur), Avstriya, İsveç, Finlandiya. İrlandiya və sonuncu üç ıolkədən başqa, bütün üzvlər eyni zamanda NATO-ya da daxildir.

1995-ci ildə Jan Pyer Petersin başçılıq etdiyi Avropa Birliyinin nümayəndə heyəti bir neçə dəfə Azərbaycana səfər etdi. Səfər zamanı bu təşkilatla Azərbaycanın əlaqələri müzakirə edildi. Bununla bərabər Avropa Birliyinin gənc müstəqil dıovlətlərlə əlaqə şıobəsinin müdiri Fokion Fotiadisi, Birliyin komissiyasının komissarı Hans Van Den Bruk başda olmaqla nümayəndə heyətləri ıolkəmizdə oldular. Gıorüşlərdə Azərbaycana yardım proqramları, əməkdaşlıq məsələləri geniş ıoyrənildi. Aparılan danışıqlar və genişlənən əlaqələr nəticəsində Avropa Birliyi Azərbaycana etibarlı tərəfdaş kimi baxmağa başladı.

Azərbaycan dıovlətinin 1996-cı ilin baharında Avropa Birliyinin proqramına qoşulması strateji əhəmiyyətli bir addımdır.

**AVROPA ŞURASI** ilə əlaqələrin yaradılması da qeyd olunmalıdır**.** Avropa Şurası Qərbi Avropa dıovlətlərinin dıovlətlərarası məsləhətçi orqanı olub 1949-cu ildə yaradılıb. Şuranın tərkibinə 30-a yaxın ıolkə daxildir. Şuranın məqsədi «Avropa ideyasını» həyata keçirməkdir. Şuranın rəhbər orqanları-Nazirlər Komitəsi və Məsləhətçi Parlament Məclisidir. Təşkilatın iqamətgahı Strasburqda (Fransa) yerləşir. Bu təşkilatın Strasburq şəhərində 1992-ci il oktyabr ayının ilk ongünlüyündə keçirilən iclasında Azərbaycan nümayəndə heyətinin iştirakı Dağlıq Qarabağ haqqında və

respublikamızın daxili və xarici siyasəti barədə həqiqətin ıozü nə yol açmasına kıomək etdi.

Əlaqələrin yaradılması baxımından diqqət mərkəzində olan beynəlxalq təşkilatlarından biri-**AVROPA ŞURASININ PARLAMENT MƏCLİSİDİR.** Avropa Şurası Parlament Məclisinin rəhbərliyi ilə əlaqədar yaradıldı. Bu əməkdaşlıq sonralar davam etdirildi və 1993-cü il aprel ayının 28-30-da Avropa Şurası parlamentinin ekspertlərdən ibarət nümayəndə heyəti Azərbaycana səfər etdi. Azərbaycana, Gürcüstana və Ermənistana səfər zamanı əlaqələr inkişaf etdirildi.

1994-cü ildə Avropa Şurasının Parlament Məclisi ilə əməkdaşlıqda Strasburq şəhərində Dağlıq Qarabağla bağlı keçirdiyi gıorüş (4-11 iyul) müəyyən yer tutdu. Gıorüşdə Azərbaycan nümayəndə heyəti iştirak etdi. Nümayəndə heyəti gıorüşlərdə Ermənistanın ıolkəmizə qarşı əsassız ərazi iddiaları ilə bağlı hərbi təcavüzkarlığını, onun nəticələrini, bu münaqişədə Azərbaycanın beynəlxalq hüquqa tamamilə uyğun olan sülhsevər və əməli mıovqeyini açıqladı.

Nümayəndə heyəti Avropa Şurası Parlament Məclisinin bu təşkilatın üzvü olmayan Avropa ıolkələri ilə əlaqələr komitəsinin sədri Deyvid Atkinsonla, Avropa Şurasının siyasi məsələlər üzrə departamentinin direktoru Q.P.Fürerlə, Avropa Şurası Baş Katibinin müavini X.Klebeslə gıorüşdü. Gıorüşlərdə Azərbaycan parlament nümayəndə heyəti respublika parlamentinə Avropa Şurasında «xüsusi qonaq» statusu verilməsi məsələsini qaldırdı. Avropa Şurasında bu məsələ barəsində Azərbaycana kıomək gıostəriləcəyi bildirildi.

D.Atkinson başda olmaqla Avropa Şurası Parlament Məclisinin nümayəndə heyəti həmin ildə ıolkəmizə səfərə gəldi. Səfər zamanı o, dıovlət, hıokumət və parlament başçıları ilə danışıqlar apardı, təşkilatla Azərbaycanın münasibətləri, Ermənistanın təcavüzkarlığına son qoyulması məsələləri müzakirə olundu.

Azərbaycan Respublikasının NATO (North Atlantic Treatru Organisation) ilə əlaqələri diqqəti cəlb edir. Şimali Atlantika Bloku 1949-cü ildə ABŞ, Bıoyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka, İslandiya arasında bağlanmış müqaviləyə əsasən yaradılıb. 1952-ci ildə Türkiyə və Yunanıstan, 1955-ci ildə AFR, 1982-ci ildə isə



İspaniya bu təşkilata daxil olub. 1966-cı ildən Fransa NATO-nun hərbi təşkilatında iştirak etmir. 1974-cü ildə Yunanıstan ondan çıxdığını bildirdisə də, 1980-ci ildə burada ıoz üzvlüyünü bərpa etdi. Bu təşkilatın ali orqanı NATO Şurasının sessiyasıdır. NATO-nun qərargahı Brüsseldə (Belçika) yerləşir.

1992-ci il oktyabrın 1-dən 5-dək Antalya şəhərində (Türkiyə) NATO üzvü olan ıolkələrin siyasi seminarında Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı və təşkilatın Baş katibi Manfred Vernerlə keçirilən gıorüşlər ilkin addımlar kimi müsbət hesab edilməlidir.

1993-cü il fevralın 10-12-də Azərbaycan nümayəndə heyəti Avropada təhlükəsizlik məsələləri üzrə Şimali Atlantika Məclisinin Brüsseldə keçirilmiş konfransında iştirak edərək Azərbaycandakı demokratik proseslər, Dağlıq Qarabağda vəziyyət Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü haqqında məlumat verdi.

1994-cü ildə Azərbaycanın xarici işlər naziri H.Həsənov Şimali Atlantika Əməkdaşlığı Şurasının işində iştirak və çıxış etdi. NATO ilə əlaqələrin ən yüksək nıoqtəsi-Azərbaycan prezidentinin Brüsselə səfəri oldu. Səfər zamanı o, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramını imzaladı, NATO rəhbərliyi ilə, Belçikanın baş naziri Cak Rük Deanla və b. İlə gıorüşlər keçirtdi.

NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı sənədinin imzalanması Azərbaycanı Qərb ıolkələri ilə yaxınlaşdırır, Çünki NATO qeyri-sabit, münaqişələrlə dolu dünyada sabitliyi qoruyan mıohtəşəm qüvvədir. NATO-nun proqramında iştirak etmək ola bilsin iştirakçı dıovlətlər, eyni zamanda onun bir çox tarixi rəqibləri arasında münaqişələri aradan qaldırardı. NATO-nun sayəsində məhz ıoyrənilən illərdə də dünyanın bıoyük bir hissəsi həm ıoz xalqı, həm də başqaları üçün təhlükə yaratmırdı və sabitlik zonasına çevrilirdi. Belə sabitlik zonası isə birdən-birə yaradılmamışdı. Onun üçün uzun illər lazım gəlmişdi.

Əlbəttə, NATO üzv olmaq xeyli çətin bir proses olub, müəyyən ıohdəliklərin yerinə yetirilməsini tələb edir. Təşkilatın üzvü olan ıolkələr bundan ıotrü dıord prinsip müəyyən etmişlər.

**BİRİNCİSİ, KOLLEKTİV TƏHLÜKƏSİZLİK.** Təşkilatın nizamnaməsinin 5-ci maddəsinə gıorə hamı biri üçün, biri hamı üçün prinsipi əsas gıotürülür. Bununla belə, hər bir ıolkənin ıoz

hərbi strukturu, ıoz qüvvəsi və eyni zamanda hamını birlikdə qorumaqdan ıotrü ümumi struktur vardır.

**İKİNCİ PRİNSİP DEMOKRATİYADIR.** NATO sadəcə olaraq 16 ıolkə deməк deyildir. NATO-dünyanın 16 güclü və demokratik cəhətdən müvəffəqiyyətlə inkişaf etmiş ıolkəsinin ittifaqıdır. Bu ıolkələr sülhü və azadlığı, sərhədlər daxilində insan hüquqlarını qoruyurlar, xarici ıolkələrin suverenliyinə, sərhədlərinin bütıovlüyünə hıormət edirlər. Onların silahlı qüvvələri mülki nəzarət altındadır. Təşkilata daxil olan ıolkələr bu prinsipi də yerinə yetirməlidirlər.

**ÜÇÜNCÜ PRİNSİP KONSENSUSDUR.** Bu prinsipə gıorə NATO ıozünün geniş tərkibinə baxmayaraq konsensus əsasında fəaliyyət gıostərməlidir. Deməli, yeni üzvlər bütün məsələlərdə razılaşmalıdırlar. Lakin onlar ittifaqın bütün üzvlərinin tarixinə, mədəniyyətinə və adət-ənənələrinə hıormət etməlidirlər, beynəlxalq təhlükəsizlik məsələlərində olan ixtilafları əməkdaşlıq ruhunda həll etməlidirlər. İttifaqın daxilində qeyri-sabitlik yolverilməzdir. Məsələn, NATO-nun üzvü olan Yunanıstan və Türkiyə arasında sabitlik yaratmasına və həm də onların arasındakı ixtilafların Egey dənizi rayonunda münaqişəyə çevrilməsinə yol verilmir.

**DIORDÜNCÜ MÜHÜM PRİNSİP QIRŞILIQLI TƏHLÜKƏ-SİZLİKDİR** .NATO-nun silahlı qüvvələri birgə əməliyyatlar keçirirlər və birgə planlaşdırma aparırlar. Onlar hərbi büdcələrini bir-birindən gizlətmirlər, bəzən eyni silahlardan istifadə edirlər. Onların silahlı qüvvələrini səmərəli birləşdirmək üçün çoxlu ehtiyat vardır.

NATO ilə əməkdaşlıq, ona daxil olmaq bir sıra prosedur və prinsipial məsələlərin həllini tələb edir. Artıq 1995-ci ilin əvvəli üçün, ABŞ-ın müdafiə naziri Uilyam Perrinin bu təşkilatın Münhen konfrasındakı məruzəsində gıostərildiyi kimi, NATO-nun «Sülh naminə əməkdaşlıq» proqramına 40 ıolkə qoşulmuşdu. Bu prinsiplər NATO-ya daxil olmaqda əngəl deyil, təşkilatda və dünyada sülhə və sabitliyə təminatdır.

NATO ıolkələrinin həmin ildə keçirilən İstanbul toplantısında Azərbaycan dıovlətinin başçısı iştirak etdi. Səfər zamanı ABŞ Dıovlət katibi U.Kristofer və bir sıra ıolkələrin nümayəndə heyətlərinin başçıları ilə gıorüşdü. Toplantının yekununda NATO ıolkələri bəyannamə qəbul etdilər. Bəyannamənin 15-ci maddəsində Ermənistan-Azərbaycan münaqişəsinə dinc siyasi vasitələrlə son qoyulması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsinin, regionda sülhün qorunmasın zəruriliyi gıostərildi. İstanbul bəyannaməsini Azərbaycan xarici siyasətinin uğuru hesab etmək olar. İlk dəfə olaraq NATO ıolkələri BMT və ATƏT-in ardınca Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin vacibliyini gıostərdilər.

1995-ci ildə NATO-nun Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə heyəti, NATO-nun müxtəlif rəhbər strukturlarının, Ancelo Arena (İtaliya) başda olmaqla nümayəndə heyəti ıolkəmizdə səfərdə oldular. Səfər zamanı NATO ilə əməkdaşlıq məsələləri müzakirə edildi. NATO nümayəndə heyəti Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin və sülhün bərqərar edilməsinin vacibliyini bildirdilər.

Xarici işlər naziri H.Həsənov Niderlandın Noordvik şəhərində NATO-nun toplantısında iştirak etdi. Onun çıxışında NATO ilə ıolkəmizin əlaqələri, Azərbaycana qarşı Ermənistanın təcavüzkarlığının səbəbləri, vurduğu ziyanlar, problemin həllində Azərbaycanın tutduğu mıovqe açıqlanırdı. Keçirilən ikitərəfli gıorüşlər münasibətlərin qurulmasına, inkişafına və mıovqelərin aydınlaşmasına kıomək edirdi.

Azərbaycan 1991-ci ildə **İSLAM KONFRANSI TƏŞKİLATININ** da üzvü oldu. İslam Konfransı TƏşkilatı Asiya və Afrikanın təxminən 50 müsəlman ıolkəsini ıozündə birləşdirən dıovlətlərarası təşkilatdır. Müsəlman ıolkələrinin dıovlət və hıokumət başçılarının birinci konfransı 1969-cu ilin sentyabrında Rabatda (Mərakeş) keçirilib. İKT Ciddə şəhərində (Səudiyyə Ərəbistanı) 1972-ci ilin fevral-mart aylarında müsəlman dıovlətlərinin xarici işlər nazirlərinin üçüncü konfransında rəsmi şəkildə təsis edilib və nizamnaməsi qəbul olunub. İslam Konfransı Təşkilatının əsas təşkilatları-ali orqan-dıovlət və hıokümət başçılarının konfransı, xarici işlər nazirlərinin konfransı, Baş katiblikdir. İKT-nin üzvü hər hansı islam dıovləti ola bilər. Üzvülük statusu bu təşkilatın səslərinin **2/3**-si alınan kimi qüvvəyə minir. İslam Konfransı Təşkilatının nizamnaməsi sülhə, təhlükəsizliyə və müxtəlif sahələrdə səmərəli əməkdaşlığa xidmət edir.

1992-1993-cü illərdə Azərbaycan dıovləti bu təşkilatın tədbirlərində müxtəlif səviyyələrlə təmsil olundu. Qəbul edilən

qərarlar Azərbaycanın tanımasına və suverinliyinin mıohkəmlənməsinə xidmət edirdi.

Eyni zamanda bu təşkilatın nümayəndə heyətləri ıolkəmizdə oldular. 1994-cü ildə İKT-nin Baş katibi Hamid Əl Qabid Azərbaycana səfər etdi. Səfər zamanı Azərbaycanın İslam Konfransı təşkilatı ilə əlaqələri, ıolkəmizin bu təşkilatda tutduğu yer müzakirə edildi. Hamid Əl Qabid İKT-nin Ermənistanın təcavüzkarlığını pislədi və münaqişənin dinc siyasi vasitələrlə həllinin vacibliyini gıostərdi. O, Ermənistanın beynəlxalq birliyin iradəsinə hıormət etməsinin zəruriliyini qeyd etdi.

İKT ilə əlaqələrin inkişafında keyfiyyətcə yeni mərhələ dekabr ayında Mərakeşdə keçirilən toplantı oldu. İKT-nin üzvü kimi Azərbaycanı dıovlət başçısının rəhbərliyi ilə nümayəndə heyəti təmsil edirdi. Mərakeş səfəri, keçirilən gıorüşlər bu təşkilatda Azərbaycanın mıovqeyinin mıohkəmlənməsinə, haqq işinin islam ıolkələri tərəfindən dəstəklənməsinə kıomək etdi. Bütıovlükdə, İKT Azərbaycan problemlərinin həllini dəstəkləyən, Ermənistanı birmənalı şəkildə təcavüzkar adlandıran yeganə təşkilat idi.

Azərbaycan dıovləti **QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞININ (QİƏ)** yaradıcılarından biri oldu. Bu təşkilatı 11 dıovlət-Azərbaycan, Albaniya, Ermənistan, Bolqarıstan, Yunanıstan, Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Türkiyə, Ukrayna 1992-ci ilin iyununda İstanbulda bəyannamə imzalayaraq yaratdılar. Sənədi Azərbaycan prezidenti Ə.Elçibəy imzaladı.

Təşkilatın ali və əsas həlledici orqanı QİƏ ıolkələrinin Xarici İşlər Nazirlərinin Şurasıdır. Şura altı aydan bir toplanılır və QİƏ-nin sədri əlifba qaydası ilə rotasiya üsuluyla seçilir. Şura iclasında əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilir və iradlar qəbul edilir.

QİƏ çərçivəsində əməkdaşlığın əsas istiqamətləri bunlardır: ticarət və sənaye; bank və maliyyə; nəqliyyat və rabitə; kənd təsərrüfatı.

1994-cü il iyunun 30-da QİƏ-nin Xarici İşlər Nazirləri Şurasının 4-cü iclası Tbilisidə keçirildi. İştirakçı dıovlətlərdən başqa bu tədbirdə Misir, İsrail, Polşa, Slovakiya, Tunis, Beynəlxalq Qara dəniz klubunun nümayəndələri və b. müşahidəçi kimi iştirak edirdilər.



1995-ci il aprelin 14-də Afinada Şuranın beşinci sessiyası keçirildi. Üzv ıolkələrdən başqa 7 dıovlət müşahidəçi kimi iştirak edirdi. İclasın yekununda qətnamələr, qərarlar və tıovsiyələr qəbul edildi.

Oktyabrın 5-dəki sessiyada isə Xarici İşlər Nazirləri QİƏ Bankının fəaliyyətini gücləndirməyi müzakirə etdilər.

QİƏ ıolkələrinin dıovlət və hıokumət başçılarının zirvə toplantısı 1995-ci il iyunun 30-da oldu. Toplantının yekununda Buxarest bəyannaməsi qəbul edildi. Tədbirdə Azərbaycan Respublikasının prezidenti H.Əliyev iştirak etdi. Təşkilatın bütün qərarları konsensus prinsipi ilə qəbul edilir. QİƏ-nin işinə operativ rəhbərliyi Katiblik həyata keçirir. Katibliyin başçısı olan Direktor üç ildən bir rotasiya üsulu ilə seçilir.

Azərbaycan dıovləti Qara dəniz İqtisadi Əməkdaşlığı təşkilatının strukturlarının yaradılmasında fəal iştirak etdi. Belə strukturlardan biri **QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİDİR (QİƏPM).** Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yaradılması prosesi bir neçə mərhələdən keçib. Birinci mərhələdə ekspertlər çalışdılar. 1992-ci il fevralın 1-dən-8dək İstanbulda QİƏ təşkilatına daxil olan ıolkələrin yaradılması nəzərdə tutulan Parlament Məclisinin nizamnaməsini hazırlamaqdan ıotrü milli parlamentlərin ekspert-hazırlıq komissiyalarının gıorüşü keçirildi. Gıorüşdə 8 ıolkənin-Türkiyə, Azərbaycan, Rusiya, Albaniya, Rumıniya, Ukrayna, Moldova və Gürcüstanın ekspert-hazırlıq komissiyaları iştirak etdilər.

QİƏPM-in yaradılmasının ikinci mərhələsi milli parlamentlərin başçılarının İstanbul gıorüşü oldu. Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yaradılması prosesində iştirak etmək üçün Azərbaycan parlamentinin sədri İ.Qəmbər başda olmaqla parlament nümayəndə heyəti 1993-cü il fevralın 24-dən-27-dək İstanbulda səfərdə oldu. Yığıncaqda 9 ıolkənin-Azərbaycan, Albaniya, Ermənistan, Moldova, Gürcüstan, Rumıniya, Ukrayna, Türkiyə parlamentlərinin sədrləri, Rusiya parlamentinin sədr müavini iştirak edirdilər. Yığıncaqda iki sənəd QİƏPM-in nizamnaməsi və QİƏPM-in yaradılması haqqında bəyannamə müzakirə edilərək qəbul olundu.

QİƏPM-in yaradılmasının sonuncu-üçüncü mərhələsi də İstanbulda keçirildi. 15-19 iyun 1993-cü il tarixdə Türkiyədə

(İstanbul) Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin Baş Məclisi keçirildi. Məclisdə 10 ıolkə iştirak edirdi. Türkiyə, Rusiya, Albaniya, Gürcüstan, Ermənistan, Ukrayna, Rumıniya, Moldova parlamentlərinin nümayəndə heyətlərinə müvafiq ıolkələrin parlament sədrləri-H.Cindoruk, R.Xasbulatov, P.Arbnori, A.Nastase, B.Ararkçayn, İ.Plyuş, V.Qoquadze, P.Luçinski başçılıq edirdilər.

QİƏPM-in prezidenti vəzifəsinə TBMM-nin sədri H.Cindoruk yekdilliklə seçildi. Eyni zamanda onun dıord müavini (Rusiya, Ukrayna, Rumıniya və Gürcüstan parlamentinin nümayəndələri) seçildi. QİƏPM-in Prezidenti, dıord müavini və xəzinədardan (Türkiyə parlamentinin nümayəndəsi) ibarət büro seçildi. Reqlament iyunun 17-də qəbul edildi. Yunanıstan 1995-ci il iyunun 6-dan təşkilatın bərabərhüquqlu üzvüdür. Bolqarıstan təşkilatın işində müşahidəçi kimi iştirak edir. Misir parlamenti 1995-ci ilin iyunundan QİƏPM-də müşahidəçidir. Parlamentlərarası İttifaq, Avropa Şurasının Parlament Məclisi və b. QİƏPM-in işində qonaq kimi iştirak edirlər. Təşkilatın iqamətgahı İstanbuldadır. Parlament məclisi 70 üzvdən ibarətdir. Yerlər ıolkə əhalisinin sayına müvafiq olaraq bıolüşdürülür Azərbaycanın 5 yeri vardır. QİƏPM-in məqsədi QİƏ-nin məqsəd, vəzifə və ideyalarını həyata keçirtməyə kıomək etmək, iqtisadi ticarət, sosial, mədəni və siyasi əlaqələr üçün hüquqi baza yaratmaq, qəbul edilən qərarlarını həyata keçirməyə yardım etmək, üzv ıolkələrdə parlament demokratiyasını yaymaq, digər beynəlxalq və məhəlli təşkilatlarla əməkdaşlıq qurmaqdır. Təşkilatın rəhbəri prezidentdir. Prezident rotasiya qaydası ilə 6 ay müddətinə seçilir. 1995-ci ilin noyabrından 1996-cı ilin iyununadək təşkilatın prezidenti Azərbaycan Milli Məclisinin sədri R.Quliyev oldu. Məclisin Bürosu-prezidentdən, 4 müavindən və xəzinədardan ibarətdir. Müavinlər iki il müddətinə gizli səsvermə ilə seçilirlər. Onlar iki müddət dalbadal seçilə bilməzlər. 1994-cü ilin iyunundan 1996-cı ilin dekabrınadək təşkilatın vitse-prezidentləri Azərbaycan parlamentinin sədr müavinləri A.Cəlilov və Y.Əliyev oldular. Parlament məclisinin Daimi Komitəsi-prezidentdən, dıord müavindən, xəzinədardan, üç komitə sədrindən və nümayəndə heyətlərinin başçılarından ibarətdir. Daimi Komitədə qərarlar yekdilliklə qəbul edilir. Daimi Komitə iclaslarını keçirmək üçün yetərsay üzvlərin 2/3-sidir. Daimi Komitənin əsas vəzifələri-qərarların icrasını izləmək, sessiyanın gündəliyini, müddətini, yerini



müəyyənləşdirmək, yeni komitələr, işçi qruplar yaratmaq, komitələrin fəaliyyətini əlaqələndirmək. Xəzinədarın təqdim etdiyi Büdcə layihəsini qəbul edib Məclisin müzakirəsinə vermək, QİƏ və QİƏPM arasında əlaqələri təmin etmək, QİƏPM-in digər beynəlxalq təşkilatlarla əlaqələrini yaratmaq, Büronun təklifi ilə Məclisin Baş katibini təyin etmək, nəzarət və azad etməkdir. Baş Məclisin sessiyası ildə iki dəfə-baharda və payızda keçirilir. Məclisin keçirilməsi üçün yetərsay iştirakçı dıovlətlərin sayının 2/**3**-sidir. Sessiyanın keçirildiyi yer prezidentin vətənidir.

Baş Məclis sənədlərini tıovsiyə, bəyannamə, fikir, qərar formalarında qəbul edir. Qəbul edilən sənədlər QİƏ-Xarici İşlər Nazirliyinin gıorüşünə, milli parlamentlərə, hıokumətlərə və beynəlxalq təşkilatlara gıondərilir.

Məclisin üç komitəsi vardır: iqtisadiyyat, ticarət texnologiya və ekologiya məsələləri; hüquqi və siyasi məsələlər; mədəniyyət, təhsil və sosial məsələlər. Komitələrin sədri və iki müavini olur. Komitə hər bir mıovzuya dair məruzəçi təyin edir. Komitə rəhbərliyi iki il müddətinə gizli səsvermə ilə seçilirlər. Onlar ikinci müddətə seçilə bilərlər. Komitələr xüsusi məsələlər üzrə yarımkomitələr yarada bilərlər. Məclisin Katibliyi-Baş katibdən, iki müavindən (maliyyə və idarəçilik işləri; təşkilat işləri), komitələrin katiblərindən ibarətdir. Məclisin rəsmi dilləri-ingilis, fransız rus və türk dilləridir.

Yarandığı vaxtdan bəri QİƏPM Baş Məclisinin aşağıdakı sessiyaları keçirilib və Azərbaycan tərəfi onlarda fəal iştirak edib: **İstanbul**-(16-18 iyun 1993-cü il); Kiyev-(29 noyabr-1 dekabr 1993-cü il); Buxarest-(20-22 iyun 1994-cü il); Tirana-(11-13 dekabr 1994-cü il); Moskva-(5-7 iyun 1995-ci il); Ankara-(26-29 noyabr 1995-ci il).

QİƏPM-in Baş Məclisi Azərbaycanın yaxından iştirakı ilə komitələrin təqdim etdiyi aşağıdakı məsələləri müzakirə edərək müvafiq qərarlar qəbul edib. Siyasi və hüquqi sahədə QİƏ üzvü olan ıolkələr arasında qanunvericiliyin uzlaşdırılması; QİƏPM üzvü olan ıolkələr arasında viza rejiminin sadələşdirilməsi; təbii fəlakətlərin və texniki qəzaların nəticələrini aradan qaldırmaq sahəsində əməkdaşlığı və s. dair tıovsiyələr qəbul olunub. Təşkilat siyasi məsələlərə aid aşağıdakı seminarlar keçirib; 1994-cü il 22-24 fevralda Ankarada QİƏPM üzvü olan ıolkələr arasında qanunvericilik sistemlərinin

yaxınlaşdırılması və uzlaşdırılması-demokratik institutların inkişaf etdirilməsi; 1995-ci il 3-4 iyulda MBD Parlamentlərarası Məclisi ilə birgə Batumi şəhərində Qara dəniz bıolgəsində sülh və sabitlik.

Parlament Məclisi iqtisadiyyat, ticarət, texnologiya və ətraf mühitin mühafizəsi sahəsində QİƏPM üzvü olan ıolkələr arasında kıomrük rejiminin sadələşdirilməsi; Qara dənizin ekoloji vəziyyəti; QİƏPM üzvü olan ıolkələrdə bank fəaliyyəti və maliyyə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə edərək müvafiq sənədlər qəbul edib.

Məclis mədəniyyət, təhsil və sosial işlər sahəsində isə mədəniyyət, təhsil, elm və informasiya sahəsində Qara dəniz konvensiyasının təsdiq edilməsi və yerinə yetirilməsi haqqında; Qara dəniz hıovzəsi tarixinin birgə tədqiq edilməsi proqramı; QİƏPM üzvü olan ıolkələrdə mədəni irsin qorunması; QİƏ ıolkələri paytaxtları arasında əməkdaşlığa dair; QİƏPM üzvü olan ıolkələr arasında təhsil sahəsində əməkdaşlığa dair sənədləri qəbul edib.

Təşkilat eyni zamanda Azərbaycanın da fəal iştirak etdiyi üzv ıolkələrin paytaxt başçılarının 1994-cü il 6-8 sentyabrında İstanbulda birinci, 1995-ci il 13-14 sentyabrında Kiyevdə keçən ikinci gıorüşdə aşağıdakı məsələləri müzakirə etdi: paytaxlarda səhiyyə, mədəniyyət, təhsil, sosial sahə, qanunçuluğun qorunması, cinayətkarlığa qarşı mübarizə, ekoloji vəziyyətin yaxşılaşdırılması, mədəni irsin qorunması.

1993-cü ildə Rumıniyada Qara dəniz Universiteti açıldı; 1994-cü ildə Soçidə birinci Qara dəniz İncəsənət festivalı, Gürcüstanda isə iki dəfə Qara dəniz kinofestivalı keçirildi.

QİƏPM Azərbaycanın yaxından iştirak etdiyi təşkilatlardan biridir. Azərbaycan tərəfinin dəvəti ilə təşkilatın siyasi və hüquqi işlər komitəsinin iclası 1994-cü il aprelin 27-28-də Bakıda keçirildi. Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrildi. İclasda təbii və texniki fəlakətlərin nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələsinin müzakirəsi nəticəsində yekun sənədi qəbul edildi.

Müstəqilliyin ilk illərindən Azərbaycan dıovlətinin üzv olduğu və işində iştirak etdiyi beynəlxalq təşkilatlardan biri PARLAMENTLƏRARASI İTTİFAQDIR. 1993-cü il aprelin 8-dən-12-dək Hindistanın Yeni Dehli şəhərində Parlamentlərarası İttifaqın 89-cu konfransı keçirildi. Əsası 1889-cu ildə qoyulan, 125-dən çox



ıolkənin parlamentinin üzv olduğu, işində çoxlu beynəlxalq və məhəlli təşkilatlaın müşahidəçi kimi iştirak etdiyi Parlamentlərarası İttifaqın iclasında Azərbaycan bu təşkilata üzv qəbul edildi.

Parlamentlərarası İttifaq qeyri-hıokumət təşkilatı olub, ıolkələrin parlamentlərinin milli qruplarından ibarətdir. Bu təşkilatın nizamnaməsi ona üzv olan parlamentlər arasında əlaqələrin genişləndirilməsini, xalqlar arasında sülh və əməkdaşlığın mıohkəmləndirilməsini nəzərə tutur. Parlamentlərarası İttifaqın orqanları İcraiyyə Komitəsi, Parlamentlərarası Şura, Parlamentlərarası Konfrans və Katiblikdir. Ali orqan Parlamentlərarası konfransdır. Qərargahı Cenevrədə (İsveçrə) yerləşir.

Parlamentlərarası İttifaqın Baş Katibi Pyer Korniyonun tıovsiyəsi ilə İcraiyyə Komitəsinin xüsusi iclasında qəbul məsələsinə baxıldı və nümayəndə heyətinə suallar verildi.

İcraiyyə Komitəsi müsbət zəmanətlə Parlamentlərarası Şura qarşısında məsələ qaldırdı. Parlamentlərarası Şura yekdil səsvermə ilə məsələni müsbət həll etdi və bu barədə Parlamentlərarası Konfransa məlumat verdi. Parlamentlərarası İttifaqın xüsusi nümayəndəsi Azərbaycan nümayəndə heyətini zalda ayrılmış yerə qədər müşayiət edərək onları təqdim etdi. Bundan sonra Azərbaycan Respublikasının dıovlət bayrağı qaldırıldı. Parlamentlərarası İttifaqın Baş Katibi Pyer Korniyon Azərbaycan nümayəndə heyətini qəbul etdi.

Konfransın gedişində Azərbaycan nümayəndə heyəti digər ıolkələrin parlament qrupları ilə əlaqə yaratdı. Azərbaycan nümayəndə heyəti ABŞ, Almaniya, Avstriya, Küveyt, Türkiyə, Rusiya, İran, Hindistan, Yaponiya parlamentlərinin milli qrupları ilə gıorüşüb əməkdaşlıq məsələlərini müzakirə etdilər. Aparılan iş nəticəsində konfransda Türkiyə, Küveyt və İran nümayəndə heyəti çıxışlarında Azərbaycana qarşı edilən haqsızlıqların dayandırılmasını tələb etdilər.

Nümayəndə heyəti Azərbaycan Respublikası Milli Məclisinin BMT-yə, dünya ıolkələrinin parlamentlərinə, ATƏT-ə və Avropa Parlamentinə müraciətini konfrans iştirakçıları arasında yaydılar.

Azərbaycan parlamenti nümayəndə heyətinin üzvləri kütləvi informasiya vasitələri ilə də fəal iş apardılar, müsahibələr

verərək Azərbaycanda gedən dəyişiklikləri, demokratik prosesləri, Milli Məclisin qəbul etdiyi qərar və qanunları, Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq müharibəsinin səbəblərini və nəticələrini açıqladılar.

Azərbaycan bu təşkilatın 1994-cü il martın 21-26-da Parisdə keçirilən 91-ci konfransında iştirak etdi.

Nümayəndə heyətinin üzvləri «Münaqişələrin qarşısının alınmasında, sülhün mıohkəmləndirilməsində BMT-nin və regional təşkilatın rolu və vasitələri», «Dünyada siyasi, iqtisadi və sosial şəraitə dair» mıovzularındakı ümumi müzakirələrdə çıxış etdilər. Çıxışlarda əsas yer Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının səbəblərinə, gedişinə və vurduğu ziyanlara verildi.

Konfransda müşahidəçi sifətilə iştirak edən Ermənistan parlament nümayəndə heyəti bir səhifəlik yazı hazırlayaraq gıostərdi ki, münaqişə Azərbaycanla Ermənistan arasında deyil, Azərbaycanla Dağlıq Qarabağın erməni «əhalisi» arasında münaqişədir və Ermənistan təcavüzkar deyildir. Xahiş edirdilər ki, Azərbaycan tərəfinin sıoylədikləri konfransın siyasi hesabatlarına daxil edilməsin. Lakin Ermənistan nümayəndə heyətinin hazırladığı yazıya və təkidlərə baxmayaraq Azərbaycan nümayəndə heyətinin çıxışları hesabatlara daxil edildi.

Azərbaycan nümayəndə heyətini Parlamentlərarası İttifaqın Baş katibi Pyer Korniyon qəbul etdi. Nümayəndə heyəti Bıoyük Britaniya, Almaniya, Misir, Rusiya, Litva, Çexiya. Macarıstan, İran, Türkiyə, Rumıniya parlamentlərinin milli qrupları ilə gıorüşdü. Gıorüşlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının səbəbləri, müharibənin vurduğu dağıntılar açıqlandı, məsələnin sülh yolu ilə həllinə Azərbaycanın tərəfdar olduğu gıostərildi.

Azərbaycan nümayəndə heyəti Parlamentlərarası İttifaqın sentyabrın 12-17-də Kopenhagendə (Danimarka) keçirilən 92-ci konfrasında iştirak etdi. Konfransda dünyadakı ümumi siyasi iqtisadi və sosial şəraitə dair ümumi müzakirələrdə nümayəndə heyətinin üzvləri iştirak etdilər. Küveyt, Misir, Türkiyə, Qazaxıstan, İran və b. nümayəndə heyətləri ilə gıorüşlər keçirildi.

1995-ci ildə Milli Məclisin sədr müavini Y.Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti Parlamentlərarası İttifaqın Madriddə (İspaniya) keçirilən 93-cü konfransında iştirak etdi. Konfransda çıxış edildi, bir sıra dıovlətlərin nümayəndə heyətləri ilə



gıorüşlərdə ikitərəfli əlaqələr, parlamentlərarası işgüzar münasibətlərin qurulmması məsələləri müzakirə olundu.

Azərbaycan dıovlətinin üzv olduğu beynəlxalq təşkilatlarda bir **İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATIDIR (İƏT)** Təşkilata Azərbaycan, İran, Türkiyə. Əfqanıstan, Pakistan, Qazağıstan, Ю́zbəkistan, Türkmənistan, Qazağıstan və Tacikistan daxildir. Əsasən bu ıolkələrin iqtisadi təşkilatı olan İƏT həm də siyasi problemlərin müzakirəsini keçirir. 1993-cü il iyunun 6-7-də İstanbulda İƏT-in yüksək səviyyədə ikinci gıorüşündə iştirak edən dıovlət başçıları Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığını pisləyən bəyanat qəbul etdi.

Yüksək səviyyədə İstanbul gıorüşündə iştirak edən dıovlətlər Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etdirilməsini, habelə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Ağdərə şəhərlərinə qarşı dıoyüş əməliyyatlarının gücləndirilməsini və genişləndirilməsini pislədilər. Gıostərildi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT nizamnaməsinin, beynəlxalq hüququn, insan hüquqları haqqında müahidənin və ATƏT sənədlərinin prinsip və məqsədlərini pozur. Bu rayonlara hücuma elə bir vaxtda başlanmışdı ki, bütün əlaqədar tərəflər BMT Təhlükəsizlik Şurasının 822 nıomrəli qətnaməsinin yerinə yetirilməsi sahəsində addımları dincliklə nizamasalmaya dair Minsk prosesi çərçivəsində bəyənmişdilər. Hər dəfə sülh prosesi çərçivəsində irəliyə doğru nıovbəti addım atılarkən dıoyüş əməliyyatlarına yenidən başlamaq və onları gücləndirmək Ermənistan üçün təşəkkül tapmış praktikaya çevrilir ki, bu da Ermənistanın münaqişəni danışıqlar vasitəsi ilə aradan qaldırmaq istəyi barəsində ciddi şübhələr doğururdu.

Gıorüşdə iştirak edən dıovlətlər qüvvədən istifadə etmək yolu ilə ərazilər ələ keçirilməsinin yolverilməzliyi və siyasi üstünlüklərə nail olmaq məqsədi ilə qüvvə işlədilməməsi prinsipinə tərəfdar olduqlarını təsdiq edərək, dünya birliyini ıoz nüfuzundan istifadə edərək Ermənistana təsir gıostərməyə və təcavüzə son qoymağa çağırdılar.

İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda yüksək səviyyədə ikinci gıorüşündə iştirak edən üzv dıovlətlər bütün dıoyüş əməliyyatlarının dərhal dayandırılmasını və işğal olunmuş bütün Azərbaycan ərazilərindən erməni silahlı birləşmələrinin çıxarılmasını, BMT Təhlükəsizlik Şurasının 822 nıomrəli

qətnaməsini yerinə yetirməyə dair təxirəsalınmaz tədbirlər planına əməl olunmasını tələb etdilər.

Gıorüşdə iştirak edən dıovlətlər Ermənistana müraciət edərək, təcavüzkar mıovqeyi dəyişdirməyə və bıolgədə sabitliyin və sülhün bərqərar olmasına doğru aparan sülh siyasəti yeritməyə çağırdılar.

Azərbaycan dıovləti eyni zamanda beynəlxalq mədəni əməkdaşlıq təşkilatlarının işində və yenilərinin yaradılmasında da iştirak etməyə başladı. Azərbaycan 1992-ci il 3 iyunda BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı olan YUNESKO-ya (United Nations Educational, Scienhigec and Cultural Organization) daxil oldu. Bu təşkilat BMT-nin hıokumətlərarası ixtisaslaşdırılmış müəssisədir. 1946-cı ildə yaradılıb. Onun 165-dən çox üzvü vardır. YUNESKO beynəlxalq aləmdə xalq təhsili, mədəniyyət, elm, informasiya sahələrində əməkdaşlığı həyata keçirir, milli mədəniyyətləri qoruyur. Təşkilat bir çox dillərdə 20-dən artıq dıovrü və seriya nəşrləri buraxır. Onun iqamətgahı Parisdədir. 1993-cü ilin dekabrın əvvəlində Azərbaycan Xarici İşlər Naziri H.Həsənov YUNESKO-nun iclasında məruzə ilə çıxış edərək Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin səbəblərini və nəticələrini açıqladı. Bir sıra ikitərəfli gıorüşlər keçirtdi. 1993-cü il 6 dekabrda isə Azərbaycan YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» 1972-ci il 16 noyabr tarixli konvensiyasına qoşuldu.

Azərbaycan Respublikası Beynəlxalq mədəni əməkdaşlıq təşkilatı olan **TÜRKSOYUN** yaradıcılarından biri oldu. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızstan, Türkmənistan, Türkiyə və Iozbəkistan respublikalarının mədənyyət nazirləri 8 maddədən ibarət «Türksoyun strukturu və fəaliyyət prinsipləri haqqında müqaviləni» imzaladılar. Təşkilatın məqsədi türkdilli xalqlar və ıolkələr arasında mədəni əlaqələri genişləndirilmək xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək idi. Təşkilatın rəhbəri olan əlaqələndirici iştirakçı dıovlətlərin mədəniyyət nazirləri arasında altı aydan bir seçilir.

Azərbaycan dıovləti çoxtərəfli əsasda **TÜRK DIOVLƏT BAŞÇILARININ ZİRVƏ GIORÜŞÜNÜN** yaradılmasının iştirakçısı oldu. Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Iozbəkistan, Qırğızstan dıovlət başçılarının birinci toplantısı 1992-ci



il oktyabrın 30-31-də İstanbulda keçirildi. Azərbaycanı prezident Ə.Elçibəy başda olmaqla nümayəndə heyəti təmsil edirdi. Gıorüşün nəticəsində bəyannamə imzalandı.

Türk dıovlət başçılarının ikinci toplantısı 1994-cü ilin oktyabrında İtsanbulda keçirildi. Azərbaycanı prezident H.Əliyev başda olmaqla nümayəndə heyəti təmsil edirdi. Gıorüşün sonunda İstanbul bəyannaməsi qəbul olundu. Bəyannamədə gıostərildi ki. ıolkələr beynəlxalq birlik tərəfindən qəbul olunmuş normalara hıormət və əməl edirlər, BMT və ATƏT prinsiplərinə sadiqdirlər, xalqları arasında dil, tarix, mədəniyyət sahəsində əlaqələri inkişaf etdirməyi zəruri sayırlar.

1995-ci ilin avqustunda Bişkekdə (Qırğızıstan) türk dıovlət başçılarının zirvə gıorüşü keçirildi. Zirvə gıorüşü türk dıovlətləri arasında iqtisadi, elmi-texniki, mədəni, humanitar əməkdaşlığa kıomək etdi. Əlbəttə, türk dıovlət başçılarının arasındakı əməkdaşlıq, zirvə gıorüşü bu ıolkələr arasındakı münasibətlərin etnik, dini amillər üzərində qurulması demək deyildir. Türk dıovlətləri arasındakı əməkdaşlıq beynəlxalq normalara, BMT Nizamnaməsinə və ATƏT prinsiplərinə əsaslanır. Bu əlaqələr bəzən bədxahlarımızın sıoylədikləri kimi «pantürkizm», «türk millətçiliyinin yüksəlməsi», «turançılıq» demək deyildir.

Azərbaycan dıovləti bir çox beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrildi. Dünyanın müxtəlif ıolkələrinin rəsmi dairələri, iş adamları Bakıya toplaşdılar. Azərbaycan dünya dıovlətləri ilə çoxtərəfli əsasda olan əməkdaşlığa xüsusi diqqət verirdi. Müəyyən qrup dıovlətlərin bu və ya başqa sahədə əməkdaşlıq etməsi Azərbaycanın beynəlxalq nüfuzunu artırırdı, ona olan inamı yüksəldirdi və etibarlı ortaq edirdi. Bu dıovlətlər də Azərbaycana regionda təkcə iqtisadi mərkəz kimi deyil, siyasi, mədəni mərkəz kimi baxmağa başladılar. 1994-cu ilin sentyabrında Bakıda «neft müqaviləsi» imzalandı.

Xəzər şelfində yataqların birgə işlənilməsi haqqında Azərbaycan Dıovlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması Azərbaycanın Qərbin qabaqcıl ıolkələri, ABŞ, Türkiyə və b. dıovlətlərə daha da yaxınlaşmasına kıomək etdi. Müqavilənin imzalanması, parlamentdə təsdiq edilməsi haqqında müsbət rəyin formalaşmasında, Azərbaycanın Avropaya çıxmasında əsaslı rol oynadı.

1995-ci il noyabrın 10-da Azərbaycan Dıovlət Neft Şirkəti ilə bir qrup xarici neft şirkəti-«LUKoyl» (Rusiya), «Acinp» (İtaliya), «Penzoyl Kaspian development korporeyşn» (ABŞ) və «Lukacip» (Rusiya-İtaliya) birgə müəssisəsi arasında saziş imzalandı.

Azərbaycanın konsorsium ıolkələri ilə əməkdaşlığı təkcə iqtisadi deyil, ciddi siyasi, strateji məsələdir. Azərbaycanın Ermənistanın təcavüzü nəticəsində düşdüyü vəziyyət belə əlaqələri zəruri edirsə, digər tərəfdən bu, ıolkəmizin beynəlxalq aləmdə gıotürdüyü xəttin, qabaqcıl ıolkələrlə əməkdaşlığın təcəssümüdür.

Юlkəmizin çoxtərəfli əsasda əməkdaşlığında təşkil edilən sərgi və yarmarkalar da ıozünəməxsus yer tutdu. Belə tədbirlərin ıolkənin həm siyasi, həm də ticarət-iqtisadi, elmi-texniki əlaqələrində bıoyük əhəmiyyəti vardır. Bu baxımdan Bakıda 18 ıolkənin 80 şirkətinin iştirak etdiyi «Hər şey insan üçün» birinci Azərbaycan Beynəlxalq Ticarət Sərgisi keçirildi. Sərginin təşkilatçıları Britaniyanın «İntənəşnl treyd ənd eksibişnz LTD» firması və Azərbaycan Ticarət-Sənaye Palatası idi.

Sərgi Azərbaycanı dünyanın bir sıra ıolkələrinə yaxından tanıtdı, onun imkanlarını üzə çıxardı, əməkdaşlığın forma və istiqamətlərini müəyyənləşdirdi. Belə əməkdaşlıq siyasi əlaqələri maddiləşdirdi, onun etibarlı etdi. Юz nıovbəsində siyasi əməkdaşlığın inkişafı işgüzar əlaqələrə stimul verdi.

Müstəqilliyin ilk illərində **BEYNƏLXALQ BƏRPA VƏ İNKİŞAF BANKI** ilə Azərbaycanın əlaqələri diqqəti cəlb edir. Bu təşkilat 1944-cü ildə Bretton-Vudsda (ABŞ) keçirilmiş beynəlxalq maliyyə-kredit konfransının qərarlarına uyğun olaraq yaradılıb. BMT-nin ixtisaslaşdırılmış müəssisəsi statusuna malikdir. Təşkilat iştirakçı ıolkələrin iqtisadiyyatını inkişaf etdirməkdən ıotrü onlara uzunmüddətli borclar və istiqrazlar verir. Beynəlxalq Bərpa və İnkişaf Bankının ali orqanı Direktorlar şurasıdır. İdarə heyəti Vaşinqtonda yerləşir, bıolmələri Parisdə və Tokioda vardır.

1994-cü ildə Avropa və Asiya ıolkələri departamentinin direktoru Rassel Çitam, 1995-ci ildə isə bankın Rusiya Federasiyası və Orta Asiya ıolkələri üzrə Departamentinin direktoru Huanq Yukon, həmin bankın Rusiya Federasiyası, Orta Asiya ıolkələri və Azərbaycan üzrə Enerji və İnfrastrukturu Departamentinin direktoru Conatan Braun və şıobə müdiri Tanju Yurukoğlu Azərbaycana səfər



etdilər. Səfər ıolkəmizin bu təşkilatla əlaqələrinin inkişafına kıomək etdi.

Azərbaycan dıovləti bu təşkilatın keçirdiyi tədbirlərin iştirakçısına çevrildi. Bu isə ıolkəmizə olan etimadın nümunəsi idi. Azərbaycan prezidenti Ümumdünya bankının təşəbbüsü ilə Bıoyük Britaniyada və Fransada keçirilən «Azərbaycana investisiya imkanları» mıovzusunda beynəlxalq konfransda iştirak etdi. Tədbirə 25 ıolkədən 200 nümayəndə qoşuldu. Nümayəndə heyətinin iş adamları, maliyyə, bank dairələri və siyasi xadimlərlə gıorüşləri işgüzar əlaqələrə kıomək etdi.

Bakıda və Azərbaycanın digər yerlərində bir neçə beynəlxalq təşkilatın nümayəndəliyi açıldı.

İlk bıoyük nümayəndəlik BMT-nin oldu. Nümayəndəliyin rəhbəri Mahmud Əl Səid (Misir) Azərbaycanla BMT arasında əlaqələndirmə işində, Dağlıq Qarabağla bağlı sənədlərin qəbul olunmasında, təcavüzkarlıq faktlarının toplanmasında müəyyən rol oynadı.

1992-ci ilin dekabrında Bakı şəhərində BMT-nin **QAÇQINLAR İŞİ ÜZRƏ ALİ BAŞ KOMİSSARLIĞININ NÜMAYƏNDƏLİYİ FƏALİYYƏTƏ BAŞLADI.**

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar işi üzrə Ali Baş Komissarlığı 1946-cı ildən başqa adla, 1951-ci il yanvarın 1-dən isə bu adla fəaliyyət gıostərir. 115 dıovlət BMT-nin qaçqınların statusuna dair 1951-ci il konvensiyasının üzvüdür. Azərbaycan Respublikası həmin konvensiyaya Milli Məclisin 8 dekabr 1992-ci il tarixli 402 saylı qərarı ilə daxil oldu. Komissarlığın əsas vəzifəsi beynəlxalq səviyyədə qaçqınları müdafiə etmək, onların problemlərinin təcili və uzunmüddətli həlli yollarını müəyyənləşdirib həyata keçirməkdən ibarətdir. Baş Komissarlıq Cenevrədə yerləşir.

Bakıda həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəliyi də yaradıldı. Beynəlxalq Qızıl Xaç Komitəsi 1863-cü ildə yaradılıb. Qızıl Xaç və Qızıl Aypara hərəkatının təşkilatçısı olmaqla onun vəzifələri 1949-cu il Cenevrə Konvensiyaları və 1977-ci ildə əlavə protokollarla müəyyənləşdirilib.

O, Beynəlxalq birlik tərəfindən sayılan və humanitar təşəbbüsə malik spesifik bitərəf təşkilat kimi müharibə və daxili gərginliklər nəticəsində zərər çəkən vətəndaşları müdafiə edir və onlara kıoməklik gıostərir, münaqişə nəticəsində həbs edilənlərlə

gıorüşlər təşkil edir, itkin düşmüş şəxslərin axtarışı ilə məşğul olur, orduda hərbi bilikləri təbliğ edir, milli Qırmızı Xaç və Qırmızı Aypara cəmiyyətlərinə texniki yardım gıostərir.

BQXK 1992-ci ildə Moskvada və MDB-yə daxil olan bir sıra başqa respublikalarda ıoz nümayəndəliklərini açdı. Respublika Qırmızı Aypara Cəmiyyətinin təşəbbüsü ilə 1993-cü ilin mart ayından Bakıda da onun nümayəndəliyi açıldı. Nümayəndəliyin Bakıda, Bərdədə və Xankəndində filialları vardır, əməkdaşlarının sayı 50 nəfərdir, onlardan 12-i yerli əhalinin nümayəndələridir.

1995-ci ildə Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti Kornelio Sommarsuqa Azərbaycanə səfər etdi. Səfər zamanı bu təşkilatla ıolkəmizin əlaqələri geniş müzakirə edildi. Ermənistanın təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş qaçqınlara yardım gıostərilməsinin zəruriliyi bildirildi.

Nümayəndəlik respublikada beynəlxalq humanitar hüquqa dair biliklərin yayılmasına diqqət yetirdi, bu məqsədlə hərbi hissələrdə sıohbətlər keçirdi, kino filmlər nümayiş etdirdi.

Azərbaycan Respublikası 1993-cü il iyunun 1-də Cenevrə konvensiyalarını imzaladı. BQXK Qırmızı Xaç və Qırmızı Aypara milli cəmiyyətlərinin Federasiyası ilə birlikdə Azərbaycanın Qırmızı Aypara Cəmiyyətinin mıohkəmləndirilməsinə kıomək edir və onun Beynəlxalq Qırmızı Xaç-Qırmızı Aypara hərəkatına qəbul edilməsi üçün səy gıostərir.

1993-cü il oktyabrın 11-12-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəliyi ıolkəmizə gəldi. Nümayəndəliyə BQXK-nin Şərqi Avropa və Orta Asiya üzrə baş nümayəndə cənab jan-Mark Borne başçılıq etdi. Onlar Azərbaycan Respublikasının Prezidenti ilə gıorüşdülər.

Respublikamızda **BEYNƏLXALQ QIRMIZI XAÇ VƏ QIRMIZI AYPARA CƏMİYYƏTLƏRİ FEDERASİYASININ** nümayəndəliyi də fəaliyyətə başladı. BQXQACF 1919-cü ildə yaradılıb.

1993-cü ilin aprel ayında Azərbaycan Qırmızı Aypara Cəmiyyəti İcraiyyə Komitəsinin təşəbbüsü ilə Bakıda ilk dəfə Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyasının nümayəndəliyi, sonralar isə Mingəçevirdə onun filialı yaradıldı.



Nümayəndəliyin əsas məqsədi Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin işini beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirmək üçün lazımi təşkilatı işlər gıormək və hərtərəfli kıoməklik gıostərməkdir.

Bakıda **BEYNƏLXALQ İSLAM QURTULUŞ TƏŞKİLATININ** nümayəndəliyi də fəaliyyət gıostərir. Təşkilatın Bakıdakı nümayəndəliyinin başçısı Şadi Zahirldindir.

Iolkəmizdə həmçinin «SƏRHƏDSİZ HƏKİMLƏR» beynəlxalq humanitar təşkilatı da fəaliyyət gıostərir. Assosiasiya Brüsseldə yerləşir. Onun Bakıdakı nümayəndəliyi Qarabağ münaqişəsinin qurbanlarına, Azərbaycandakı qaçqın və kıoçkünlərə humanitar yardım gıostərir.

Beynəlxalq və məhəlli təşkilatlarda ıolkəmizin iştirakı xalqımızın sülhsevər təbiəti ilə şərtlənərək dıovlətimizin beynəlxalq hüquq normalarına hıormət etməsi əsasında həyata keçirilib. Beynəlxalq və məhəlli təşkilatlarda iştirak Azərbaycan dıovlətinin xarici siyasətinin istiqamətlərindən birini təşkil edib. Beynəlxalq və məhəlli təşkilatlarda iştirak etməklə ilk addımlarını atmasına baxmayaraq, bu fəaliyyət əsasən uğurlu olub. Müvafiq iştirakla Azərbaycan nümayəndə heyəti xalqımız və dıovlətimiz haqqında həqiqəti, Ermənistanın təcavüzkarlıq siyasətinin mahiyyətini dünyaya çatdırmağa çalışıb.

Bununla belə, beynəlxalq və məhəlli təşkilatlarda iştirak etməkdə bir sıra qüsurlar da olub. Bu qüsurlar əsasən təcrübənin azlığı maliyyə-valyuta çətinlikləri və nümayəndə heyətlərinin bəzən hazırlıqsızlığı ilə bağlı idi.